**Hər kəs ədalətli olacaq**

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | *İctimai-siyasi, hüquq qəzeti* | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 15 (6157) 24 aprel 2026-cı il | Qiyməti 40 qəpik

# LİDERLƏRİN BİRLİYİ BÜTÜN DÜNYAYA MESAJDIR



## Hikmət Hacıyev: "Sülh üçün təşəbbüslər yalnız kağız üzərində qalmamalıdır"



**Cənubi Qafqazda hazırda nə tam sülh, nə də açıq qarşıdurma mövcuddur.**

Adalet.az xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Antalya Diplomatiya Forumu çərçivəsində keçirilən "Cənubi Qafqaz: Strateji mərkəzə çevrilmə yolunda" mövzusunda keçirilən panel sessiyada deyib.

"Sülhə nail olmaq üçün artıq müəyyən addımlar atmışıq və bu, Vaşinqton zirvəsində də öz təsdiqini tapdı. Türkiyə də iki ölkə arasında münasibətlərin yaxşılaşdırılması istiqamətində prosesə start verib. Lakin bu təşəbbüslər yalnız kağız üzərində qalmamalıdır. Praktiki addımlar atılmalı və real işlər görülməlidir. Yalnız bu şəkildə iki ölkə arasında etimadın formalaşmasına nail olmaq mümkündür", - H.Hacıyev bildirib.

O qeyd edib ki, Azərbaycan məhsulları artıq Ermənistana ixrac olunur, eyni zamanda Ermənistanın da məhsulları Azərbaycana idxal edilməyə başlayıb:

"Bu, qarşılıqlı etimadın formalaşması baxımından mühüm addımdır. Ümumilikdə, ölkələrimiz arasında etibarlı və dayanıqlı münasibətlər qurulmalıdır".

H.Hacıyev vurğulayıb ki, hazırda ətraf bölgələrdə müxtəlif münaqişələr davam edir.

"ABŞ-İran gərginliyi, eləcə də Rusiya-Ukrayna müharibəsi regionda təhlükəsizlik mühitinə təsir göstərir. Bu səbəbdən, biz də təhlükəsizliyin təmin olunması istiqamətində aktiv fəaliyyət göstəririk. Bu prosesdə Türkiyə və Gürcüstanla əməkdaşlıq mühüm rol oynayır", - o deyib.

## PREZİDENT QARABAĞI TİKİR, ƏLİ ƏSƏDOV İSƏ...



**... Bakıda obyektlər, restoranlar, otellər və sair və ilaxır tikib və tikir. Özü bilər, bir də lazımi qurumlar, təşkilatlar. Təbii ki, o qurumların gücü çatsa.**

Bizim isə Əli Əsədovdan çox kiçik bir xahişimiz var, imkanı varsa Möhtərəm Prezident İlham Əliyevin yolu ilə getsin, o da Qarabağda nə isə tiksin. İstəyər restoran, istəyər otel, nə tikir-tiksin, təki tiksin. Bu da olsun onun Qarabağa, qarabağlılara və dövlətə xeyiri.



**MİR ŞAHİN AĞAYEV: QARABAĞ ("QARABAĞ") AZƏRBAYCANDIR! HƏR BİR HALINDA. YA DIRNAQLI, YA DIRNAQSIZ!**

*Əbülfət MƏDƏTOĞLU*

## Yetim qalan Əbülfətdi, Pir ana

Bax:səh-8

## *Bakının bu ərazisində tramvay şəbəkəsi yaradılır*

**Bakıda nəqliyyat infrastrukturunun inkişafı çərçivəsində bir neçə istiqamət üzrə yeni tramvay xətlərinin çəkilməsi planlaşdırılır.**

Adalet.az xəbər verir ki, bu barədə AzTV-yə müsahibəsində İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı deyib.

"Seabrezdən Mehdiabada qədər tramvay xəttinin çəkilməsi nəzərdə tutulur. Bu xəttin Mehdiabaddan metronun "28 May" stansiyasına qədər uzadılması planlaşdırılır. Bundan əlavə, Bayıl ərazisindən "28 May" stansiyasınadək də tramvay xəttinin çəkilməsi gündəmdədir. Eyni zamanda, "28 May"dan "Həzi Aslanov" istiqamətində, Mehdiabaddan isə "8 Noyabr" stansiyasına qədər yeni xətlərin salınması nəzərdə tutulur.

Layihələrin həyata keçirilməsi nəticəsində paytaxtın şərq və qərb, eləcə də şimal və cənub istiqamətləri arasında nəqliyyat əlaqəsi daha da gücləndiriləcək",- deyə V. Qasımlı bildirib.

**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**

## "SABAH" RƏVAN HƏMZƏZADƏNİ ÖZÜ İLƏ APARACAQ?!



**Heç kim "Sabah"ın çempionluğuna və oyunlarına kölgə salmaq istəmir. Əksinə, "Qarabağ"la rəqabət aparacaq bir komandanın olması futbolumuzun inkişafı deməkdir.**

**"Qarabağ"la oyunda da "Sabah" gözəl və ağıllı oyun nümayiş etdirdi. Amma nədənsə hakim Rəvan Həmzəzadə "Sabah"ın halal işinə haram qatdı. Haramlıq isə heç kimə heç vaxt xeyir verə bilməz.**

**"Sabah"a Avropa Çempionlar Liqasında uğurlar arzulayırıq. Amma onu dəqiq bilmirik ki, klub onun halal işinə haram qatan hakim Rəvan Həmzəzadəni özü ilə aparacaqmı?! Klubun bu Çempionlar Liqasında oyunlarında hakimliyi ona tapşıracaqlarmı?**

**Kor da bilir Əlifin şoru duzsuzdu, Rəvan Həmzəzadə şükürlər ki, kor deyil, amma Əlifin şorunun duzsuz olduğunu görmür.**

**Nə isə...**

Bax:səh-2

## *GÜNÜN LƏTİFƏSİ*



**Vəli Xramçaylı: - "Telefonuma addım ölçən proqramını yazmışam. Baxıram ki, bir ildə 3326 km. yol getmişəm. Həmin vaxt ərzində hardasa 128 litr araq içmişəm, hesablayıram 100 km-ə təxminən 4 litr "rasxod" düşür.**

# Prezident Azərbaycan Ağsaqqallar Şurasının IX Qurultayının iştirakçılarına müraciət ünvanlayıb



**Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Ağsaqqallar Şurasının IX Qurultayının iştirakçılarına müraciət ünvanlayıb.**

Müraciətdə deyilir:

"Sizi Azərbaycan Ağsaqqallar Şurasının IX Qurultayının işə başlaması münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycan xalqının qədim mənəvi-əxlaqi dəyərlərinə söykənən ağsaqqallıq ənənəsi milli irsimizin ən mühüm dayaqlarından biridir. Ağsaqqallara hörmət həm Azərbaycan şifahi xalq ədəbiyyatında, həm də yazılı ədəbiyyatında fundamental bir dəyər kimi daim ön planda yer alır. Təsadüfi deyil ki, xalqımızın tarixi keçmişini,

adət-ənənələrini əks etdirən "Kitabi-Dədə Qorqud" dastanında ağsaqqal nəsihətinə və sözünə ehtiram ən yüksək əxlaqi keyfiyyət kimi təsvir olunub.

Xalqımızın tarixi ənənələrini rəhbər tutaraq üzərlərinə düşən vacib missiyanı daim uğurla həyata keçirən ağsaqqallarımız cəmiyyətdə əxlaqi-mənəvi dəyərlərin qorunub saxlanmasının və nəsillərarası varisliyin təminatçısı olaraq çıxış edirlər. Eyni zamanda milli dövlətçilik ənənələrinin davam etdirilməsi və vətəndaş həmrəyliyinin möhkəmləndirilməsində ağsaqqallarımızın müstəsna xidmətləri vardır.

Məhz ağsaqqallarımızdan vətənpərvərlik və fədakarlıq tərbiyəsi alan gənclərimiz Vətən müharibəsində şanlı Zəfərimizin əldə olunmasında mühüm rol oynayıblar. 30 ildən çox torpaq həsrəti ilə yaşamış, müharibənin ağrı-acısını görmüş böyüklərimizin gənc nəslə aşıladığı milli qürur və Vətən sevgisi sayəsində xalqımızın müasir hərb tarixinə yeni bir səhifə yazıldı. Sevindirici haldır ki, bu gün ağsaqqallarımız ölkə həyatının bütün sahələrində fəal iştirak edirlər. Dünyada artan təhdidlər, xüsusilə də qloballaşma və sosial şəbəkə platformalarının zərərli təsirləri nəticəsində bir çox ölkələrdə milli-mənəvi və ailə dəyərlərinin deformasiyaya uğraması Azərbaycanda mövcud olan ağsaqqallıq institutunun əhəmiyyətini və rolunu daha qabarıq şəkildə vurğulayır. Gənclərimizi milli vətənpərvərlik və öz köklərinə bağlı ruhda yetişdirmək, onları düzgün yola istiqamətləndirmək ağsaqqallarımız qarşısında duran əsas vəzifələrdən biridir.

Keçən əsrin sonlarında yaranan və sıralarında həyatını cəmiyyətə xidmətə həsr etmiş tanınmış xadimləri birləşdirən Azərbaycan Ağsaqqallar Şurası böyük yol keçərək bu gün də ölkəmizin inkişafına töhfə verir. Şura ölkənin ictimai-siyasi və humanitar inkişafında, cəmiyyət həyatının aktual məsələlərinin həllində və gənc nəslin tərbiyəsində iştirak edir. İnanıram ki, IX Qurultayda aparılacaq müzakirələr və qəbul olunacaq qərarlar Ağsaqqallar Şurasının fəaliyyətinin təkmilləşdirilməsinə, ölkənin ictimai-siyasi həyatında təşkilatın rolunun daha da güclənməsinə xidmət edəcəkdir.

Qurultayın işinə uğurlar, hər birinizə isə möhkəm cansağlığı, uzun ömür, dəyərli ictimai fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram".

# İlham Əliyev: "Bu gün Avropa İttifaqının 10 üzvü Azərbaycandan təbii qaz alır"

**Təbii qaza hər zaman ehtiyac olub, son bir neçə ildə ehtiyac artmışdı, son bir neçə ayda isə daha da artmış oldu. Planımız istehsalı və mütləq şəkildə ixracı artırmaqdır. Bu gün Avropa İttifaqının 10 üzvü Azərbaycandan təbii qaz alır. Ölkələrin ümumi sayı 16-dır və bu göstərici üzrə biz dünyada birinci yerdəyik.**

Bu fikri Prezident İlham Əliyev aprelin 22-də Bakıda keçirilən Azərbaycan-Latviya biznes-forumunda çıxışı zamanı deyib. "Biz ən böyük hasilatçı və ixracatçı deyilik, bizdən daha böyük oyunçular var. Lakin boru kəmərləri vasitəsilə qaz ixrac edən ölkələr arasında təchizat coğrafiyasına görə biz birinciyik", - deyə Prezident İlham Əliyev əlavə edib.

# Nazir Vilayət Eyvazov Kollegiya iclası keçirdi

**Aprelin 21-i Daxili İşlər Nazirliyində onlayn formatda Kollegiya iclası keçirilib.**

DİN-in Mətbuat Xidmətindən Adalet.az-a bildirilib ki, mülkiyyət əleyhinə olan cinayətlərin qarşısının alınması və açılması, mühafizə-siqnalizasiya vasitələrinin tətbiqi sahəsində həyata keçirilən tədbirlər və bayır xidmətinin təşkilinin vəziyyətinə həsr olunmuş iclası giriş sözü ilə açan nazir general-polkovnik Vilayət Eyvazov bildirib ki, ictimai asayişin və təhlükəsizliyin qorunması sahəsində fəaliyyət digər hüquqmühafizə orqanları ilə qarşılıqlı əlaqədə 2026-cı ilin birinci rübündə də məqsədyönlü şəkildə davam etdirilib. Cinayətlərin qarşısının alınması, açılması, istintaqı, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində həyata keçirilən kompleks tədbirlər müsbət nəticələr verib, kriminogen durum nəzarətdə saxlanılıb.



Qeyd olunub ki, cari ilin 3 ayında əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyekti olan bütün dövlət qurumları üzrə qeydə alınmış 7738 cinayətin 85,9 faizinin açılması təmin olunub. Daxili İşlər Nazirliyi və prokurorluq üzrə qeydə alınmış cinayətlərin 90,1 faizi açılıb. 2025-ci ilin eyni dövrü ilə müqayisədə cinayətlərin dinamikasında 4,9 faiz azalma baş verib. Qeyri-aşkar şəraitdə baş verən cinayətlərin, mülkiyyət əleyhinə olanların, o cümlədən oğurluqların açılması yaxşılaşıb, qəsdən adam öldürmə və ona cəhdlərin, cibgirliklərin, quldurluqların, avtonəqliyyat vasitəsini qaçırmaların açılması tam təmin olunub. Qeyri-leqal dövriyyədən 2 ton 310 kiloqram, ötən ilin analoji dövrü ilə müqayisədə isə 648 kiloqram çox narkotik vasitə çıxarılıb.

Ağır, xüsusilə ağır və qrup halında cinayətlərin, şəxsiyyət əleyhinə olanların, adam öldürməyə cəhdlərin, mülkiyyət əleyhinə olanların, onlardan oğurluqların, dələduzluqların, soyğunçuluqların, quldurluqların, avtonəqliyyat vasitəsini qaçırmaların, informasiya texnologiyalarından istifadə edilməklə törədilənlərin, əvvəllər məhkum olunmuşlar, yetkinlik yaşına çatmayanlar tərəfindən və ailə münaqişəsi zəminində törədilən cinayətlərin sayı azalıb, eyni zamanda yol-nəqliyyat hadisələrinin sayı 15 fakt, qəzalarda ölənlərin sayı 9 nəfər, xəsarət alanların sayı 44 nəfər az olub.

Daha sonra gündəlikdəki məsələlərlə bağlı Nazirliyin Baş idarə, idarə və ərazi polis orqanlarının rəislərinin görülmüş işlər, əldə olunmuş nəticələr, mövcud nöqsan və çatışmazlıqlar və onların aradan qaldırılması üzrə həyata keçirilən tədbirlər barədə çıxışları dinlənilib.

İclasa yekun vuran daxili işlər naziri V.Eyvazov gündəlikdəki məsələlər üzrə görülən işlərin bütövlükdə qənaətbəxş olduğunu, bəzi ərazi orqanlarının fəaliyyətində müəyyən nöqsan və çatışmazlıqların mövcudluğunu qeyd edərək onların aradan qaldırılması üçün müvafiq tədbirlərin görülməsini, xüsusən yetkinlik yaşına çatmayanların hüquqazidd əməllərdən çəkindirilməsi üçün profilaktik işin gücləndirilməsini, onların sosial şəbəkələrin zərərli təsirlərindən qorunması məqsədilə aidiyyəti dövlət qurumları və vətəndaş cəmiyyəti institutları ilə birgə maarifləndirmə tədbirlərinin daha məqsədyönlü davam etdirilməsini tələb edib.

Eyni zamanda, əməliyyat-xidməti fəaliyyətin bir sıra vacib istiqamətləri və aktual məsələləri üzrə konkret tapşırıq və tövsiyələrini verib.

*Aqil ABBAS*

# "SABAH" RƏVAN HƏMZƏZADƏNİ ÖZÜ İLƏ APARACAQ?!

**Heç kim "Sabah"ın çempionluğuna və oyunlarına kölgə salmaq istəmir. Əksinə, "Qarabağ"la rəqabət aparacaq bir komandanın olması futbolumuzun inkişafı deməkdir.**

**"Qarabağ"la oyunda da "Sabah" gözəl və ağıllı oyun nümayiş etdirdi. Amma nədənsə hakim Rəvan Həmzəzadə "Sabah"ın halal işinə haram qatdı. Haramlıq isə heç kimə heç vaxt xeyir verə bilməz.**

**"Sabah"a Avropa Çempionlar Liqasında uğurlar arzulayırıq. Amma onu dəqiq bilmirik ki, klub onun halal işinə haram qatan hakim Rəvan Həmzəzadəni özü ilə aparacaqmı?! Klubun bu Çempionlar Liqasında oyunlarında hakimliyi ona tapşıracaqlarmı?**

**Kor da bilir Əlifin şoru duzsuzdu, Rəvan Həmzəzadə şükürlər ki, kor deyil, amma Əlifin şorunun duzsuz olduğunu görmür.**

**Nə isə...**

**Onu da bilirik ki, Qurban Qurbanov və komandası yenə Avropa çempionatlarında öz sözünü deyəcək, Rəvan Həmzəzadə istəsə də, istəməsə də.**

**Mart, gözünə barmağım, yaza çıxdı oğlağım.**

**Və bir də onu deyim ki, "Qarabağ"ın hər il çempion olmaq öhdəliyi yoxdur. Dilxor olma, "Qarabağ", biz həmişə səninləyik - udanda da, uduzanda da, çempion olsan da, olmasan da.**

**Qurban Qurbanovun soyuqqanlılığına qibtə edirəm.**

**Vaqif Cəbrayılzadənin gözəl bir şeiri var:**

***Ax, zalım dostlar,***
***zalım qardaşlar***
***fələyin zülmünə düşəndən bəri***
***kimin nə vecinə ki,***
***anamın əziziyəm,***
***kimin nə vecinə ki,***
***anam yalvarır göyə.***
***O qarasaç Allahım,***
***o gödəkboy Allahım***
***susub,***
***qorumur məni.***
***Bir də baxıb***
***görürsən ki,***
***bir boynuyoğun,***
***bir yekəqarın***
***üzündə bir şillə yeri***
***durub gözləyir səni.***
***Amma***
***bir boynuyoğun,***
***bir yekəqarını***
***döymək***
***mənə bir az çətindi***
***bir şillələik canım var.***
***Ax, zalım dostlar,***
***zalım qardaşlar.***

**İndi Rəvan Həmzəzadənin... Nə isə...**

# Azərbaycan Belçika və Niderlanda nota verdi

**Belçika Krallığının Azərbaycan Respublikasındakı səfiri Julyen de Frepon və Niderland Krallığının Azərbaycan Respublikasındakı səfiri Marian de Yonq ayrı-ayrılıqda Xarici İşlər Nazirliyinə (XİN) çağırılıblar.**




Bu barədə Adalet.az-a XİN-dən bildirilib.

Qeyd edilib ki, görüşlər zamanı, 16 aprel 2026-cı il tarixində Belçika və Niderland Parlamentləri tərəfindən qəbul edilmiş, Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü, eləcə də Azərbaycanla Ermənistan arasında davam edən sülh prosesini sarsıtmaq məqsədi daşıyan növbəti məsuliyyətsiz cəhdlər olan sənədlərə qarşı kəskin etiraz bildirilib.

Sənədlərin tamamilə yalan və əsassız qiymətləndirmələrə uyğun olaraq tərtib edildiyi, bu qurumlar daxilində dərin kök salmış Azərbaycan əleyhinə qərəzi nümayiş etdirdiyi vurğulanıb.

Sənədlərdə yer alan qəbuledilməz iddiaların beynəlxalq hüququn kobud şəkildə pozulması və qanunun aliliyinə açıq şəkildə müdaxilə olduğu qeyd edilib. Bundan əlavə, görüşlər zamanı Azərbaycanın suveren əraziləri ilə bağlı saxta istinadlar, eləcə də Ermənistanın ərazi bütövlüyünün pozulması iddiası, erməni əsilli şəxslərin hüquqları və onların guya qanunsuz həbsi ilə bağlı bütün əsassız ittihamlar qətiyyətlə və sərt şəkildə rədd edilib.

Sənədlərin qəbulunun Azərbaycan və Ermənistan parlamentlərinin Spikerləri arasında son görüşlə üst-üstə düşdüyü üçün xüsusilə paradoksal olduğu səfirlərin diqqətinə çatdırılıb. Belçika və Niderland tərəfləri müvafiq parlamentlərində anti-Azərbaycan qruplarının ikitərəfli münasibətlərə zərər verməsinin qarşısını almaq üçün təsirli tədbirlər görməyə çağırılıblar.

# Azərbaycan-Türkiyə hərbi təhsil sahəsində inkişaf perspektivləri müzakirə olunub

**Azərbaycan Respublikasının müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ölkəmizdə səfərdə olan Türkiyə Milli Müdafiə Universitetinin rektor müavini professor Talat Canbolatın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Bu barədə Adalet.az-a Müdafiə Nazirliyindən məlumat verilib.



Bildirilir ki, türkiyəli qonaqlar əvvəlcə Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarlarını, həmçinin Şəhidlər xiyabanı və Türk Şəhidliyini ziyarət edərək gül dəstələri qoyub, xatirələrini ehtiramla yad ediblər.

Azərbaycan Ordusunun Baş Qərargahında keçirilən görüşdə qonaqları salamlayan general-polkovnik K.Vəliyev Azərbaycan-Türkiyə münasibətlərinin tarixi köklərə söykəndiyini vurğulayaraq, bu əlaqələrin digər sahələrdə olduğu kimi hərbi təhsil sahəsində də inkişafının vacibliyini qeyd edib.

Bildirilib ki, hərbi təhsil sahəsində qarşılıqlı təcrübə mübadiləsi hərbi qulluqçuların bilik və bacarıqlarının artırılmasında mühüm rol oynayır.

Səmimi qəbula və göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirən professor T.Canbolat hərbi təhsil sahəsində əməkdaşlığın yüksək səviyyədə olduğunu qeyd edib.

Görüşdə hərbi təhsil sahəsində görülən birgə işlərin cari vəziyyəti və inkişaf perspektivləri, həmçinin qarşılıqlı maraq doğuran bir sıra mövzulara dair geniş fikir mübadiləsi aparılıb.

# "ABŞ NATO-nu tərk edərsə, Avropadakı hərbi bazalarından məhrum ola bilər"

**"NATO Yaponiya və Cənubi Koreya ilə əməkdaşlığı genişləndirməyə qərar verib. Şimali Atlantika Blokunun Yaponiya və Cənubi Koreyaya təxminən 300 nümayəndədən ibarət heyət göndərməsi buna sübutdur. Bu səfər Pekinin narazılığına səbəb olub. Pekində nəşr olunan "Global Times" qəzeti NATO-nun Asiya-Sakit okean regionunun hesabına hərbi, siyasi və diplomatik fəaliyyət dairəsini genişləndirməyə çalışdığını yazıb. Beləliklə, NATO Şərqə doğru genişlənmək siyasətini həyata keçirir".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

O, bildirib ki, Şimali Atlantika Bloku bununla gücünü zəifləmədiyini göstərməyə çalışır:

"Çünki, NATO-nun əsas ölkəsi olan ABŞ Prezidenti Donald Trampın təşkilatı sərt tənqid etməsi Şimali Atlantika Blokunun imicinə mənfə təsir edib. NATO Trampın "Hörmüz boğazını birgə qoruyaq" çağırışına dəstək vermədi. Buna görə də Tramp ABŞ-ın NATO-nu tərk edəcəyinə dair açıqlamalar verdi. Halbuki, bunu yerinə yetirmək asan deyil. ABŞ-nin NATO-nu tərk etməsi üçün Konqresin qərarı lazımdır. Digər tərəfdən ABŞ NATO-nu tərk edərsə, Avropadakı hərbi bazalarından məhrum ola bilər. Bu isə ABŞ-nin fövqəldövlət statusuna mənfi təsir edəcək. Buna baxmayaraq, ABŞ-NATO münasibətlərindəki ziddiyyətlər Şimali Atlantika Blokunun birliyinə təsir edib. Bu mənada NATO-nun Yaponiya və Cənubi Koreya ilə artan hərbi əməkdaşlığı təşkilatın təhlükəsizlik məsələlərində arxa planda olmadığını göstərir. Brüssedə əmindirlər ki, Avropanın təhlükəsizliyi Asiyanın təhlükəsizliyindən birbaşa asılıdır. Şimali Atlantika Bloku buna görə Asiya istiqamətinə önəm verməyə başlayıb".




Politoloq deyib ki, NATO Yaponiya, Cənubi Koreya, Avstraliya və Yeni Zelandiya birgə hərbi təlimlərinin sayını artırıb: "Ötən ilin yanvar ayında Yaponiya NATO yanında daimi nümayəndəlik açıb. Yaponiya Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda bildirilirdi ki, Yaponiya NATO ilə fundamental dəyərləri və strateji maraqları bölüşən tərəfdaşdır. Yaponiya Çin təhlükəsindən qorunmaq üçün qonşu ölkələrlə də hərbi əməkdaşlığı genişləndirib. Misal üçün 2014-cü ildə Yaponiya ilə Avstraliya arasında 7 milyard dollarlıq hərbi əməkdaşlıq sazişi imzalanıb. Yaponiyanın hərbi gücünü artırması, NATO ilə ittifaqı gücləndirməsi Pekinlə yanaşı Moskvanı da narahat edir. Kreml hesab edir ki, Yaponiya İkinci Dünya müharibəsində məğlubiyyət şərtlərinə görə, hərbi gücünü artırmamalıdır. Halbuki, Çinin bölgədə artan hərbi gücü, o cümlədən Yaponiya sahillərinə yaxın Çin-Rusiya hərbi təlimlərinin keçirilməsi Tokioya hərbi gücünü artırmaqdan başqa alternativ qoymayıb".

**Vasif ƏLİHÜSEYN**

# «Ankara həm real hərbi güc, həm də strateji tərəfdaş kimi Körfəz ölkələrindən...»

**"İslam dünyası, Körfəz ölkələri artıq Vaşinqtonun İsrailin aqressiv siyasətinə nəzarət edə biləcəyinə inanmır. Bu etimadsızlıq regionu Türkiyənin, Pakistanın hərbi çəkisi, strateji dəstəyi və Çinin iqtisadi-diplomatik moderatorluğu ilə yeni bir təhlükəsizlik sistemi yaratmağa doğru sürətlə apara bilər.Bu gün Yaxın Şərqdə baş verənlər onilliklərdir davam edən təhlükəsizlik sisteminin köklü şəkildə sarsılmasıdır. Uzun müddət ABŞ-nin "təhlükəsizlik çətiri" altında sığınan Körfəz ölkələri artıq bu çətirin etibarsız olduğunu və daha çox İsrailin maraqlarını qorumaq üçün yaradıldığını düşünməyə başlayıblar".**

Adalet.az xəbər verir ki, bunu politoloq Zaur İbrahimli deyib.

Onun sözlərinə görə, Pakistan hərbçilərinin Səudiyyə Ərəbistanında mənzillənməsi strateji bölgənin tarixində yeni bir səhifə açır: "Bu, epoxal dəyişikliklərin ilk ciddi əlamətidir. ABŞ-dən başqa regionda yalnız Türkiyənin (Qətərdə) hərbi bazasının olması, Ankara və İslamabadın Körfəz üçün alternativ "müdafiə qalxanı" rolunu ön plana çıxarır. Təl-Əvivin son dövrlərdə nümayiş etdirdiyi real güc nümayişi, aqressiv ambisiyalar və xarici siyasətini getdikcə daha çox dini-ideoloji baxışlar üzərində qurması Körfəz paytaxtlarında həyəcan təbili çalır. İsrailin bu aqressiv ambisiyaları qarşısında Vaşinqtonun tamamilə passiv qalması, hətta İsrailin maraqlarından çıxış etməsi Körfəz ölkələri və İslam dünyası üçün əsas risk amilinə çevrilib. Bu cür yanaşma İranın İsrailə qarşı iddialarının bir hissəsinin artıq haqlı hesab edilməsi ilə əlaqədar tərəf tutanların mövqeyini gücləndirib".

Politoloq bildirib ki, Körfəz ölkələri, İranın bölgəni yenidən "iqtisadi cəhənnəmə" çevirməsinin qarşısını almaq üçün ABŞ-nin hərbi rametmə siyasətinə deyil, Çinin moderatorluğuna ön plana çıxarmağa başlaya bilərlər:

"Çin regionda sabitliyin təmin edilməsi üçün daha adekvat, ədalətli və iqtisadi mənfəətə dayanan alternativ model təklif edir. Bu model, ticarət yollarının və enerji bazarlarının qorunması üçün qarşılıqlı asılılığı təşviq edir. Türkiyə və Misirin vasitəçiliyi ilə İranla yeni münasibətlər sisteminin qurulması ehtimalı getdikcə güclənir. Ankara həm real hərbi güc, həm də strateji tərəfdaş kimi Körfəz ölkələrindən daha böyük dəstək ala bilər. İslam dünyası Çinlə mərhələ-mərhələ əməkdaşlığı gücləndirməklə, ABŞ-nin İsrail mərkəzli siyasətinin yaratdığı boşluğu doldurmağa çalışa bilər. İndiki halda bütün təhlükəsizlik sistemi ABŞ-yə söykənsə də, iqtisadiyyat və İsrailin aqressiv siyasəti ilə yaranan təhlükələr geosiyasi oriyentirlərini dəyişir. İslam dünyası artıq Vaşinqtonun İsrailin təcavüzkar siyasətinə nəzarət edə biləcəyinə inanmır. Bu etimadsızlıq regionu Türkiyənin, Pakistanın hərbi çəkisi, strateji dəstəyi və Çinin iqtisadi-diplomatik moderatorluğu ilə yeni bir təhlükəsizlik sistemi yaratmağa doğru sürətlə apara bilər".

**Sübhan**

## *Əziz Əlibəyli: "İlham Əliyev Rusiyaya üzr istədən yeganə adamdır"*



**"Moskva ən güclü dövründə Bakıdan necə əfv dilədi? Rusiya 1992-ci ildə üzr istədiyi Yaponiya və Cənubi Koreyaya əslində o qədər də möhtac deyildi, lakin çox zəif bir dövrdən keçirdi, prezident Yeltsin Tokiodan kapital dilədiyi bir dövrdə rəsmi Bakıya hədə gəlir, Azərbaycanın Qarabağda güc yolu ilə heç bir şansının olmadığını deyərək, ölkəmizi hədələyirdi".**

Adalet.az xəbər verir ki, bunu politoloq Əziz Əlibəyli deyib.

O, bildirib ki, Rusiya tarixi boyunca, xüsusilə özünün gücünün zirvəsində olanda ümumiyyətlə, üzr istəməyi ar hesab edən qlobal güc olub:

"Rusiya Azərbaycandan üzrü Ukraynanı işğala davam etdiyi bir dövrdə etdi.Rusiya Azərbaycana qarşı təyyarə hadisəsindən sonra bütün kartları işə saldı, soydaşlarımız güllələbaran edilib, öldürüldü, həbsə atıldılar, diasporumuzun şanlı oğulları təzyiqə məruz qaldı.Lakin Azərbaycan dövlət iradəsi yolundan dönmədi və üzr istətməyə davam etdi.Rusiya Azərbaycansız mümkün və mövcud olmaz.Rusiyada da ağıllı adamlar var və arada bəziləri onlara Şimal-Cənub dəhlizini xatırladır və yada salır ki, Azərbaycan izin verməsə, Rusiya ən əlverişli quru yolu ilə hüsnünə çox heyran olduğu İrana qovuşacaq gücə və imkana malik olmaz.Rusiyanın günahını etiraf etməsi il yarım çəkdi...Heç olmamaqdansa, gec olması yaxşıdır...Bu arada, biz ruslara üzr istədik də, ABŞ-ın qətlə yetirdiyi 168 iranlı məktəbli qıza görə üzr istəməsi yaxşı olmazdımı? Onların da hesabında Vyetnam, İraq, Liviya kimi hadisələr az deyil".

**Sübhan**

## *"İranın Zəngəzur dəhlizinə mane ola bilməsi yeni böhrana yol aça bilər"*

**"İranda SEPAH bağlı müəyyən siyasilər qeyd edir ki, İran qalib olarsa, "Zəngəzur" dəhlizi -TRİP layihəsinin qarşısını alacaq. Bu layihəni Türk Birliyi kimi təqdim edərək, İran üçün arzuolunmaz bir marşrut kimi xarakterizə edirlər. Göründüyü kimi, hakimiyyətdə qalmasını özünün qalibiyyəti hesab edən SEPAH qonşu ölkələrə qarşı yenidən təhdidlərlə danışır. Ötən gün Bəhreyni işğalla hədələyən rejimin sözçüləri bu gün "Zəngəzur" dəhlizini və Türk birliyini hədəfə alırlar.Bu rejimin mahiyyəti budur".**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

O, bildirib ki, qonşularla normal münasibətlər sisteminə deyil, yalnız təzyiq etməklə öz mövqelərini diktə edir:

"Qırx gün ərzində öz liderlər kadrosunun itirən və ölkənin hərbi infrastrukturu sıradan çıxarılması, hərbi donanması yox olmaqla yanaşı, ölkənin "olum ya ölüm" dilemması qarşısında olan rejimin yenidən dili açılıb."Zəngəzur" dəhlizi regional iqtisadi və nəqliyyat əməkdaşlığıdır. Regionda sülhə xidmət edir. İranın Zəngəzur dəhlizinə mane ola bilməsi yeni böhrana yol aça bilər. Öz ərəb qonşuları tərəfindən hərbi zərbələrə məruz qalan İranın şimal qonşuları ilə körpüləri yandırması öz əleyhinə işləyə bilər.Bu gün İsrail bütün qonşulari ilə düşmən vəziyyətdədir. Hər bir qonşusunun təhdid edir. Görünür, İran rejimi -SEPAH İsrailin həyata keçirdiyi eyni xəttə malikdir".

**Vasif**

## *Azərbaycanda biznesin idarə edilməsində yenilik*

**Azərbaycan Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin tabeliyində olan Azərbaycan Standartlaşdırma İnstitutu (AZSTAND) tərəfindən AZS ISO TS 22317:2026 "Təhlükəsizlik və davamlılıq. İş fəaliyyətinin (biznesin) davamlılığını idarəetmə sistemləri. İş fəaliyyətinə (biznesə) təsirin təhlili üzrə təlimatlar" yeni dövlət standartı qəbul edilib.**

Adalet.az xəbər verir ki, yeni standartın tətbiqi müəssisə və təşkilatlarda biznes fəaliyyətinə təsirin sistemli və hərtərəfli təhlilini təmin etməklə kritik iş proseslərinin asanlıqla müəyyənləşdirilməsinə, potensial risklərin dəqiq qiymətləndirilməsinə və iş davamlılığının daha səmərəli və effektiv idarə olunmasına mühüm töhfə verəcək.

Sözügedən dövlət standartı AZSTAND-ın təsis etdiyi "Uyğunluğun qiymətləndirilməsi" standartlaşdırma üzrə Texniki Komitədə (AZSTAND/TK 08) qəbul edilərək Standartlaşdırma üzrə normativ sənədlərin Dövlət Fonduna daxil edilib.



Səxavət Məmməd

# ABŞ-İran savaşı yenidən alovlana bilər

İran-ABŞ/İsrail arasında baş verən müharibə hazırda kövrək atəşkəs dövrünü yaşayır.

Atəşkəsin əldə olunmasının siyasi baxımdan çoxlu sayda səbəbini sadalamaq olar, ancaq hərbi cəhətdən bu fasilə labüd idi. Çünki ABŞ prosesə qısamüddətli yanaşmışdı. Daha sonra ABŞ prezidenti və bir çox rəsmi şəxslər qeyd edirdilər ki, əməliyyat 4-6 həftəlik müddət üçün nəzərdə tutulub. Bu, təsadüfi bir rəqəm deyil; hər hansı əməliyyata hazırlaşarkən orada istifadə olunacaq vasitələr və onların sayı mütləq şəkildə nəzərə alınır.

Yəni, ABŞ İrandakı əməliyyata nə qədər resurs ayırmışdısa, döyüşləri də o qədər davam etdirə bildi. ABŞ mediasında da resursların tükənmək üzrə olduğu açıq şəkildə yazılırdı. Hətta Tramp da bir neçə gün əvvəl etiraf etdi ki, atəşkəs yenidən hazırlıq üçün bir vasitə idi.

40 günlük müharibə zamanı ABŞ öz ehtiyatlarını xeyli tükədib. ABŞ mediasında qeyd olunur ki, döyüşlərdə həssas zərbə raketlərinin 45%-i, THAAD HHM sistemlərinin raketlərinin yarısı, Patriot raketlərinin təxminən 50%-i, Tomahawk qanadlı raketlərinin isə 30%-i istifadə olunub. Yenə ABŞ mediası kəşfiyyat orqanlarına istinadən yazır ki, İranın əlində hələ də 60% raket buraxılış qurğusu qalıb, zədəliləri isə qısa zamanda təmir ediblər.

Bundan əlavə, dron ehtiyatının yarısından çoxu qalmaqdadır ki, istehsal prosesini də nəzərə alsaq, bu, kifayət qədər ciddi hərbi resurs anlamına gəlir.

Tərəflər atəşkəs zamanı danışıqlarla paralel olaraq ciddi şəkildə resurs toplamaqla məşğuldur. İran üçüncü ölkələr vasitəsilə Çindən, birbaşa isə Rusiyadan yeni silahlar, xüsusilə daşına bilən, alçaqdan uçan hava hədəflərini məhv etmək üçün vasitələr alır.

40 günlük müharibə göstərdi ki, İranın tək zəif yeri hava hücumundan müdafiə sistemləri yox, həm də daşına bilən zenit-raket komplekslərinin çatışmazlığıdır.

Əgər İran çoxlu sayda bu tip raketlər əldə etsə, havada vəziyyət xeyli dəyişə bilər. Üstəlik, İran həmin raketləri İraqdakı qruplaşmalara da verə bilər ki, bu da havada yanacaq dolduran təyyarələr üçün əsl problemə çevrilər.

Müharibənin gedişində ABŞ Cənubi Koreyadan və Avropadakı müttəfiqlərindən "Patriot"un raketlərini tələb etmişdi. Hazırda isə ABŞ oxşar tədarükü Yaponiyadan həyata keçirir. Sahədə tərəflərdən heç biri mütləq üstünlük qazana bilmədiyi üçün masa ətrafında da vəziyyət son dərəcə gərgindir. Şərtlər olduqca ağır olduğundan, razılığın qısa zamanda əldə olunacağı gözlənilmir. ABŞ İranı blokadaya alıb, İran isə Hörmüz boğazını bağlayıb.

Düzdür, ABŞ iddia edir ki, bundan ancaq İran zərər çəkir, məsələ ondadır ki, bütün Körfəz ölkələri bu durumdan əziyyət çəkir. Bundan əlavə, ABŞ-nin blokadası keçilməz də deyil. Faktiki olaraq, blokadadan yayınan İranın 30-dan çox tankerin olduğu barədə Qərb mediasında məlumatlar yayılıb.

Əslində blokadanın keçilməz olacağı inandırıcı da deyil, çünki bu sahə Venesuelanın blokadasından qat-qat genişdir. Həmçinin qeyd etmək istəyirəm ki, İran atəşkəsdən sonra Körfəzdəki tankerlərin keçidinə say məhdudiyyəti qoymaqla strateji baxımdan doğru addım atıb.

Çünki Körfəzin tamamilə boş olması ilə orada tankerlərin olması fərqli vəziyyətlərdir; bununla İran əlində mühüm bir şantaj və təhdid vasitəsi saxlamış olur.

Tramp qeyd edir ki, İrandakı dəmiryollarına, körpülərə və elektrik stansiyalarına zərbələr endirəcək. Faktiki olaraq mülki obyektlər. İran isə rəsmən bəyan edir ki, belə bir halda Körfəzdəki bütün neft və qaz yataqlarını vuracaq. Hazırda dünyada benzinin və qazın qiymətində ciddi artım var. Hətta vəziyyət elə bir həddə çatıb ki, bəzi aviaşirkətlər uçuşları ləğv edib.

Məsələn, Almaniyanın "Lufthansa" aviaşirkəti (Lufthansa Group) 2026-cı ilin yay mövsümü üçün 20 000 uçuşun ləğv edildiyini rəsmən elan edib. Bunun səbəbi isə təyyarə yanacağının (kerosin) kəskin bahalaşması və Yaxın Şərqdəki münaqişə fonunda yanacaq xərclərinin iki dəfəyə yaxın yüksəlməsidir.

Yəni, Trampın sözdə İrana vurduğu zərbə əslində bütün dünya iqtisadiyyatına endirilən zərbədir. İran Körfəzdəki neft-qaz yataqlarını vuracağı təqdirdə vəziyyət daha da qəlizləşəcək.

Şübhəsiz ki, baş verənlər Rusiyanın xeyrinədir. Düzdür, Ukrayna Rusiyanın neft emalı zavodlarına zərbələr endirsə də, "Drujba" neft kəmərini açmaq məcburiyyətində qaldı. Vəziyyət bir qədər də dərinləşsə, onsuz da xərclənmək üçün istifadə olunan Ukraynanı Avropadakı bəzi tərəfdaşları da gözardı edəcəklər...

Bəzən hadisələr baş verən zaman onlara dəqiq qiymət vermək mümkün olmur, növbət hadisəni gözləmək məcburiyyətində qalırsan. Müharibənin gedişində ABŞ və İsrailin İrandakı xalqları ayağa qalxmağa çağırmasına reaksiya gəlməməsinin səbəbi məhz yanvar ayındakı etirazlar və həmin vaxt hakimiyyətin nümayişçilərə qarşı tətbiq etdiyi sərt tədbirlərdir. Tramp indi qeyd edir ki, etirazlar zamanı İranda 43 min insan öldürülüb. Trampı düşündürən və əsəbləşdirən öldürülən insanların sayı deyil. Əgər o insanlar öldürülməsəydi, müharibə zamanı ayağa qalxa bilərdilər və daxildə xaos yaranardı. Ümumiyyətlə, hər hansı bir ABŞ prezidentinin və ya imperialist ölkə rəhbərinin insanlıq haqqında düşündüyü fikrindən uzağam.

Faktiki olaraq, Qəzzada bütün dünyanın gözü qarşısında soyqırımı törədildi və guya insanlığı düşünən Trampın çıxış yolu fələstinliləri oradan köçürüb, Qəzzanı turizm zonasına çevirmək təklifi oldu. İnsanlıq dərsi imiş...

Müharibə yenidən başlayacağı və ya bu şərtlərlə bitəcəyi təqdirdə, bu, Körfəzdə suların durulacağı anlamına gəlməyəcək. İran onsuz da uzun zamandır Bəhreyndə iş aparır. Bəhreyn daxilində ciddi proseslərin olacağı, hətta hakimiyyətlə xalq arasında qarşıdurmanın yaranacağı qaçılmaz görünür.

Bundan əlavə, Birləşmiş Ərəb Əmirlikləri istiqamətində də addımlar atılacaq. Onu da əlavə edim ki, müharibə yenidən alovlanacağı təqdirdə, döyüşlərin coğrafiyası genişlənəcək və prosesə əlavə dövlətlər də qoşulacaq.

# "Bu işdə valideynlərin və müəllimlərin üzərinə böyük məsuliyyət düşür"

**"Bakıda baş verən dəhşətli hadisə hər birimizi ciddi şəkildə düşündürməlidir. Belə ki, 2011-ci il təvəllüdlü məktəblinin üzərinə sinif yoldaşı tərəfindən spirt tökülərək alışqanla yandırılması ilə bağlı məlumat yayılıb. Hadisəni törədən 2010-cu il təvəllüdlü məktəblinin polis əməkdaşları tərəfindən saxlanıldığı bildirilir".**



Adalet.az xəbər verir ki, bunu millət vəkili Ceyhun Məmmədov deyib.

O, bildirib ki, bu cür ağır və qəbuledilməz hadisənin məktəb mühitində baş verməsi artıq sadəcə fərdi hal deyil, cəmiyyət olaraq qarşılaşdığımız ciddi problemin göstəricisidir:

"Məktəb yalnız təhsil verilən yer deyil, həm də uşaqların davranışlarının, dəyərlərinin və münasibətlərinin formalaşdığı bir mühitdir. Bu mühitdə belə aqressiyanın ortaya çıxması xüsusi narahatlıq doğurur. Valideynlərin, müəllimlərin və ümumilikdə cəmiyyətin üzərinə böyük məsuliyyət düşür. Uşaqlarla düzgün ünsiyyət qurmaq, onların psixoloji vəziyyətini anlamaq, aqressiyanın səbəblərini vaxtında müəyyən etmək və qarşısını almaq son dərəcə vacibdir.

Bu cür hallar nə normallaşdırıla, nə də diqqətdən kənarda qala bilər. Uşaqlar arasında zorakılığın qarşısının alınması üçün təhsil müəssisələrində psixoloji dəstək mexanizmləri gücləndirilməli, maarifləndirmə işləri daha sistemli şəkildə aparılmalıdır.

Unutmamalıyıq ki, bu gün baş verən belə hadisələr sabah daha böyük fəsadlara yol aça bilər. Buna görə də hər birimiz bu məsələyə həssas yanaşmalı və cəmiyyət olaraq düzgün nəticələr çıxarmalıyıq".

**Vasif ƏLİHÜSEYN**

# Psixoloq: "Bu hadisə artıq iki uşağın davası deyil"

**Aprelin 20-də 286 nömrəli tam orta ümumtəhsil məktəbində 2010-cu il təvəllüdlü yeniyetmə 2011-ci il təvəllüdlü şəxsin üzərinə spirt tökərək alışqanla yandırıb.**



Hadisəylə bağlı Adalet.az-a danışan psixoloq Zeynəb Əyyubova bildirdi ki, ümumiyyətlə, məsələyə geniş aspektən baxanda bu üçbucaqda bir tərəfini valideyn, övlad və məktəb desək, biz tək tərəfi günahlandıra bilmərik.

Onun sözlərinə görə, valideynlər də gərək susmasın və məktəblərə də susmamaq siqnalı vermək lazımdır:

"Biri digərini əzəndə, incidəndə, bullinq edəndə hər kəs öz övladına desin ki, susma. Valideynləri qınamaq lazımdır. Onlar evlərində uşaqda problem olduğunu görəndə hərəkətə keçməlidir. Deyəndə ki, sənin övladın məktəbdə birini vurur, onlar cavablarında mənim övladım bunu etməz deyirlər. Bu qədər kitablar oxuyurlar, kinolara baxırlar, həyat dərsi keçirlər və buna rəğmən mənim uşağım etməz deyən valideynləri qınamalıyıq. Bu üçbucaq dayanmadan işlər görməlidir, zaman çətinləşir. Yayımlanan serialların verdiyi mesajlar, insanların yaşadığı həyatlar, "Tiktok"da uşaqların gördükləri və sair. Bütün bunların hamısı gətirib ona çıxarır ki, bu gün bullinqə məruz qalmış bir uşaq evdə planlayıb gəlib başqa uşaqları belə problemə salır".

Z.Əyyubova bu hadisənin artıq iki uşağın davası olmadığını bildirib:

"Bu bütöv bir sinifin qorxusudur, ədalətsizliklə qarşılaşmasıdır. İki gəncin savaşının sonunun olmamasını bütün sinif canlı yaşadı. Ordakı qız və oğlanların qorxusu, müəllimlərin həyəcanı, hər biri gələcəkdə uşaqların travması üçün bir detaldır. Ona görə də uşaqları vicdana, mərhəmətə yönəltmək lazımdır. Hətta mümkün olsa, məktəblərdə bu cür dərslər keçirilsin".

**Sübhan**

# Politoloq: "İranda köhnə ruhani elitası darmadağın olub"

**"İran məsələsini məntiqi nə idi? Hörmüzdə ikiqat boğazbağlama oyunundan sonra bir çox yanaşmalarda ABŞ prezidenti Tramp ələ salındı. Məsxərə obyektinə çevrildi. Dəqiqədə bir dəyişkən mövqe göstərdi, dünən bir, bu gün iki deyib özünü təkzib etdi. Amma qalib gəldiyini iddia edən İran da bu durumda qaldı. İran qalib gəlmir. O, parçalanıb dağılır".**



Adalet.az xəbər verir ki, bunu politoloq Əziz Əlibəyli deyib.

Politoloq bildirib ki, İrana dair hökm sürən baxış tamamilə əksinə çevrildi:

"Bizə deyirlər ki, Tehran Körfəzdə iradə göstərir və müharibədə qalib gəlir. Amma deyən azdır ki, Donald Trump dünyanın ən həssas boğazını təhlükəyə ataraq qumar oynayır və bunun ən böyük "udar"ı İrana deyir. Əslində isə İran gücünü möhkəmləndirmir - o, geriləməni idarə etməyə çalışır. Əsas məsələ isə bundadır:

Trumpın Hörmüz boğazı ilə bağlı gedişi enerji bazarlarını sakitcə məcbur edib ki, təhlükəsizliyi yenidən qiymətləndirsin. Tarazlığı qəti şəkildə Amerikaların xeyrinə, Avropa, Asiya və Çindən uzağa doğru dəyişdirsin. İslam Respublikası artıq inamlı inqilabi bir layihəyə oxşamır.

Köhnə ruhani elitası darmadağın olub, hakimiyyət iki düşərgə arasında parçalanıb: biri xaricilərlə razılaşmanı yeganə xilas yolu kimi görür, digəri isə silahı, himayə şəbəkələri və çox real qorxusu olan İslam İnqilabı Keşikçiləri Korpusudur (SEPAH). Onlar bilirlər ki, hər hansı real razılaşma nəticədə onları kənara atacaq".

**Vasif**

# "Bakı ilə Riqa arasında münasibətlərin geniş regional əməkdaşlıq modelinə çevrilmək perspektivi var"



*Könül Nurullayeva, Milli Məclisin deputatı*

**Son illər Azərbaycanın iqtisadi siyasətində əsas prioritetlərdən biri şaxələndirmədir. Qeyri-neft sektorunun sürətli inkişafı və ÜDM-də payının artması ölkəmizin xarici tərəfdaşlar üçün daha cəlbedici məkana çevrildiyini göstərir. Bu isə Latviya kimi texnologiya, logistika və xidmət sahələrində təcrübəyə malik ölkə üçün yeni imkanlar yaradır. Bakıda keçirilən yüksək səviyyəli görüşlər və biznes-forum bir daha göstərdi ki, Azərbaycan-Latviya münasibətlərinin inkişafı üçün yaxşı perspektivlər mövcuddur. Prezident İlham Əliyev və Latviya dövlət başçısı Edqars Rinkeviç tərəfindən səsləndirilən fikirlər bu əməkdaşlığın gələcək istiqamətlərini aydın şəkildə ortaya qoydu.**

Xüsusilə enerji sahəsində əməkdaşlıq diqqət mərkəzindədir. Azərbaycan artıq Avropa üçün etibarlı enerji təchizatçısı kimi mövqeyini möhkəmləndirib. Bu kontekstdə Latviya həm enerji təhlükəsizliyinin möhkəmləndirilməsi, həm də yaşıl enerji layihələrində iştirak baxımından maraqlı tərəfdaş kimi çıxış edir. 2032-ci ilə qədər bərpaolunan enerji gücünün əhəmiyyətli dərəcədə artırılması planları Avropa şirkətləri, o cümlədən Latviya investorları üçün geniş perspektivlər açır.

Digər mühüm istiqamət nəqliyyat və logistika sahəsidir. Azərbaycanın Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin mərkəzində yerləşməsi onu regionun əsas tranzit qovşaqlarından birinə çevirib. Latviyanın isə Şimali və Mərkəzi Avropaya çıxış imkanları bu əməkdaşlığı daha da genişləndirir. Bu mənada Bakı ilə Riqa arasında logistika körpüsünün qurulması Avrasiya məkanında yeni ticarət marşrutlarının formalaşmasına töhfə verə bilər. Cənab Prezidentin də söylədiyi kimi, "Coğrafiya investisiyalarımızla və Azərbaycanın açıq dənizə çıxışı olmayan ölkədən beynəlxalq nəqliyyat qovşağına çevrilməsi üçün uzunmüddətli siyasətlə tamamlanır. Bu gün Azərbaycan olmadan Şərq və Qərb arasında bağlantı problemlidir. Dost ölkələrlə, birbaşa qonşularımızla və qonşularımızın qonşuları ilə əməkdaşlıq edərək yüklər üçün təhlükəsiz və etibarlı nəqliyyat marşrutunu təmin edə bilmişik."

Kənd təsərrüfatı və meşəçilik sahəsində əməkdaşlıq da xüsusi əhəmiyyət kəsb edir. Latviyanın bu sahədəki zəngin təcrübəsi Azərbaycanın regionlarında həyata keçirilən inkişaf layihələri ilə uyğunlaşır. Xüsusilə işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və yenidənqurma işləri çərçivəsində bu əməkdaşlıq real iqtisadi nəticələr verə bilər.

Bundan əlavə, müdafiə sənayesi və yüksək texnologiyalar sahəsində əməkdaşlıq perspektivləri də diqqət çəkir. Hər iki ölkənin bu sahədə artan potensialı birgə istehsal və texnoloji mübadilə üçün zəmin yaradır. Süni intellekt, dron texnologiyaları və innovativ həllər yaxın gələcəkdə əməkdaşlığın yeni istiqamətlərini əhatə edəcək.

Bütün bunların fonunda qarşılıqlı investisiyaların təşviqi əsas prioritet olaraq qalır. Azərbaycanın yaratdığı sabit maliyyə mühiti və Latviyanın Avropa bazarlarına inteqrasiyası bu prosesin daha da sürətlənməsinə imkan yaradır. Eyni zamanda, tərəflərin qarşılıqlı investisiya layihələri üzərində işləməsi münasibətlərin davamlılığını təmin edəcək əsas amillərdən biridir.

**Nəticə etibarilə, yaxın illərdə Bakı ilə Riqa arasında tərəfdaşlıq yalnız ikitərəfli deyil, həm də daha geniş regional əməkdaşlıq modelinə çevrilə bilər.**

# Suriyadan 5 Azərbaycan vətəndaşı ölkəyə gətirildi

**5 Azərbaycan vətəndaşı Suriyadan repatriasiya olunub.**

Bu barədə Adalet.az-a Azərbaycan Xarici İşlər Nazirliyindən məlumat verilib.

Qeyd olunub ki, Azərbaycan hökuməti tərəfindən görülmüş mərhələli və koordinasiyalı tədbirlər nəticəsində Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 oktyabr tarixli 2336 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Xarici ölkədə çətin həyat şəraitində olan yetkinlik yaşına çatmayan Azərbaycan Respublikası vətəndaşlarının repatriasiyası və reabilitasiyası Qaydaları"nın müvafiq müddəalarına uyğun olaraq 21 aprel 2026-cı il tarixində Suriya Ərəb Respublikasının münaqişə bölgəsindən 2 (iki) qadın və 3 (üç) uşaq olmaqla, ümumilikdə 5 (beş) nəfər Azərbaycan Respublikası vətəndaşının Türkiyə Respublikasından ölkəmizə repatriasiyası həyata keçirilib.

İlk növbədə repatriantların yeri, şəxsiyyəti və Azərbaycan Respublikası vətəndaşlığına mənsubiyyəti müəyyən edilib və daha sonra Türkiyə Respublikası ərazisinə keçidi təşkil olunub. İraq və Suriyadan Azərbaycan vətəndaşlarının repatriasiyasına məsul olan müvafiq dövlət qurumlarının nümayəndələri Türkiyə Respublikasının İstanbul şəhərinə ezam edilib, repatriantların ilkin tibbi və psixoloji müayinəsinin həyata keçirilməsi təmin olunub.

Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı Səfirliyi və İstanbuldakı Baş Konsulluğu tərəfindən müvafiq əlaqələndirmə işi aparılmaqla vətəndaşlarımız Azərbaycan Respublikasına qayıdış şəhadətnamələri və uçuş biletləri ilə təmin edilib.

21 aprel 2026-cı ildə nümayəndə heyətinin müşayiəti ilə qeyd olunan vətəndaşların ölkəmizə repatriasiyası həyata keçirilib.

Repatriantların sosial reabilitasiyası və cəmiyyətə reinteqrasiyası istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Xarici ölkələrin ərazisində silahlı münaqişənin qurbanına çevrilmiş Azərbaycan Respublikası vətəndaşlarının repatriasiyası üçün zəruri tədbirlərin görülməsi davam etdiriləcəkdir.

# «ABŞ-nin «Hörmüz boğazı»nı uzun müddət mühasirədə saxlaması..."

**"Tehran Vaşinqtonun "Hörmüz boğazının" mühasirəsindən imtina etməyəcəyi halda İranın boğaza nəzarəti davam etdirəcəyini açıqlayıb. Beynəlxalq birlik "Hörmüz boğazı"yla bağlı razılaşmanın yerinə yetirilməsini istəyir. ABŞ-nin boğazın mühasirəsini davam etdirməsi Vaşinqtonun Pekinlə də münasibətlərini gərginləşdirə bilər. Çünki, Vaşinqton elan etmişdi ki, İran limanlarından çıxan tankerlərin hərəkətinə imkan verilməyəcək. İrandan "Hörmüz boğazı" üzərindən neft alan əsas ölkə isə Çindir".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

Onun sözlərinə görə, ABŞ hərbi gəmilərinin Çinə aid tankerləri yoxlamağa başlaması Pekinin qəzəbinə səbəb olacaqdı: "Bu vəziyyət



ABŞ Prezidenti Donald Trampın mayın ortalarında Çinə planlaşdırılan səfərin yenidən təxirə salınmasına gətirib çıxara bilərdi. Halbuki, bu səfər çoxdan razılaşdırılıb və Çin lideri Si Cinpin bu səfər vasitəsilə ABŞ Prezidenti Donald Trampla iki ölkə arasında iqtisadi oyun qaydalarını müəyyənləşdirmək istəyir. ABŞ-nin "Hörmüz boğazı"nı uzun müddət mühasirədə saxlaması Çini Tayvan məsələsini eyni yolla həllinə həvəsləndirə bilərdi. Çin eyni ilə ABŞ kimi Tayvan adasına yaxınlaşan ticarət gəmilərini yoxlamaq barədə düşünə bilər. Pekinin arqumenti bu ola bilər ki, Çinə aid olan Tayvana üçüncü ölkələrin hərbi texnikasının daşınmasının qarşısını almaq istəyir".

E.Şahinoğlu bildirib ki, Pekinin Rusiya-Ukrayna müharibəsindən və Yaxın Şərqdə gərgin vəziyyətdən istifadə edərək Tayvanı hərbi yolla Çinə birləşdirmək planı haqqında fikirlər söylənilirdi: "Ancaq Pekin adanı hərbi yolla ələ keçirmənin risklərini hesablamaq məcburiyyətindədir. Adanın hərbi yolla nəzarətə götürülməsi ABŞ-nin Çinə qarşı daha sərt sanksiyaların qəbuluna həvəsləndirəcək. Bundan başqa ada ətrafında iki böyük dövlətin toqquşması ehtimalı da arta bilər. Digər tərəfdən yarımkeçiricilərin istehsalına görə dünya lideri olan Tayvanın nəzarətə götürülməsi Çinin yüksək texnologiyalar sahəsindəki rəqiblərini əzməsi anlamına gələcək ki, ABŞ buna yol verə bilməz. Yəni Tayvanın hərbi yolla ələ keçirilməsi dünyada ticarət müharibələrini alovlandıracaq. Bu isə Çinin özünə də lazım deyil.

Bu səbəbdən Pekin Tayvanı hərbi yolla nəzarətə götürmək planını qeyri-müəyyən müddətə təxirə salıb. Pekin Tayvanla bağlı strategiyasında dəyişiklik edib. Pekin "yumşaq güc" amilinə üstünlük verib. Tayvanın müxalifət liderinin Pekinə dəvət edilməsi və Si Cinpinlə görüşməsi bu siyasətin tərkib hissəsidir".

**Sübhan**

## "Hindistan üçün önəmli olan Rusiyadan hərbi texnikanın alışının davamıdır"



**"Yaxın Şərqdəki müharibələr BRİCS təşkilatını çətin vəziyyətə salıb. Məsələ burasındadır ki, təşkilatın yeni üzvləri arasında İran və Birləşmiş Ərəb Əmirlikləri də var. İranın son müharibədə ən çox raket və dron atdığı ölkə məhz Birləşmiş Ərəb Əmirlikləri olub. BRİCS ABŞ-ın və İsrailin İrana qarşı müharibənin əleyhinə olsa da, İranın təşkilatın digər üzvü - Birləşmiş Ərəb Əmirliklərinin bombalanmasına dəstək verə bilməzdi. Odur ki, təşkilatın vahid açıqlamasının əvəzinə BRİCS üzvləri ayrı-ayrılıqda müharibəylə bağlı bəyanatlar yayımlayıblar".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

O, bildirib ki, BRİCS çoxqütblü dünyanın formalaşdırılmasına çalışır:

"2026-cı ilin yanvar ayından BRICS (Braziliya, Rusiya, Hindistan, Çin, Cənubi Afrika Respublikası) təşkilatında sədrlik Hindistana keçib. Bu ilin sentyabr ayında Yeni Dehlidə təşkilatın sammiti keçiriləcək. Hindistanda keçiriləcək sammitdə əsas diqqətin üzv ölkələr arasında ticarət və maliyyə məsələlərinin həllinə yönələcək. Üzv ölkələr milli valyutalar əsasında ticarəti təmin etməyə və dollardan asılılıqlarını azaltmağa çalışırlar.

Bu məqsədlə rəqəmsal valyutalarla hesablaşmağın vacibliyi üzərində müzakirələr gedir. Üzv ölkələrin məqsədi SWIFT-ə alternativ hesablaşma sisteminin formalaşdırılmasıdır. Ancaq bu asan başa gəlməyəcək".

Onun sözlərinə görə, ABŞ tarixən dolların statusunu yüksək və milli təhlükəsizliyinin, o cümlədən iqtisadi dominantlığın dayağı kimi görüb:

"ABŞ Prezidenti Donald Tramp ticarətdə dollardan imtina etməyə çalışan ölkələri sanksiyalarla hədələyib. BRİCS ölkələrinin əksəriyyəti ABŞ ilə ticarət əlaqələrinin genişlənməsində maraqlıdırlar.

Odur ki, həmin dövlətlərin dollardan tamamən imtinası çətindir.Bu arada, Rusiya ilə Hindistan arasında 2025-ci ilin fevral ayında imzalanan hərbi əməkdaşlıq haqqında müqavilə təsdiq olunub.

Bu müqaviləyə əsasən tərəflər bir-birinin ərazisində 3 minə qədər hərbi qulluqçu, beş hərbi gəmi və 10 hərbi təyyarə yerləşdirə bilər. İki ölkə arasındakı müqavilə bölgədə sülhü və sabitliyi qorumaq üçün hərbi personalın, hərbi gəmilərin və təyyarələrin qarşılıqlı göndərilməsini nəzərdə tutur.

Müqaviləyə əsasən bir-birlərinin ərazilərinə göndərilən hərbi kontingentlər birgə təlimlər keçirir, humanitar yardım göstərir, təbii və texnogen fəlakətlərin fəsadlarını aradan qaldırır və tərəflərin razılaşdırdığı digər hallarda sülhü və sabitliyi qoruyurlar. Müqavilənin Yaxın Şərqdə gərginliyin davam etdiyi vaxtda qüvvəyə minməsi sənədin strateji əhəmiyyətini artırıb".

E.Şahinoğlu deyib ki, buna baxmayaraq, mövcud müqavilə Hindistanın Rusiyanın Ukraynaya qarşı içğalçı müharibəsində Moskvaya dəstəyi anlamına gəlmir:

"Hindistan üçün önəmli olan Rusiyadan hərbi texnikanın alışının davamıdır. Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutunun məlumatına görə, Hindistan dünyanın ikinci ən böyük silah idxalçısı olaraq qalır. Rusiya bu ölkənin əsas təchizatçı olaraq qalmaqda davam edir və Hindistanın silah idxalının 40 faizini təşkil edir. Buna baxmayaraq, Yeni Dehli Rusiyadan silah idxalını azaltmağa çalışır. Yeni Dehli ABŞ və Avropa ölkələri ilə hərbi-texniki əməkdaşlığı genişləndirir".

**Vasif**

## Azərbaycanda iki internet provayderi fəaliyyətini dayandırıldı



**Azərbaycanda iki internet provayderi fəaliyyətini dayandırıb. Adalet.az xəbər verir ki, bunlar "Skynet" MMC və "Robonet" MMC-lərdir.**

Nəticədə sözügedən provayderlərin uçotu ləğv edilib. Xatırladaq ki, "Skynet" 2023-cü ilin aprel ayında, "Robonet" MMC isə 2024-cü ilin yanvar ayında uçota alınıb. Bununla da ölkədə uçota alınmış internet operator, provayder və host provayderlərin sayı 194 olub.

Qeyd edək ki, internet operator və provayderlərinin uçota alınmasını Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi həyata keçirir.



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Bizim Şahbaz müəllim...

**Müəllim peşəsindən gözəl iş yoxdur. Çünki o, hamıya elm, əxlaq, mədəniyyət və insanlıq öyrədir. Və müəllimin heç kəsə borcu olmur, əksinə hamının müəllimə borcu olur! Mənim dostum, qardaşım, gözəl insan Şahbaz müəllimlə isti münasibətim və daha doğrusu, tanışlığımız ötən əsrin 90-cı illərində yaranıb.**

**Belə ki, o, nüfuzlu mətbuat orqanlarında işləyirdi, sonradan isə onun "Yurddaş" qəzetində məsul vəzifədə çalışdığını gördüm. "Azərbaycan" nəşriyyatının dəhlizində və "qoryaçi" sexdə tez-tez görüşərdik! Yorulanda, heydən düşəndə Elmira xanımın yeməkxanasında bir tikə çörək yeyərdik, çay içərdik. Elə o vaxtlardan aramızda mehribanlıq, bir doğmalıq yarandı. Borçalıdan olduğunu biləndə onu bir az da çox istəyirəm.**



**Ona görə ki, Borçalıdan böyük Zəlimxan Yaqubu, Səməndər Məmmədovu, Rəşid Faxralını, Elşad Həsənovu tanıyırdım. Və Şahbaz Musayev də onlar kimi ziyalı, istedadlı, səmimi bir insan idi. Eyni zamanda Şahbaz müəllim Azərbaycanın çox böyük ziyalısı, məşhur həkim Əlişir Musayevin qardaşı oğlu idi. Amma o addan, o nüfuzdan heç vaxt istifadə etmirdi. Hər şeyi öz zəhməti, öz alın təri hesabına qazanırdı.**

**Daha doğrusu, Şahbaz qardaşımız Allahdan başqa heç kimə güvənmirdi. Mətbuatda çalışdığı illərdə bir-birindən gözəl oçerklər, reportajlar, zarisovkalar və digər publisist yazılar qələmə aldı. Jurnalist adını, şərəfini uca tutdu. Ona görə də oxucular o imzanı axtardılar və sevdilər! Sonradan isə elm sahəsini seçdi. Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutunda işə düzəldi. Qısa zamanda o, müdafiə edərək filologiya elmləri namizədi, alimlik dərəcəsi aldı. Eyni zamanda maraqlı elmi məqalələri ilə yeni bir səhifə açdı. Və filologiya elmləri doktoru, professor adını qazandı.**

**Şahbaz müəllim bu gün Slavyan Universitetinin jurnalistika fakültəsinində dərs deyir. Tələbələri də onu çox istəyir. O da tələbələrini sevir. İndiki dövrdə hər müəllim tələbəsinin sevimlisinə çevrilə bilmir, amma o, bu hörməti qazanıb. Aprelin 20-də professor Şahbaz Musayevin 65 yaşı tamam olur. Mən də bilmədim onu necə təbrik edim və oğlum Emil dedi ki, ata, Şahbaz əmi üçün ən yaxşı təbrik bir yazıdı. Söz adamı üçün, alim üçün, professor üçün bundan böyük hədiyyə ola bilməz. Və mən də Emilin dediyinə qulaq asdım, bizim Şahbaz müəllimin 65 illiyinə bu yazını hədiyyə elədim! Tay bilmədim, necə alındı. Yəqin ki, professor nöqsanlarımı bağışlayar!!!**

## *Gülləri, çiçəkləri əzmək vəhşilikdir...*



**Sosial mediada bir paylaşım edilmişdi. Belə ki, Milli Parkda gülləri, çiçəkləri kimlərsə, şəkil çəkdirəndə tapdalayıb əzmişdilər.Təbii ki, bu da insanların böyük narazılığına səbəb olmuşdu.**

Axı, bu güllər, bu çiçəkər, bu gözəlliklər bizim üçün yaradılmışdı. Son illər Milli Parkda çox böyük abadlıq, quruculuq, tikinti işləri görülmüş, dünyanın ən gözəl, uzunömürlü ağacları əkilmiş, yüz cür güllər, çiçəklər, yaşıllıqlar salınmışdı. Bunlar Milli Parka qeyri-adi gözəllik gətirmişdi... Həm özümüz , həm də əcnəbilər bu gözəlliklərə heyran olmuşlar! Çox insanlar bu gözəlliklərə baxır və zövq alırlar. Hətta bu gözəlliklərin yaxınlığında insanlar şəkil də çəkdirirlər!.

Nə gözəl! Amma bu yaxınlarda bir neçə insan güllərin, çiçəklərin arasında şəkil çəkdirəndə bu zərif gözəlliyi tapdayıb vəhşicəsinə məhv ediblər! Hüquq-mühafizə orqanları həmin şəxsləri tapıb və inzibati məsuliyyətə cəlb ediblər.Belə mədəniyyətsiz və məsuliyyətsiz insanlara qarşı sərt tədbirlər görülməlidir ki, bu, başqalarına da ibrət olsun!

Aqil Abbasın bir deyimi yada düşür:" Çiçəkləri tapdamaq böyük günahdır!" Ona görə də gəlin böyük günaha batmayaq!!!

**Emil FAİQOĞLU**

## *Muğan Mətili ölmədi, şəhid oldu...*



**Mənim yaxın qohumum Böyük Bəhmənli kənd musiqi məktəbinin direktoru Vasif Əliyev öz statusunda gözəl qarmon çalan bir gəncin görüntülərini yerləşdirmişdi. Musiqiyə qulaq asdım və tüklərim biz- biz oldu. Və qızıl barmaqların çaldığı musiqi ürəyimin " sarı simi" nə toxundu, bu möcüzə yaradan barmaqlara heyran oldum .**

Təkrarən yeni musiqini dinlədim və ondan doymadım. Nə gözəl ifa! Afdandil İsrafilovun xalların və barmaqların duyurdum... Sən demə, bu gənc aprelin 13- də Füzuli rayonunun Aşağı Veysəlli kəndində minaya düşüb və şəhid olub. Daha doğrusu, " ANAMA" da işləyirmiş.Mətili Muğan Rəfail oğlu 1995- ci ildə Füzuli rayonunun Bala Bəhmənli kəndində anadan olub.Orta məktəbi bitirəndən sonra Sumqayıt şəhər Musiqi Texnikumuna qəbul olub və gözəl qarmon ifaçısı kimi yetişib.

Bir müddət rayonun Aşağı Yağlıvənd Uşaq Musiqi məktəbində müəllim işləyib. 2024- cü ildə ərizəsi könüllü olaraq işdən çıxaraq " ANAMA" da işə düzəlib. Onun dostlarından biri olan Vasif Əliyev deyir ki, Muğan Mətili çox tərbiyəli, mədəni, istedadlı və vətənpərvər gənc idi. O, gözəl ifaları ilə həmişə onu dinləyənləri yandırırdı, amma bu dəfə bizi ölümü ilə yandırdı...

İkinci Qarabağ savaşında, yəni 44 günlük Vətən müharibəsində əsl vətənpərvərlik nümunəsi göstərib. Muğan bu 44 gündə Əhmədbəyli kənd məscidində şəhidlərimizin yuyulmasında və onların öz el- obasına çatdırılmasında çox köməklik göstərib. O, vətənini , torpağını, elini, obasını canında artıq istəyirdi.

Ona görə də el- oba da ona çox istəyirdi və Muğanı son mənzilə böyük sevgi ilə yola saldılar. Hər dəfə onun səsləndirdiyi gözəl musiqiləri eşidəndə o yenidən onu sevənlərlə görüşəcək! Və Muğan Mətili ölmədi, şəhid oldu!!! Şəhidlər isə heç vaxt ölmürlər!!!

## *Bir də görürsən ki, açılan solur...*



**Bu dünyanı heç kim tutub getməyəcək! Və bütün canlılar, o cümlədən insanlar ölümü dadacaqlar. Amma ölüm gələn qədər elə insanlar var, yaxşılıq əvəzinə, başqalarına pislik edirlər.**

Elə bilirlər ki, onlar ölməyəcəklər! Onlar da öləcəklər və elədikləri pisliklərin cəzasını o dünyada yox, bu dünyada alacaqlar! Əfsus ki, belə insanlar qəbir evinə kimi ev yıxır, haqqa girir, qeybət edir, söz gəzdirir, fitnə- fəsad yaradır! Bütün bunları çox adam görür, ancaq abırına sığınıb dayanır!

Biz insanlar bir həqiqəti dərk edə bilmirik ki, biz nə ediriksə, Allah onları görür və bilir! Və yaradan da insanlar yaxşı və pis əməllərə görə, ya mükafatın , ya da cəzasın verir.İntəhası , hər şeyin geci, tezi var.Bu dünyaya milyardlarla insan gəlib və milyardlarla da insan gedib. Şahlar, Prezidentlər, Baş Nazirlər, Nazirlər, Milyarderlər, Milyonlar , Varlılar olub! Heç onların çoxunu heç kim tanımır. Amma Allah onları bəndələrdən daha yaxşı tanıyır.Hamı bilməlidir ki, bu dünya fani dünyadır, vəfasızdır! Heç olmasa, insanlar bir-birinə sədaqətli olsunlar.

Ancaq olmurlar! Xalq şairi Səməd Vurğunun bu misraları yadımıza düşür:

***Bir də görürsən ki, açılan solur,***
***Düşünən bir beyin, bir torpaq olur.***
***Bir yandan boşalır, bir yandan dolur,***
***Sirrini verməyir sirdaşa dünya,***
***Biz gəldi-gedərik sən yaşa, dünya!..***

## *"Azəristiliktəchizat"dan abonentlər niyə imtina edirlər?*



**Artıq mənzillərə istiliyin verilmə müddəti başa çatdığına görə " Azəristiliktəchizat" əhaliyə bu enerjinin verilməsini dayandırıb. Yəni sovet dönəmindən mövcud olan qrafikə - noyabrın 15-dən , aprelin 15- nə kimi, əməl edilib . Hamıya gün kimi aydındır ki, Bakıda noyabrın 1- dən 15- nə kimi , eləcə də aprelin 15-dən , 30- nə kimi havalar çox soyuq keçir!Hətta gündüzlər isti olsa, belə axşamlar insanlar mənzillərində üşüyürlər.**

Ona görə də onlar məcbur olub, mənzillərində elektrik və qaz sobalarından istifadə edirlər. Bu enerjilərdə abonentlər üçün baha başa gəlir. Heç evlərə verilən istilikdə ucuz qiymətə deyil. Son bir ildə istiliyin qiyməti 200 faiz bahalaşıb. Amma xidmət çox bərbad gündədir. Heç evlərə normal istilik verilmir. Ancaq buna baxmayaraq, abonentlər hər kvadratmetr üçün 45 qəpik ödəyir.Evin içi ilə yanaşı, eyvanlar və digər sahələrdə bura əlavə edilib.

Məsələn , bizim eyvan 25 kvadratmetrdir və ora bağlı deyil, həmin yerdə istilik xətti, radiator yoxdur.Belə olduğu halda , bəs biz niyə aidiyyəti quruma işlətmədiyimiz istiliyin pulunu ödəməliyik??? Eləcə də bizim kimi on minlərlə abonent var və onlar da bu pulu niyə ödəməlidirlər. Bu, ədalətsizlik , həm də qanun pozuntusudur. Məhz buna görə də bu gün Bakıda minlərlə abonent " Azəristiliktəchizat" ın xidmətindən imtina edib, mənzillərinə kombi çəkdirirlər. Çünki onlar məlum quruma ödədikləri vəsaitin yarısını işlətdiyi kombiyə verir və altı ay da , daha çox müddətə istilik alır.

Daha doğrusu, hava soyuq olanda kombini yandırır, isti olanda söndürür.Və bir də hörmətli Nazirlər Kabineti Bakıda istiliyin verilmə qrafikini də dəyişməlidir. Yeni istilik noyabrın 1- dən aprelin 30- nə kimi verilsə, əhali üçün daha yaxşı olar, insanlar mənzillərdə alternativ enerji dən istifadə edib xətti yükləməz! Xətlərin həddindən artıq yüklənməsi bəzən qısaqapanma yaradır və bu vaxt yanğın baş verir. Ona görə də bu barədə əlaqədar qurumlar ciddi düşünməli və çıxış yolu tapmalıdır!!!

## *İndiyədək Bakıda dolu yağdığını görməmişdik...*



**Bizi dolunun ən çox rayonlara , kəndlərə yağdığını görmüşük! Və görmüşük ki, dolu yağanda , mer- meyvəni, tərəvəzi, bostanı, istisnanı məhv edir. Yeni kəndli nə əkibsə, bir neçə dəqiqənin içində hər şey puç olur.**

Ona görə də kənd adamları, əkin - biçin işləri ilə məşğul olanlar Allaha yalvarır, dua edirlər ki, dolu yağmasın! Amma bu dəfə dolu Bakıya yağdı. 70 yaşım var , ancaq Bakıya dolu yağdığını görməmişdim! Bunu da gördüm. Və nə yaxşı dolu yağışı çox çəkmədi, yoxsa yaşayış sahələrinə , binaların damlarına ziyan vura bilərdi.

Dolu yağanda həmişə olduğu kimi, həyətimizdə maşınlar vardı. Düşündüm ki, avtomobilllərin damı əzilər, amma xoşbəxtlikdən belə hadisə baş verməmişdi.Elə qonşularımız da dedilər ki, heç kimin maşınına zərər dəyməyib.Bax , belə nə yaxşı ki, Bakıya yağan dolu zərərsiz ötüşdü!!!

## *İt sürüsü uşaqlara hücum elədi...*

**Bu gün Bakının istənilən yerində it sürüsünə rast gəlmək mümkündür. Hətta bir neçə gün əvvəl metronun " İçərişəhər" stansiyasından çıxıb, Filormaniya bağında üzü aşağı düşüb dəniz tərəfə gedəndə bir neçə it gördüm. Düzdür, onlar mənə hücum eləmədi və parkın içində gözdən itdilər...**

Amma Suraxanı rayonunun Yeni Günəşli yaşayış sahəsindəki it sürüsü belə deyil. İki hadisəni yada salacağam hər şey sizə aydın olacaq! Aprelin 14- də saat 18: 30- da dörd oğlan uşağı məscidin yanından velosipedlə gedəndə 9 it onlara hücum çəkdi... Uşaqlar qorxulardan qışqırdılar.Ki, itlər onları tutmasın! Əgər onlar velosipedin sürətin artırmasaydılar, bəlkə də itlər onları parçalamışdılar. İkinci hadisə isə həmin gün bir saat bu əhvalatdan sonra poçtun yanında oldu. Belə ki, yolun kənarında yatmış it sürüsü ordan keçib gedən yeniyetmə oğlanların dalınca düşdü. O uşaqlar da qaçıb birtəhər itlərdən canlarını qurtardılar.İndi görən Yeni Günəşlidə insanların həyatı necə təhlükə qarşısındadır. Axşam və gecə saatlarında isə güçəyə çıxmaq və harasa getmək çox qorxuludur. Gecə vaxtı o sahibsiz itlər bir neçə nəfəri tutub da!



Əvvəllər sahibsiz itlər küçələrdən yığılar, başqa bir yerə aparılar , ya da öldürülərdi. Ancaq indi heyvanların hüquqlarını qoruyan qurumlar buna imkan vermir. İnsanlara nə olur, olsun , amma təki heyvanlara bir şey olmasın!

**Çox təəssüf ki, bizdə heyvanların hüquqları, insanlardan daha yaxşı qorunur! Bu isə ədalətsizlikdir! İtlər uşaqlara, eləcə də yaşlı insanlara hücum edəndə onlar qorxu hissi yaşayırlar.belə olanda heç şübhəsiz ki, həmin insanlar şəkər, ürək xəstəliyi keçirə bilər! Ona görə də, bu barədə əlaqədar qurumlar ciddi düşünməli və çıxış yolu tapmalıdır!**

**Emil FAİQOĞLU**



# Leyla Əliyevanın təşəbbüsü ilə uşaq evlərində sosial-emosional öyrənmə proqramı icra olunur

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə uşaq evi sosial xidmət müəssisələrində yaşayan uşaqlar üçün sosial-emosional öyrənmə proqramı həyata keçirilir.**



Adalet.az xəbər verir ki, IDEA İctimai Birliyi, ADA Universiteti və Sosial Xidmətlər Agentliyinin birgə tərəfdaşlığı ilə icra olunan proqram sosial xidmət müəssisələrində yaşayan uşaqların sosial və emosional bacarıqlarının inkişafına dəstək verir. Proqramın icrasına ötən aydan etibarən başlanılıb və hazırda uğurla davam etdirilir. Proqram çərçivəsində 1, 2 və 3 saylı uşaq evi sosial xidmət müəssisələrində yaşayan uşaqlar üçün həftəlik təlim sessiyaları təşkil olunur. Sessiyalarda 100-dən çox uşaq iştirak edir. Təlimlər zamanı iştirakçıların ünsiyyət, özünüifadə, emosiyaların idarə olunması, komanda işi və qarşılıqlı əməkdaşlıq bacarıqlarının inkişafına xüsusi diqqət yetirilir.

Proqram çərçivəsində təşkil olunan təlimlər ADA Universitetinin tələbələri tərəfindən həyata keçirilir. Təlim prosesinin effektivliyinin və keyfiyyətinin təmin edilməsi məqsədilə universitetin müəllim heyəti tərəfindən iştirakçılara mütəmadi metodiki dəstək göstərilir, sessiyaların məzmunu və yanaşmaları üzrə müvafiq istiqamətləndirmə aparılır. Təşəbbüsün əsas məqsədi sosial xidmət müəssisələrində yaşayan uşaqların sosial-emosional inkişafını dəstəkləmək, onların özünəinamını gücləndirmək, ünsiyyət bacarıqlarını inkişaf etdirmək və cəmiyyətə daha fəal inteqrasiyasına töhfə verməkdir.

# Məntiq tədris olunmursa, bu suallar imtahanda nə üçün lazımdır?

**”Martın 9-da keçirilən imtahanın nəticələri düz 39 gün sonra açıqlandı. İzləyicilər üçün də maraqlıdır yəqin, bu qədər uzun müddət gözləmə nə ilə əsaslandırılacaq. 58139 nəfərin iştirakının nəzərdə tutulduğu imtahanda cəmi 2 nəfərin maksimum 300 bal toplaması da məsələnin bir başqa tərəfidir. Bu nəticə bizə nəyi göstərir? İmtahan həddindən artıq çətin idi, yoxsa qiymətləndirmə mexanizmi problemlidir? Təhsil sistemi şagirdi inkişaf etdirmək üçündür, onu nəticəsiz buraxmaq üçün yox. Bu cür nəticələr göstərir ki, tədrislə imtahan uyğunluğu pozulub, ya da qiymətləndirmə yanaşmasına yenidən baxmağa ehtiyac var”.**



Bunu Adalet.az-a açıqlamasında təhsil eksperti Məzahir Məmmədli deyib. O, bildirib ki, Dövlət İmtahan Mərkəzi buraxılış imtahanlarını keçirəndən sonra sosial şəbəkədə gedən müzakirələr 39 gündən sonra özünü doğrultdu:

”Təcrübə göstərdi ki, imtahanların ilkin nəticələrindən, yəni imtahandan çıxan uşaqların rəyindən artıq bilmək olurdu ki, imtahanlar çox ağır salınıb. Hətta bunu elm və təhsil naziri özü də dilə gətirdi ki, imtahanlarda sualları elə qoymaq lazımdır ki, onları çaşdırmaq yox, sadəcə onların biliyini, bacarığını yoxlasınlar.

Yeni Dövlət İmtahan Mərkəzinin ölçü meyarı nədirsə, mən onu bilmirəm, amma hər il bir cür qayda tətbiq edir. Xatırlayırsınızsa, son beş ilin nəticələrinə görə, məsələn, 2024-2025 tədris ilində indikindən kifayət qədər çox yeni 25-30, bəzən 55 nəfərə qədər də nəticəsi olan illər olub. Amma bu il əvvəlcədən proqnozlaşdırıldığı kimi cəmi iki nəfər 300 bal toplaya bilib.

Yenə mən gözləyirəm ki, növbəti o yarım hissədə də 2-3 nəfər bu cür nəticə göstərəcək”.

M.Məmmədlinin sözlərinə görə, bütün bunlar onu göstərir ki, verilən proqnozlar, səsləndirilən iradların hamısı həqiqət imiş: ”Dövlət İmtahan Mərkəzinin imtahana saldığı suallar çox çətin idi, həm də Azərbaycan dilindən məntiqə söykənən, vaxt aparan suallar olub. Bu da artıq o deməkdir ki, uşağın hiss və həyəcanı ona geniş düşünməyə imkan vermir. Çünki bilirsiniz ki, bizim ümumtəhsil məktəblərində məntiq tədrisi keçirilmir. Ali təhsil müəssisələrində isə məntiqin tədrisi çox zəif keçirilir. Biz təəssüflər olsun ki, həm buraxılış, həm blok və o cümlədən də bakalavrların təhsilin növbəti pilləsi olan magistrlar üçün imtahanlarda da yenə eyni məntiqi sualları görürük. Bir halda ki, məntiq tədris olunmur onda soruşaq lazımdır ki, bu suallar nə üçün lazımdır”.

**V. ƏLİHÜSEYN**

# İqtisadçı: "Azərbaycan insanı bahalı yeyir"

**”Əhali bu ilin 3 ayında pərakəndə ticarət şəbəkəsində 15,9 milyard manatdan çox vəsait xərcləyib. Bunun 8 milyard 774,9 milyon manatı, yəni 50,4 faizi ərzaq məhsullarının payına düşür.Bu rəqəmi 10 milyon əhali üzrə adambaşına bir aylıq hesablayanda bir nəfər üçün təxminən 290-300 manat edir”.**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib.

O, bildirib ki, burada ilk baxışda belə bir fikir yarana bilər ki, sanki əhali çox istehlak edir, yəni çox ərzaq alır:

”Əslində isə məsələ bu deyil. İqtisadiyyatda Engel qanunu deyir ki, gəlir səviyyəsi aşağı və ya orta olduqda ərzağın xərclərdə payı yüksək olur. Gəlir artdıqca bu pay azalır. Bu baxımdan təxminən 50 faiz göstərici orta və aşağı gəlirli ölkələr üçün xarakterikdir və bu struktur göstəricidir.Amma bu statistikanın daha incə tərəfi var. Azərbaycan insanı çox yemir, Azərbaycan insanı bahalı yeyir.Yəni aylıq 300 manatlıq ərzaq xərci beynəlxalq müqayisədə yüksək məbləğ deyil. Hətta bir çox ölkələrdə bu rəqəm daha yuxarıdır. Amma həmin məbləğin ümumi xərclərdə payı yüksəkdir”.



Onun sözlərinə görə, bunun səbəbi yalnız istehlak deyil: ”Ərzaq məhsullarının qiymətləri, idxaldan asılılıq və bazarın xüsusiyyətləri nəticəsində eyni gəlirlə daha çox vəsait xərclənir. Digər tərəfdən də ərzaq xərci alternativsiz xərclərdir. İnsan bu xərci azaltmaq imkanına malik deyil, digər xərclər isə daha elastikdir, yəni dəyişə bilir. Nəticədə belə bir vəziyyət formalaşır ki, məbləğ baxımından orta səviyyə, amma pay baxımından yüksək göstərici alınır. Bu mənzərəni tam anlamaq üçün bir neçə əlavə məqamı da nəzərə almaq lazımdır. Azərbaycanda ərzaq istehlakına təsir edən yalnız iqtisadi deyil, həm də sosial və mədəni faktorlar var. İnsanlar digər ölkələrlə müqayisədə daha çox evdə qidalanır. Səhər, günorta və axşam yeməkləri əsasən ailə daxilində hazırlanır. Bu isə avtomatik olaraq ərzaq xərclərinin payını artırır”.

**E.Əmirov deyib ki, digər tərəfdən, qonaqpərvərlik ənənəsi də mühüm rol oynayır: ”Qonaq qəbul etmək, gediş-gəliş, süfrə mədəniyyəti gündəlik həyatın bir hissəsidir və bu da ümumi ərzaq xərclərinə təsir edir.Təbii ki, yazdığım son iki faktor bu göstəriciyə böyük ölçüdə yox, bir neçə faiz bəndi təsir edə bilir. Əlqərəz, əhalinin xərclərində ərzaq məhsullarının payının azalmasının başlıca şərti gəlirlərin artmasıdır. Daha sonra idxaldan asılılığın azalması, bazarda qiymətlərin daha səmərəli formalaşması və s kimi məqamlar gəlir”.**

**Sübhan**

## *Professor Mirat Binbay Bakıda xəstələri qəbul edib*




**Qardaş Türkiyədə həyatını ən məsuliyyətli və ən müqəddəs peşələrdən bir olan həkimlik peşəsinə sərf edən tanınmış səhiyyə işçilərindən biri İstanbuldakı Memorial Şişli Xəstəxanasının professoru Mirat Binbaydır. İnsan sağlamlığına xidmət etməyi, xəstələrin dərdinə çarə tapmağıözünün şərəf işi hesab edən professoru Mirat Binbay, böyük biliklə yanaşı, həm də böyük qəlb sahibi olaraq, sadəcə xəstəliyi müalicə etməklə deyil, həm də xəstələrə ümid verməklə, onlara mənəvi dayaq durmaqla insanların sağlamlığının keşiyində durur.**

Böyrək, sidik yolları və kişi reproduktiv sistemi pozğunluqlarının diaqnostikası və müalicəsində güclü klinik təcrübəyə malik təcrübəli uroloq professor dr. Mirat Binbay qayğıkeş həkim olaraq xəstələrə yalnız tibbi baxımdan deyil, insani münasibətlə yanaşır. O, xəstələrin şikayətlərini diqqətlə dinləyir, onların ağrılarını öz ağrısı kimi qəbul edir. Belə həkimlər ilk görüşdən xəstədə güvən yaradır və bu da müalicənin daha uğurlu olmasına kömək edir.

Onilliklərdir ki, qayğıkeş həkim Mirat Binbay öz üzərində işləyir, biliklərini artırır. O, yeni müalicə üsullarını öyrənir, xəstələrinə daha yaxşı xidmət göstərmək üçün çalışır. Cəmiyyətin ən dəyərli insanlarından olan belə həkimlər xəstələrin həyatını xilas etməklə sağlam gələcəyin qurulmasına töhfə verirlər.

Qardaş Türkiyədə neçə-neçə soydaşımıza şəfa bəxş etmiş professor Mirat Binbay aprelin 18-də Bakıda City hospitalda ödənişsiz xəstə qəbulu həyata keçirib. Qəlbi mərhəmət hissləri ilə dolu olan bu həkim ikinci vətəni saydığı Azərbaycanda dəfələrlə həkimlik missiyasını yerinə yetirib.Xəstələrinə məmnunluq bəxş edən professor Mirat Binbay növbəti Bakı səfərində də cəmiyyətimizinhörmət və sevgisini qazanıb, insanların yaddaşında yaxşı insan kimi qalaraq, qəlblərdə taxt qurub.

**Hikmət XUDİYEV**

## *Səkisi olmayan küçə...*

**Bakıda nə qədər desən , səkisi olmayan küçələr var. Lazım gəlsə, həmin küçələrin adlarını bir- bir yaza da bilərəm. Ancaq yazsam, uzun bir siyahı yaranar. Ona görə də keçək əsas məsələyə.**



Yeni səki olmayan küçələrdə nə baş verə bilər? İlk növbədə bir küçənin səkisi yoxdursa, hər hansı piyada məcbur olun . avtomobil yoluna çıxır və onun hərəkət hissəsi ilə gedir. Bu isə çox təhlükəlidir. Çünki arxadan və qarşıdan gələn avtomobil onu hər an vura bilər. Hava qarlı və yağışlı olanda avtomobil yolu ilə hərəkət etmək bir qədər də təhlükəli olur.

Və dəfələrlə belə havada piyadaların vurulması halları baş verib.Bakının Suraxanı rayonunun Yeni Günəşli yaşayış sahəsinin ” Fatimeyi-zəhra” məscidindən sonra , düz Suraxanı Tibbi Mərkəzinə qədər gedən avtomobil yolunda səki yoxdur! Aprelin 14- də saat 14:30- da biz həmin yolla hərəkət edəndə səki olmadığına görə məcbur olub, yolun hərəkət hissəsi ilə gedirdik. Maşının təkərlərdən sıçrayan su üstümüzə düşürdü. Burda.sürücülərin heç bir günahı yox idi.

Heç bizim də günahımız bir o qədər deyildi. Ancaq sürücülər piyadaların yolla getməsi üçün təhlükəsizlik qaydalarına əməl edirdilər. Bilirdilər ki, səki yoxdur. Burada bir qurumun günahı var- Avtomobil Yolları Dövlət Agentliyinin! Onlar zəhmət çəkib, yol inşa edərkən səki tikməliydilər, amma tikməyiblər! Ona görə də, məlum qurum tez bir vaxtda göstərdiyimiz ünvanda səki tikməli, hərəkətin təhlükəsizliyini təmin etməlidir. Yoxsa , bu yolda hər an avtomobillər piyadaları vura bilər!!!

**Emil FAİQOĞLU**

## *Çernobılda “mutantlar” var?*

**Çernobılın qadağan olunmuş zonasında heyvanlar arasında kütləvi mutasiyaların olmadığı bildirilib.**

Adalet.az xəbər verir ki, bu barədə Çernobıl qoruğunun elmi şöbəsinin rəhbəri Denis Vişnevski ”RBK-Ukrayna”ya açıqlama verib. Onun sözlərinə görə, heyvanların müşahidəsi zamanı alimlər nəzərəçarpan xarici anomaliyalar aşkar etməyiblər. Vizual baxımdan zonada yaşayan canlılar digər regionlardakı növlərdən fərqlənmir. Alim qeyd edib ki, hazırkı radiasiya səviyyəsi kütləvi mutasiyalara səbəb olacaq qədər yüksək deyil. Bundan əlavə, vəhşi təbiətdə təbii seçmə ciddi anomaliyaları olan fərdləri aradan qaldırır və onların sağ qalmasına imkan vermir. Beləliklə, Çernobıl zonasında ”mutantlar”la bağlı geniş yayılmış fikirlərin reallığı əks etdirmədiyi vurğulanıb.



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Yetim qalan Əbülfətdi, Pir ana

## Bu ömrümün gecəsidi, ayrılıq...

*Həyat bənddi, indi bildim bir ana*
*Dözüm, qürur , səadətdi bir, ana!*
*Yetim qalan Əbülfətdi, Pir ana -*
*Bu ömrümün gecəsidi, ayrılıq...*

Heç inanmağım gəlmir. Özümü nə qədər məcbur etsəm də, inana bilmirəm, bacarmıram... İnanacağıma inanmağım da gəlmir... Bilirəm ki, siz də mənim kimisiniz, siz də inanmırsınız. Amma inanmadığımız həqiqət, gerçək bizim gözümüzün qarşısındadır, sadəcə biz onu içimizə buraxmırıq... buraxmamağa çalışırıq... Hər cür vasitə ilə, xəyalla, xatirə ilə, şəkillərlə qoymuruq ürəyimizə girsin, ağlımızda özünə yer tutsun. Amma...

Həmişə dediyim sözdü, yazdığım fikirdi. Zaman sürətlidi, dayandırmaq, durdurmaq olmur. Özü də onu dayandırmağa, durdurmağa yetəcək güc də yoxdu, vasitə də yoxdu. Belə olan halda o sürətə alışmağa, onunla barışmağa məcburuq. Təəssüf ki, bir məqam da var. O da gözləyəndə, saatdan asılı qalanda zamanın ləngiməsidi, sürətinin bizi qane etməməsidi. Deməli, hər iki halda narazı olan bizik, inciyən bizik...

*24.04. 2024*
*Rəqəmlərin düzümü*
*Güldürmədi üzümü...*
*Yetim gördüm özümü -*
*Bu tarixdə!..*

Və yenə qayıdıram zamanın sürətinə. Çünki iki il bundan öncə həyatım alt-üst oldu. Ürəyim elə bir gülləyə tuş gəldi ki, onu durdura bilmədim, yayındıra bilmədim. Atılan güllə ümidimi, güvəncimi, sığındığım varlığı əlimdən aldı. Bu gülləni atan fələk idi. Nişan aldığı isə ANAM!..

Və istəyinə çatdı fələk. Məni də anasız qoydu. Əlimdən, ömrümdən aldı dərdimi dediyim ANAMI! Yetimliyi elə bir şəkildə ömrümə gətirdi ki, susmaqdan və için-için ağlamaqdan başqa yolum qalmadı.

Doğrudur, insanı ən güclü varlıq hesab edirlər, elə mən də belə düşünür, belə qəbul edirdim. Amma fələk Anamı əlimdən alanda nə qədər gücsüz olduğumu anladım, başa düşdüm ki, belə məqamda, yəni ölümə qarşı çıxmaq məqamında dünyanın ən aciz, ən gücsüz varlığı sən demə insan olur. O insan ki, özü öz əliylə torpağın sinəsini yarır, onu məzara çevirir və canından çox sevdiyini öz əlləri ilə torpağa tapşırır. Təsəvvür edirsinizmi, bu məqamda insan nə qədər aciz görünür, nə qədər gücsüz və arxasız təsir bağışlayır. Bunu başqa cür deyə bilmirəm, yaza bilmirəm. Bəlkə də belə bir söz var, belə bir cümlə var, amma indi mən nə onu xatırlamaq, nə də bu barədə düşünmək durumunda deyiləm. Axı söhbət Anamdan gedir, öz əlimlə torpağa tapşırdığım Anamdan...

*Mən gücsüzəm, bu anımda*
*Meh də diz çökdürə bilər...*
*Buluddan qopan bir damla*
*Şeh də diz çökdürə bilər...*

*Hardasan məni eşidən?!.*
*Səs çıxmır Tanrı Kişidən...*
*Bu halda məni üşüdən -*
*Eh də diz çökdürə bilər...*

*Pörşələnir dilim, ağzım,*
*Ürəkdi "qara" kağızım!*
*Elə yazılıb ki, yazım -*
*Zeh də diz çökdürə bilər...*

Düz iki ildir ki, bu dünyada yetimliyin nə olduğunu yaşayıram. Və bir ildir ki, Anamın sağlığı dönəmində olandan yüz dəfə, bəlkə də min dəfə çox anamı düşünürəm, anamı xatırlayıram, gecələr yuxuda görürəm. Onunla bağlı günləri, hadisələri, söhbətləri, toyu, yası, bir sözlə, analı anları təkrar yaşayıram. Elə bil ki, qayıdıram ağlım kəsən yaşıma, özümü dərk edən günlərimə. Və başlayıram onun ətəyindən tutub həyətdə, bağ-bağçada gəzməyə. Təsərrüfatımızın hansısa bir işini görməyə.

Və beləcə böyüyürəm onun gözünün qarşısında... Və beləcə anam da yaşlaşır, saçlarına dən düşür, üzünə qırışlar. Və beləcə qaçqınçılıq başlayır. Anam çadırlarda qocalır. Öz əliylə bəzədiyi evinə, ocağına həsrət qalır. İynə sancağını, özünə gərək olan darağını, yaylığını, daha hansısa əşyalarını axtaranda tapa bilmir, yerini unudur. Çünki çadırda onun həyatı pərən-pərəndir. Əli işə yatmır, gözləyir ki, bugün-sabah qayıdacaq, nizama salacaq hər şeyi. Amma yox, ona bu qayıdış qismət olmur. Ömrünün nənə çağında nəvələrinin qaçqın həyatını göz yaşları ilə, bir də Allaha etdiyi dualarla süsləyir. İstəyir ki, tez bitsin bu qaçqınlıq. Üstəlik onu da istəyir ki, özünə də kəndində, evində bu dünyaya vida demək nəsib olsun.



Anam çox şey istəmirdi, çox böyük arzuları yox idi. Sadəcə anam öz anasının, öz atasının məzarına sarılmaq istəyirdi. Anam ömürgün yoldaşı ilə babalarımın, nənələrimin uyuduğu məzarlıqda torpağa qovuşmaq istəyirdi. Olmadı, alınmadı. Anamın gənclik arzuları kimi, qocalıq arzuları da ürəyində qaldı.

*Açılan sabah*
*güldürmədi üzünü...*
*Düşən qaranlıq*
*bir az da qaraltdı*
*həvəsini...*
*İçinə axan göz yaşı*
*suladı səsini...*
*duza qoydu*
*nəfəsini...*
*Bilmədi*
*ömrünə yazılan günah,*
*yoxsa*
*dözümün sınağıdı?!.*
*Amma*
*hiss etdi ki ,*
*durmadan çəkdiyi "AH"*
*bir tale qınağıdı...*

*Açılan sabaha*
*açılan əlləri*
*DUA körpüsü...*
*Anamın*
*ümidlərini,*
*arzularını yeyən*
*illəri -*
*boğdu hıçqırtılı*
*ANA hönkürtüsü...*

Hə, dedim axı, artıq ildir ki, onun şəkilləri ilə danışıram. Beyləqanda yolumu gözləyən məzarını ziyarət edib başdaşını qucaqlayıram ... Və bəzən özüm öz halıma acıyıram ki, , atamla anam həmin məzarlıqda övladlarının nə düşündüyünü, nə çəkdiyini bilmədən rahat uyuyublar, dincəlirlər elə bil. Fikirlərini bölüşüb gələcək arzularını dilə gətirənlər kimi...

Məni anamdan ayıranda... Mən ondan ixtiyarsız ayrılanda heç nə düşünmədim, Allahdan heç nə istəmədim. Çünki həmin an nə düşünmək, nə də dilək diləmək gücüm, həvəsim vardı. Anamın 40 mərasiminə qədər hər gün elə bildim ki, anam qayıdacaq, anam harasa qonşuya çıxıb. 40 gün keçəndən sonra başladım onun yoxluğunu düşünməyə. Bugünə qədər də düşünürəm. Düşünmək isə nə anamın, nə də mənim həyatımda heç nəyi dəyişmir.

Sadəcə burda dəyişən bir şeydi. O da anasızlığa alışmaq, öyrəşmək. Mənə elə gəlir ki, bu, zorən alışmaqdı, qaçılmaz alışmaqdı...

Bəli, iki ildir anasızam. Və bu iki ildə Allahdan istədiyim ... əlimi açıb dilədiyim anamın yerinin rahat olmasıdır. Çünki anam ömür boyu əli qabarlı, sinəsi dağlı olub. Gəncliyində qardaş dağı, qardaş itkisi yaşayıb Sovet əsgərinin "qara kağızı" göynədib ürəyini...Vətən savaşında Şəhid doğmaların acısının tüstüsünü, naləsini göyə bülənd edib...

Ona görə də sinəsi dağlı, əli qabarlı anamın heç olmasa bizi gözlədiyi dünyada indi rahat olmasını, qayğısız olmasını arzulayıram. Burda həyatdan və bizdən çəkdiklərini bir daha yaşamamasını istəyirəm. Elə o istəklə də hər gün düşündüyüm anamın məzarı başında axıtmağa göz yaşımın qalmadığına təəccüblənmirəm. Ona görə ki, anam mənim yanımdadır və mən də bilirəm ki, o mənsiz rahat ola bilməz. Axı analar övladları üçün həmişə darıxırlar.

Hə, daha bir il. Adət-ənənə və bilmirəm daha nə. Yəni qaydalara uyğun olaraq qohum-qonşu yığışıb anamı anacaq, kimlərsə anamı ağlayacaq, kimlərsə məclis adamlarına çay süzəcək, kimlərsə bir kənara çəkilib yenə siqaretini tüstülədəcək. Mən bu mənzərəni gözaltı izləyə-izləyə növbəti siqareti yandıracam. O vaxta qədər ki, anamın diqqəti siqaretə yönələcək. Bax onda ...

Anamdan gizlənməyə yer tapa bilməyəcəm... çünki və ümumiyyətlə ondan gizlənəcəyim yer yoxdu. Axı o mənim yanımdadı, içimdədi.

*Dilim dönmür: "Köçdü..." deyim*
*Əlim qalxmır "Köçdü..." yazım...*
*Bəs bu necə köçdü, deyin -*
*Cavabı yarama basım!..*

*Havam çatmır, sanki yolun*
*Dağ uçqunu, sel bağlayıb...*
*Boynuma dolayıb qolun -*
*Mənimlə bir el ağlayıb...*

*Kirpiklərim muncuqlanıb,*
*İçim udub hönkürtümü...*
*Fələk, sənin çırağını -*
*Kimsə belə söndürdümü?!*

*Ay ölümə "Haqq!" - deyənlər,*
*Bu haqq anaya yaraşmır...*
*Mənim qəlbimə dəyənlər -*
*Ölümlə ruhum barışmır!..*

### "Son zəng" iyunun 13-də keçiriləcək



**Bu il bütün dövlət ümumtəhsil müəssisələrində ənənəvi "Son zəng" tədbiri iyun ayının 13-də keçiriləcək.**

Bu barədə Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən bildirilib.

Qeyd edilib ki, "Son zəng" tədbirinin keçirilməsi qaydalarını tənzimləyən təlimatlar məktəblərə göndərilib, təlimatdan irəli gələn məsələlərlə bağlı şagird, müəllim və valideynlərlə müvafiq söhbətlər aparılır.

### Peyvənd olunmamış uşaq daim risk altındadır

**"Uşağı vaksinasiya etdirmək üçün heç vaxt gec deyil. Buraxılmış müddətdən asılı olmayaraq immun müdafiəni bərpa etmək mümkündür".**

Adalet.az xəbər verir ki, bunu "Sağlam radio"nun (93 FM) "Sağlam səhər" efirində Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin İmmunoprofilaktika bölməsinin həkim epidemioloqu Əlcəfər Cəfərov deyib.

Onun sözlərinə görə, peyvənd qrafikində yaranan boşluğu doldurmaq üçün ilk növbədə sahə pediatrı ilə məsləhətləşərək uşağın yaşına uyğun fərdi bərpa planı tərtib edilməlidir:

"Bu prosesdə əvvəlki dozaları yenidən başlamağa ehtiyac qalmır, sadəcə qalan peyvəndlər müəyyən intervallarla ardıcıl şəkildə tamamlanır. Bəzi hallarda uşağın qısa müddətdə lazımi müdafiə səviyyəsinə çatması üçün dozalararası müddət həkim nəzarəti ilə optimallaşdırıla bilər. Hər bir peyvənddən öncə övladınız həkim tərəfindən fərdi qaydada müayinə olunur və yalnız onun tam sağlamlığına əmin olduqdan sonra peyvənd qərarı verilir".

Epidemioloq qeyd edib ki, əsassız qorxulara deyil, mütəxəssis rəyinə güvənərək övladınızı vaxtında qorumağa tələsin:

**"Unutmayın ki, vaksinasiya kursunu tamamlamaq uşağı yoluxucu xəstəliklərə yoluxmaqdan, onların ağır fəsadlarından, əlillikdən və ölümdən qorumağın ən etibarlı yoludur. Peyvəndlənməmiş hər bir uşaq daim risk altındadır. Övladlarımızın gələcəyini sağlam görmək istəyiriksə, onları vaxtında peyvənd etdirək".**

# Şeiri görmək və göstərmək üslubu



Sevil Azadqızı

### RAHAT OLURAM

*Həmişə belə susqunam,*
*Özümlə, rahat oluram...*
*İmkan vermir ki, udqunam -*
*Gözümlə, rahat oluram...*

*Nə vaxt ki, havam korranır,*
*Gözlərim sanki torranır...*
*Ocağım səssiz qorranır -*
*Közümlə , rahat oluram...*

*Duz yükü deyilki, şələm,*
*Yaşamağa dəyər haləm!*
*Sirr vermir kağıza qələm -*
*Dözümlə , rahat oluram*

*Fərəh səpir sanki, bu Dan*
*Ruhdu məni kövrək tutan !*
*Ay könlümə ümid, fidan -*
*Sözünlə , rahat oluram!*

**Şeirin Bədii Təhlili:**

Əbülfət Mədətoğlunun "Rahat oluram" şeiri insanın daxili aləminə çəkilməsini, sükutun və səbrin fəlsəfəsini tərənnüm edən lirik bir nümunədir.

Şeirin əsas mövzusu tənhalıq, özüylə baş-başa qalmaq və daxili hüzurdur. Müəllif cəmiyyətdən və səs-küydən uzaqlaşaraq öz daxili dünyasında tapdığı rahatlığı təsvir edir. Şeirin ideyası insanın ən ağır anlarında belə öz daxili gücünə, səbrinə və mənəviyyatına sığınaraq sağala biləcəyini göstərməkdir.

Şair hisslərini oxucuya çatdırmaq üçün müxtəlif bədii vasitələrdən ustalıqla istifadə etmişdir:

"Ocağım səssiz qorranır", "Havam korranır" ifadələri insanın ruh halını, daxili gərginliyini və yanğısını təbii hadisələrlə bənzətmə vasitəsilə canlandırır.

"Duz yükü deyil ki, şələm" misrasında həyatın çətinlikləri ağır bir yükə bənzədilir, lakin bunun dözülməz olmadığı vurğulanır.

"Kövrək ruh", "Səssiz ocaq" kimi ifadələr şeirin emosional rəngini tündləşdirir.

Şeir klassik aşıq yaradıcılığına yaxın olan qoşma tərzində, 11 hecalı ölçüdə yazılmışdır. Bu da ona axıcılıq və xalq dilinə yaxınlıq qazandırır.

Şeirdə "susqunam, udqunam, gözümlə, közümlə, dözümlə" kimi qafiyələr musiqiliyi təmin edir. Hər bəndin sonunda "rahat oluram" rədifinin işlənməsi şairin mənəvi axtarışındakı əsas məqsədi - hüzuru qabardır.

Xarici dünyanın "korranan havası" ilə daxili dünyanın "közü" və "dözümü" arasında bir qarşıdurma yaradılıb.




Şeirdəki lirik qəhrəman səbrli, müdrik və həssas biridir. O, dərdi kənarda deyil, öz içində əritməyə üstünlük verir ("Sözünlə rahat oluram"). Qələmin kağıza sirr verməməsi isə qəhrəmanın bəzi ağrıları yalnız ruhunda daşıdığından xəbər verir.

Nəticə olaraq, bu şeir insanın özü-özünə təsəllisi, sükutun səsdən daha çox şey ifadə etməsi haqqında incə bir poetik etirafdır.

### Qaranquş

*Dinlədiyim səslərin*
*İçində səsin təkdi...*
*O səs mənim ruhuma*
*İlıq bir sığal çəkdi -*
*Qaranquş!*

*Budaqlar arasından*
*Süzülüb gələn səda...*
*Görməmişəm sevgidə -*
*Nə belə naz, nə əda -*
*Qaranquş!*

*Dinlədikcə duyuram*
*Candan qopur bu nida...*
*Fikrə noqtə qoyuram -*
*Səs " xoş gəldin, səs "vida" -*
*Qaranquş!*

*Bu bir payız nəğməsi,*
*Bu bir bahar sovqatı...*
*Səsin mənə yaşatdı -*
*Bax, belə bir ovqatı -*
*Qaranquş!*

**Şeirin Bədii Təhlili:**

Əbülfət Mədətoğlunun "Qaranquş" şeiri təbiət mənzərəsi fonunda insanın daxili aləmini, duyğu




və həyəcanlarını əks etdirən lirik bir nümunədir.

Şeirin əsas mövzusu təbiətin oyanışı və ya dəyişməsi zamanı şairin duyduğu estetik zövqdür. Qaranquşun səsi burada sadəcə bir quşun oxuması deyil, həm də ruhu sakitləşdirən, ona "ılıq sığal çəkən" bir ümid və sevgi simvoludur. İdeya olaraq, təbiət ilə insan ruhu arasındakı qırılmaz bağlılıq, saflıq və gözəlliyin tərənnümü ön plana çıxır.

"Səsin ruhuma ılıq bir sığal çəkməsi" ifadəsi səsin insanda yaratdığı mənəvi rahatlığı olduqca təsirli şəkildə ifadə edir.

"Ilıq sığal", "payız nəğməsi", "bahar sovqatı" kimi ifadələr şeirin bədii təsir gücünü artırır, oxucuda xoş bir emosional fon yaradır.

Müəllif "xoş gəldin" və "vida", həmçinin "payız" və "bahar" anlayışlarını qarşı-qarşıya qoyaraq həyatın dövranını, həm sevinci, həm də kədəri eyni anda duyduğunu göstərir.

Şeir axıcı və sadə dildə yazılıb. Hər bəndin sonunda "Qaranquş!" xitabının təkrarlanması əsərin musiqiliyini təmin edir və diqqəti əsas simvol üzərində cəmləyir. Bu xitab həm bir müraciət, həm də heyranlıq nidası kimi səslənir.

"Qaranquş" şeiri oxucuda xoş bir nikbinlik və eyni zamanda dərin bir həzinlik yaradır. Şair quşun səsində həm sevgini, həm nazədadan uzaq bir səmimiyyəti tapır. Bu səs həm gəlişi ilə sevindirir, həm də gedəcəyi üçün "vida" kədərini xatırladır.




*Gülümsəyir dan yeriylə bərabər,*
*Elə bil ki, heç yatmayıb bu Xəzər...*
*Sahilinə gələnlərə qol açıb -*
*Gülə -gülə qarşılayır bu səhər!*

*Ləpələrin pıçıltısı bir muğam,*
*Qağayılar qatır bir az hərarət...*
*Qəlb oxşayır, ruh ovudur, İlahi -*
*Xəzərdəki bu möcüzə məharət!..*

*Gözlərimi mən sərirəm üstünə*
*Xəyalımı suya çəkir həvəslə...*
*Tuş gəlirəm bir xatirə dəstinə -*
*Bu sahildə aldığım hər nəfəslə!..*

*Mən dənizə oxuduğum duanı*
*Sevdiyimə məktub kimi yazmışdım.*
*Yadımdadı, unutmuram o anı -*
*Suyuna da and içib, əl basmışdım!*

*Bu gün yenə dua etdim , səsimin*
*Titrəyişi ləpələri kövrəltdi...*
*Danmıram ki," Xəzər - Bakı" sevgisi -*
*Mənə , eşqə sədaqəti öyrətdi!*

**Şeirin Bədii Təhlili:**

Əbülfət Mədətoğlunun "Xəzər sədaqəti" şeiri dəniz obrazı vasitəsilə insan ruhunun, sevginin və vəfanın tərənnümünə həsr olunmuş lirik bir nümunədir.

Şeirin əsas mövzusu Xəzər dənizinin gözəlliyi və onun insan duyğuları ilə həmahəngliyidir. Müəllif dənizi sadəcə təbiət hadisəsi kimi deyil, sadiq bir dost, sirdaş və sevginin simvolu kimi təqdim edir. İdeya ondan ibarətdir ki, təbiət, yəni Xəzər insana mənəvi saflığı və eşqə sədaqəti öyrədən ən böyük müəllimdir. "Möcüzə məharət", "kövrək ləpələr" kimi




ifadələr dənizin emosional mənzərəsini yaradır.

"Xəyalımı suya çəkir", "Gözlərimi mən sərirəm üstünə" ifadələri lirik qəhrəmanın dənizlə olan dərin mənəvi bağlılığını bədii şəkildə ifadə edir. Xəzərin "yatmaması", "qol açması", "gülə-gülə qarşılaması" ona insani xüsusiyyətlər qazandırır, dənizi canlı bir varlıq kimi oxucuya sevdirir.

Ləpələrin pıçıltısının "muğama" bənzədilməsi şeirə milli ruh və musiqili bir hava qatır.

Şeir klassik heca vəznində və sadə, axıcı bir dildə yazılıb. Müəllif "Xəzər-Bakı" vəhdətini ön plana çəkərək, oxucuda doğma şəhərə və onun dənizinə qarşı nostalji hisslər oyadır. "Duanı məktub kimi yazmaq" detalı lirik qəhrəmanın daxili dünyasının təmizliyindən xəbər verir.

**"Xəzər sədaqəti" şeiri insan və təbiət münasibətlərinin bədii inikasıdır. Şair Xəzəri vəfalı bir sevgiliyə bənzədərək, ondan sədaqət dərsi aldığını vurğulayır.**

---

# Kitabxanaya maarifləndirici ekskursiya təşkil edilib

**Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü münasibətilə maarifləndirici ekskursiya təşkil edilib.**

Bu barədə kitabxanadan məlumat verilib.

Bildirilib ki, tədbirdə Yasamal rayonu 133 nömrəli tam orta məktəbin şagirdləri iştirak ediblər. Ekskursiya zamanı kitabxananın direktoru Aslan Cəfərov mütaliənin gənc nəslin dünyagörüşünün formalaşmasında mühüm rol oynadığını vurğulayıb. Diqqətə çatdırıb ki, hər bir əsərin arxasında müəllifin böyük zəhməti dayanır və bu zəhmətə hörmətlə yanaşmaq hər bir vətəndaşın borcudur.




Kitabxanaların müasir funksiyalarından bəhs edən direktor qeyd edib ki, bu gün kitabxanalar yalnız kitabların qorunduğu məkan deyil, həm də informasiya, bilik və innovasiya mərkəzləri kimi fəaliyyət göstərir. O, şagirdləri kitabxanadan fəal istifadə etməyə, mütaliəni həyatlarının ayrılmaz hissəsinə çevirməyə çağırıb. Ekskursiya çərçivəsində şagirdlərə Ümumdünya Kitab və Müəlliflik Hüququ Gününün tarixi və əhəmiyyəti barədə də ətraflı məlumat verilib, məktəblilər kitabxananın fəaliyyəti ilə yaxından tanış olublar.

Ekskursiya zamanı iştirakçılara kitabxanadan istifadə qaydaları izah olunub, eyni zamanda oxucular üçün təqdim edilən pulsuz internet xidməti, elektron kitabxana, elektron kataloq və müxtəlif elektron məlumat bazaları nümayiş etdirilib.

**Şagirdlər kitabxananın rəsmi saytı və son dövrlərdə süni intellekt vasitəsilə hazırlanmış innovativ materiallarla da tanış olublar.**

---

## "Oriondan sevgilərlə" filmi beynəlxalq festivalda nümayiş olunacaq

**Rejissoru və prodüseri Rafiq Hacıyev, ssenari müəllifləri Rafiq Hacıyev və Kənan Yusifov olan "Oriondan sevgilərlə" film bu il "Kyrgyzstan - Land of Short Films" festivalı çərçivəsində nümayiş olunacaq. Filmin istehsalçısı "ROG VFX Studio" MMC-dir.**




Film 15 il əvvəl qızını itirmiş çoban Akifin hekayəsindən bəhs edir. O, qızının yadplanetlilər tərəfindən qaçırıldığına inanır və illərlə astronomiya və fizika ilə məşğul olaraq səmaya siqnallar göndərir. Ümidini itirdiyi anda isə həyatını dəyişəcək gözlənilməz hadisə baş verir...

Qırğızıstanda keçirilən bu festival MDB ölkələrindən qısametrajlı filmləri bir araya gətirərək gənc rejissorlar və müəllif işləri üçün beynəlxalq platforma rolunu oynayır.

**"Oriondan sevgilərlə" filminin bu festivalda iştirakı Azərbaycan kinosunun beynəlxalq arenada təqdimatı baxımından mühüm addımdır. Festival aprelin 25-dək davam edəcək.**



*Fikrət Əkbərli,*
*Türkiyə üzrə araşdırmaçı-yazar*

# İnsan varlığının mənəvi ölçüsü

**Əsrlər əvvəl Sokratesin açdığı düşüncə yolunu izləsək, onun fikrincə sorğulanmamış, təhlil edilməmiş həyat yaşamağa layiq deyil. Əgər arzuladığımız həyatın mümkün qədər məna dolu olmasını istəyiriksə o zaman sadəcə yaşanıb keçilən, məqsədi və dəyəri üzərində düşünülməyən bir həyat kimi yaşanmamalıdır.**

**Harada insan həyatı varsa orada əxlaq da mövcuddur. Həyatın bütün zənginliyi, dərinliyi və coşqu ilə yaşanması yalnız sorğulama və araşdırma ilə mümkündür. Bu prosesdə biz təkcə öz fərdi varlığımızın deyil, bütün canlıların, kainatda mövcud olan hər bir varlığın mənasını anlamağa çalışmalıyıq.**

**Əxlaq, bu planetdə təkbaşına varlığını davam etdirə bilməyən insanın digər canlılarla birgə yaşamasını təmin edən, qaydalar və dəyərlər sistemindən ibarət olan, sosial, mədəni və mənəvi ölçüləri özündə birləşdirən birgə yaşayış nizamıdır.**

**Əxlaqdan əlavə, bərabər yaşamağı tənzimləyən başqa nizamlar da mövcuddur. Hüquqi, ictimai, siyasi və iqtisadi nizamlar.**

**İnsan üçün həyat əxlaq vasitəsilə dərk olunan bir həqiqət kimi görünür. İnsanın həyatı fərqli coğrafiyalarda, müxtəlif yaşayış tərzlərində və fərqli tarixi proseslərdə inkişaf edir kimi görünməktədir. Fərqliliklərimizə baxmayaraq, tarix boyu mədəniyyətlər arasında dəyişməyən əxlaq mövcuddur. Bu mənada əxlaq universal bir anlayışdır.**

**İnsan varlığının bəlkə də ən trajik tərəflərindən biri arzuladığı, düşündüyü və ümid etdiyi kimi yaşaya bilməməsidir. Əgər bu planetdə insanın həyatını güc mübarizəsi şəraitində davam etdirdiyini düşünsək, doyumsuz arzuların və sonsuz ehtirasların meydanı olan bu nizam fərdi əxlaqa tam şəkildə imkan vermir. Bu nizamla mübarizə, həyatla yenilənən yeni axtarışlar və baxışlarla davam etməlidir.**

**Mübarizə, insana yaraşan və insanı ədalətli bir nizama çatdıracaq dünya üçün zəruridir. Bir-birimizin əxlaqının əsaslandığı prinsiplərə və dəyərlərə hörmət göstərmək, atılacaq ilk addımdır.**

**Bəzən biz əxlaqı yalnız qaydalar toplusu kimi düşünürük nəyi etmək olar, nəyi olmaz. Halbuki əxlaq bundan qat-qat dərin, daha səssiz və daha çox insani bir həqiqətdir. Kitablarda yazılmayan, amma insanın daxilində yaşayan bir səsdir. Bizi doğrulara yönəldən, vicdanın incə pıçıltısıdır.**

**İnsanlıq daha çox qazanmaq, daha tez yüksəlmək, daha çox görünmək arzusundadır. Bu yarışın içində isə bəzən əxlaq arxa planda qalır. Əgər biz uğur qazanarkən insanlığımızı itiririksə, bu uğurun mənası nədir? Əxlaq insanı insan edən əsas sütundur. Onsuz cəmiyyət yalnız qaydalarla idarə olunan mexaniki bir sistemə çevrilərdi. İnsan münasibətləri yalnız qanunlarla deyil, anlayışla, mərhəmətlə və dürüstlüklə ayaqda qalmaqdadır.**

**Bu gün biz texnologiya ilə hər şeyi ölçə bilirik: məsafəni, sürəti, qazancı Amma insanın içindəki insafı ölçəcək bir cihaz yoxdur. Bu səbəbdən əxlaq hələ də ən çətin, amma ən zəruri məsələ olaraq qalır.**

**Nəticə olaraq əxlaq olmadan inkişaf yalnız zahiri bir parıltı kimidir. İçi boş, ruhsuz bir yüksəlişdir. Əxlaq insanın özü ilə bağladığı ən dürüst ittifaqdır.**

## *Qəbul imtahanına 65 mindən çox şəxs qeydiyyatdan keçib*

**Ali təhsil müəssisələrinə qəbul imtahanının 2-ci mərhələsinin 1-ci cəhdində iştirak etmək istəyən abituriyentlərin qeydiyyatı davam edir.**

Bu barədə Adalet.az-a DİM-dən məlumat verilib.

I, II, III və IV ixtisas qrupları üzrə qəbul imtahanının 2-ci mərhələsinin 1-ci cəhdində iştirak etmək istəyən abituriyentlər 29 aprel saat 23:59-dək şəxsi kabinetinin istifadəçi adı və parolundan istifadə etməklə DİM-in müvafiq internet səhifəsinə (https://eservices.dim.gov.az/erizebak/cehd1/) daxil olaraq imtahan vermək istədikləri ixtisas qrupunu seçib qeydiyyatdan keçməlidirlər.

23 aprel saat 10:30-a olan məlumata əsasən I ixtisas qrupu üzrə 23782 , II ixtisas qrupu üzrə 18863 , III ixtisas qrupu üzrə 18161 , IV istisas qrupu üzrə 4881 olmaqla, ümumilikdə isə 65687 abituriyent qeydiyyatdan keçib.

İmtahanda yalnız göstərilən tarixədək qeydiyyatdan keçmiş abituriyentlər iştirak edə bilərlər.

Qeyd edək ki, ali təhsil müəssisələrinə qəbul imtahanının ikinci mərhələsinin birinci cəhdi II və III ixtisas qrupları üzrə mayın 24-də, I və IV qruplar üzrə isə iyunun 7-də keçiriləcək. III ixtisas qrupu üzrə həm DT, həm də TC altqrupunu seçən abituriyentlər üçün coğrafiya fənni üzrə əlavə imtahan iyunun 7-də keçiriləcək.



**İmam CƏMİLLİ,**
**Azərbaycan Yazıçılar Birliyinin üzvü, Müharibə veteranı**

# DÖYÜŞÇÜ YAZIÇI

**Mənim dünyaya göz açdığım Kəlbəcərin Cəmilli kəndi uşaqlıq və gənclik illərimin ən saf xatirələrini özündə yaşadır. Füsunkar gözəlliyi ilə seçilən bu kənddə böyüdüm, xəyallar qurdum. Kəndimi tamam başqa bir gözəllikdə, daha abad görmək istəyirdim. Kəndimin, elimin-obamın şəninə neçə-neçə şeirlər həsr etmişdim. O vaxtlar hələ çox gənc idim. Arzularım çox idi, lap çox Amma deyiblər ki, "sən saydığını say, gör fələk nə sayır."**

Hərbi xidmət başladı, ardınca Əfqanıstan döyüşləri...

Əfqanıstanın əzablı, ölüm-qalım savaşından qayıdanda ailəmi, qohum-əqrəbamı qaçqın-köçkün gördüm. Hərə bir yanda... Mənim ailəm də Goranboyda məskunlaşmışdı.

Nə etməli idim? Silaha sarılmalı, düşmənə qarşı vuruşmalı, döyüşməli idim.

Birinci Qarabağ müharibəsi başlayanda bir çoxları kimi mən də könüllü olaraq torpaqlarımızın müdafiəsinə yollandım. Əfqanıstan müharibəsində qazandığım döyüş təcrübəsi düşmənlə mübarizədə mənə ciddi üstünlük verirdi.

Əfqanıstanda müharibənin əsl "cəhənnəmini" gördüyüm üçün ermənilərə qarşı apardığımız döyüşlər mənə nisbətən yüngül görünürdü. Çünki Əfqanıstanda istifadə olunan sovet hərbi texnikası ilə Qarabağ müharibəsində işlədilən silah və vasitələr arasında dağlar qədər fərq var idi.

Düşmənə qarşı döyüşlərdə layiqincə vuruşdum, neçə-neçə qəlpə və güllə yarası aldım. Nəhayət qalib gəldik. Düşməni qovduq torpaqlarımızdan.

Bu savaşlar mənə təkcə yaralar yox, həm də neçə-neçə cəbhə və səngər dostları qazandırdı.

Tofiq Əmrahovla dostluğumuz da məhz həmin vaxtlardan başladı.

Hər ikimiz Goranboy rayonunun sakinləriyik. Tofiq Todan kəndində yaşayıb və bu gün də oradadır, mən isə rayon mərkəzində.

Vaxtaşırı rayonda və döyüş bölgələrindəki görüşlərimiz Tofiqlə aramızda yaranan ünsiyyəti zamanla yaxın dostluğa çevirdi. Bu dostluq cəbhədə, od-alovun içərisində yaranıb və bu gün də davam edir.

Kimdir Tofiq Əmrahov? - Buyurun tanış olun...

Todan kəndinin ermənilərin əhatəsində yerləşməsi todanlıları çıxılmaz vəziyyətlə qarşılaşdırmışdı. Hərb sənətinin bütün incəliklərini bilən, ehtiyatda olan zabit Tofiq Əmrah todanlılardan ibarət könüllü dəstə yaradaraq özü də komandir kimi kəndin müdafiəsinə qalxdı.

Doğma kəndinə, elinə-obasına bütün varlığı ilə bağlı olan Tofiq Əmrah hətta öz oğulları ilə çiyin-çiyinə düşmənə qarşı vuruşurdu. Ata və oğulun birlikdə döyüşməsi nadir rast gəlinən

Tofiq Əmrah doğma kəndinin qəhrəmanlıq salnaməsini bir döyüşçü kimi silahla yazdı.

Onun igidliyi və cəsurluğu Todanın gələcək nəsilləri üçün örnək olacaq və hər zaman fəxrlə xatırlanacaq. Bu igidlik rəsmi şəkildə layiqincə qiymətləndirilməsə də, Tofiq Əmrah kəndinin, elinin, obasının yaddaşında unudulmaz bir döyüşçü kimi yaşayacağına əminəm.

Tofiqlə həyat yollarımızda çoxlu oxşarlıqlar var. Hətta deyərdim ki, döyüşçü dostumun keçdiyi keşməkeşli həyat yolu ilə mənim ömür yolum arasında təəccüblü dərəcədə üst-üstə düşən və kəsişən məqamlar mövcuddur. Müharibə başa çatdıqdan sonra dostum Tofiq də mənim kimi döyüşlərdə gördüklərini qələmə almağa başladı.

Yeddi kitabın müəllifi olan Tofiq Əmrah Todanın silahla yazdığı qəhrəmanlıq tarixini müharibədən sonra publisistik yazılar, hekayələr, povestlər və xatirələr vasitəsilə oxuculara çatdırdı.

Tofiq üçün də bütün dünyaya yollar Todandan başlayır və

Todan Tofiq üçün bütöv Azərbaycandır.

İndiyə kimi Tofiq Əmrahın yeddi kitabı işıq üzü görüb. Onun yaradıcılığı ilə yaxından tanışam. Həcmcə qısa olan hekayələrinin hər biri mənə tutumuna görə oxucu yaddaşında silinməz iz buraxır.

Yazıçı kimi Tofiqin yaradıcılığının əsas mövzusu müharibə və onun insan talelərinə gətirdiyi fəlakətlərin acı reallığıdır.

"Ömür yolu" hekayəsində Əsgər adlı bir döyüşçünün keçdiyi ömür yolunu vərəqləyən yazıçı, oxucuda müharibənin törətdiyi faciələr haqqında ətraflı fikir yarada bilib.

Müharibədə sağlamlığını itirən Əsgərin bir uşaqla olan dialoqunu həyəcansız oxumaq mümkün deyil.

"Əsgər eynəyi sildi, gözünə taxdı. Cəsur soruşdu:

- Əmi, gözünün birini niyə bağlamısan?
- İtirmişəm oğul.
- İtirmisən?
- Hə bala, itirmişəm.
- Harda itirmisən ki?
- Döyüşdə. Şuşa döyüşlərində.
- Bəs sonra axtarmadın?

Bu hekayə Tofiq Əmrahın müharibə mövzusunda qələmə aldığı əsərlər arasında daha çox diqqət çəkənlərdəndir. Müharibə, onun fəlakətləri və müharibədən sonra qazilərin qarşılaşdığı çətinliklər məharətlə ümumiləşdirilmişdir.

Müəllif cəsarət və ürək ağrısı ilə qazilərin müəyyən hissəsinin ehtiyac içərisində boğulduqlarını və intihara məcbur olmalarını oxucuya çatdırır. Şuşa uğrunda gedən döyüşlər zamanı gözünün, ayağının birini itirən Əsgər həmkəndlisi Səlimlə söhbət zamanı deyir:

"İndi qalmışam şikəst. Nə işləyə bilirəm, nə gəzə bilirəm. Qalmışam dörd divar arasında. İşləmək, ailəni dolandırmaq lazımdır. Onu da mən bacarmıram. Arvad-uşağın yanında qalmışam xəcalətdə".

Yazıçı, yuxarıda qeyd etdiyimiz cümlələrdə Əsgərin bütün ağrı-acılarını real cizgilərlə oxucuya çatdırır.

Hekayənin faciəvi sonluğu təəssüf ki, günümüzün acı həqiqətləri ilə üst-üstə düşür.

Əsgərin oğlu Azərlə olan dialoqu da çox təsirlidir:



- Ata, anam evimizə alınası şeylər var, onları almaq lazımdır ki, günortaya yemək hazırlayım, dedi.
- Oğlum, gedin dükandan nisyə alın, mən də gələcəm.
- Ata, anam gedib, satıcı verməyib. Deyib ki, borcunuz çoxdur. İndiyə kimi pensiya alırdınız, indi onu da almırsınız, nəylə verəcəksiniz?

Bu sözləri eşidən Əsgərin gözləri qaraldı, dünya başına hərləndi. Ayağa qalxmaq istədi, bacarmadı.

Oğlu Azər nə qədər yalvar-yaxar etsə də artıq gec idi. Əsgər əbədiyyətə qovuşmuşdu".

Əsgərin ölümünün günahkarı kimdir? Cəmiyyət. Otuz illik işğal altında olan torpaqların müdafiəsi zamanı sağlamlığını itirən övladlarına cəmiyyət yiyə çıxmadı. Bunun nəticəsidir ki, neçə-neçə qazilərimiz intihar etdi. Hamısı da kasıb, bir qarın çörəyə möhtac oğullar, ailə yanında xəcalətdən qurtarmaq üçün çıxış yolunu intiharda gördülər.

Tofiq Əmrah canlı şahidi olduğu hadisələri, xüsusən də müharibənin insanlara gətirdiyi fəlakətləri axıcı bir süjet xətti ətrafında ümumiləşdirmişdir.

"Satqın" hekayəsində nəyinsə xatirəsi üçün düşmənə işləyənin ifşa edilməsi, hekayəsinin süjet xəttini təşkil edir. Komandir satqınlıq edəni iş başında yaxalamaq məqsədi ilə plan qurur. Şəxsi heyətlə qurduğu planı müzakirə edir.

Gecə, satqın rahatlıqla tələyə düşür. Geriyə yol olmadığını görən satqın, bağışlanması üçün nə qədər yalvarıb-yaxarsa da xeyri olmur. Komandir göstəriş verir ki, yağlı boya ilə alçağın alnına və sifətinə "satqın" yazın.

"Qoyun övladları da bilsin ki, kimdi onların atası".

Bu, qanunauyğunluqdur.

"Yaralı sevgi" hekayəsində yazıçı nadanlıqla insanlığı, pulun insanlığı arxa plana keçirməsini Qismətlə Mehri arasında yaranmış məhəbbətin nümunəsində təqdim edir. Avtomobil qəzası nəticəsində ağır yaralanan Qismətin vəziyyəti ürək asan deyil.

Xəstənin ətrafında olan həkim və tibb bacısı həyəcan içərisində Qismətin narkozdan ayılmasını gözləyirlər. Xəstə özünə gələn kimi "Mehri" deyib, yenidən gözünü yumur.

Bir-birinin üzünə baxan həkim və tibb bacıları "Maraqlıdır, xəstə ata-anasının adını yox, Mehrinin adını çəkir. Kimdir bu Mehri?" sualı ətrafında düşündükləri məqamda Zəhra elə bil yuxudan ayılır və təcrübə keçməyə gəlmiş Mehrini xatırlayır.

Həkim Mehrini çağırtdırıb, xəstənin nəbzini tutmasını tapşırır. Özünü itirən Mehriyə həkim:

- Mehri, tez ol, xəstənin nəbzini tut, - deyir.
- Kim, Mehri dediniz?

Xəstə zorla eşidiləcək səslə bu sözləri deyə bilir.

- Biçarə Mehri, sənin qəlbini yaraladım, sənin sevgini yaraladım, sənin eşqini yaraladım. Məni bağışla əzizim, məni bağışla!"

Müəllif hekayənin sonunu reallığa söykənərək tamamlayır. Belə ki, çoxlarının həyatında baş vermiş ilk məhəbbətin yarası ömrü boyu sağalmır və unudulmur, Mehri kimi. Reallıq budur.

"Qocaların qocalar evi" və "Oğluma məktub" hekayələrində cəmiyyətdə ata-oğul arasında getdikcə aşınmaya məruz qalmış milli dəyərlərin ağrısını qələmə alan yazıçı, övlad nankorluğunu ürək ağrısı ilə oxucunun diqqətinə çəkir.

Kitablarda uşaqlar üçün hekayələrlə yanaşı xatirələrə də yer verilmişdi. Nağıl və rəvayətlərdən iqtibas edilmiş "Tülkü və Alabaş", "Maralın qurbağa sevgisi" və s. hekayələr ibrətamizliyi ilə fərqlənir.

Tofiq Əmrahın kitabda "Sahibini gözləyən məzar" adlı povesti, ailələrdə sonsuzluq və onun bir çox insan həyatında ürək ağrıdan nəticələrinə həsr olunub.

Bənövşə və Aqil obrazları vasitəsi ilə müəllif öz baxış bucağından yanaşaraq, kövrək hisslər üstündə köklənmiş bir əsər ərsəyə gətirmişdir.

Müəllifin dilinin sadəliyi və rəvan olması diqqətəlayiqdir.

Bu yazı ilə Tofiq Əmrahın həm yaradıcılığına, həm də Vətənin müdafiəsinə həsr olunmuş ömür yoluna kiçik fraqmentlər vasitəsilə işıq salmağa çalışdıq.. Buna nə dərəcədə nail olduğumuzu isə ən doğru şəkildə oxucu dəyərləndirəcək.

**Əziz dostum Tofiq, sənə uzun ömür, möhkəm can sağlığı və yeni yaradıcılıq uğurları arzulayıram.**



Elçin Cəlilov

# Döyüşək?

*Qurban Qurbanov Azərbaycan futbolunda ən yaxşı nəticələri qazanıb, təkrarlanması uzun illər mümkünsüz görünən tarix yazıb. Ardıcıl 12-13 il davam edən dominantlıq elə-belə mümkün olmur. Epizodik uğur başqa yerli mütəxəssislərimizdə də olub, Qurbanov böyük bir istisnadır, müstəsnadır.*

*Bu və oxşar səbəblərdən futbolumuzda olan aktivasiyalar barədə fikir icad etmək istəyərkən onun yanaşmalarını prioritet saymağım tam təbiidir, məntiqəuyğundur.*

*Fəlsəfi ifadə etsəm, nəticələr göstərir ki, Qurbanov fenomeni Azərbaycan futbolu üçün subyektiv yox, obyektivdir.*

*Obyektivdən baxmaq, görmək istəyəndə özümün deyil, Qurbanovun baxış bucağından, rakursundan baxmağım ən yaxşı yanaşma olardı.*

*Subyektiv yox, obyektiv.*

*Gəlin bu anlamda gündəmin qaynar mövzusu olan "Sabah" - "Qarabağ" oyunundakı penalti qalmaqalına OBYEKTİV rakursdan baxaq.*

*Qurbanov:*

*"Bu barədə fikir bildirməyim, fərqli qarşılana bilər".*

*Hm...*

*Son vaxtlar toxunduğum məsələnin "zınqırovuna" toxunuş edim: siz açıq-aşkar (?) olanı açıq-aşkar deyə bilmirsinizsə (?), biz bunu necə və niyə edək?*

*Sitat:*

*"Topun ələ dəydiyi görünürdü. Amma Rəhim Həsənov yaqin ki, bununla bağlı açıqlama verəcək".*

*- Ok, Qurban hoca, biz də sizin kimi edəcəyik. Rəhimin nə deyəcəyini gözləyəcəyik - nə deyəcəyini bilə-bilə.*

*Sitat:*

*"Bəzən bu cür fikirlər səsləndirəndə, deyirlər ki, rəqibin qələbəsinə kölgə salınır".*

*- Nə deyirlərsə desinlər. Həqiqət sizin dilinizdən çıxacaqsa, bu, hamımızınkından daha desibelli çıxacaq. Dəqiq mövqe, fikir, qərar varsa, demək, açıqlamaq gərəkdir.*

*Sitat:*

*"Həmin epizodu penalti kimi gördüm. Olan şeylərdir".*

*- Bəs bunu deyin də. Bu qədər ehtiyatla, dolayı danışmaq niyə? Çıxışın əvvəlində bu haqda danışmağın fərqli qarşılana biləcəyi ehtimalını səsləndirib ehtiyat edirsiniz, amma yekunda penalti ola bilmə ehtimalı barədə...*

*Həqiqətən, biz bu həqiqəti bilməliyik, baş məşqçilər, klub rəhbərləri açıq, net danışmayınca medianın mövzu haqda emosional yazıları subyektiv olur, bu da qeyri-peşəkarlıqdır. Bəli, siz danışmalısınız, həm də qəti, açıq. Onda biz də o obyektivdən rahat baxa bilərik; istər emosional olsun, istər rasional və s.*

*Dolayıçılıq ediriksə, bu da yanlış deyil. Onda medianın da dolayıçılığını qınamayaq.*

*Biz politkorrekt danışaq, eyhamla işarə vuraq, media asıbkəssin, ağ yuyub qara sərsin...*

*Hmm...*

*Doğru olmur, yoldaşlar.*

*Bəli, Rəvan Həmzəzadənin son dəqiqədəki penalti qərarı penalti kimi görünüb, lakin penalti verilməyən qərar kimi səciyyələndirilə bilər. Mümkündür ki, Rəvan şablona əsaslanıb verdi o qərarı, ancaq müzakirəyə açıq epizod kimi qabarır. Hakimlər Komitəsinin sədri Rəhim Həsənovun şərhini gözləyək.*

*Hmm.. ok..*

*Bu da bizim politkorrekt yanaşmamız.*

*Nə şiş yansın, nə kabab.*

***P.S.***

*İllərlə "yanğınlarda" var-gəl edib, "qızmadıq istisinə, kor olduq tüstüsünə"...*

***P.P.S.***

*Nazim Hikmətin şeirindən, "Sən yanmasan, mən yanmasan, necə çıxar qaranlıqlar aydınlığa" misraları deyir ki, "...gəlin yığışaq, gedək müharibəyə!" qazverməsi olmasın, doğru üçün döyüşürüksə, birlikdə döyüşək.*

*/futbolpress.az*

**Azərbaycan Premyer Liqasında çıxış edən bəzi klubların "başı qaçıb". Klubun başına gələnlərdən, hakim nöqsanlarından və s. neqativliklərdən heç nə danışmayan həmin klubların rəhbərləri, idarəçiləri düşünür ki, bunu onların əvəzinə etməlidir;**

**- media**

**- ?azarkeşlər**

**Niyə?!**

**Həmin klub rəhbərləri, əksər hallarda da idarəçiləri rahat kresloda yayxanıb, ay sonunda 10-20-30-40 min manat maaşını alacaq, onun yerinə media "döyüşəcək"?**

**Əksəri unudur ki, futbol biliyinin zəif olduğunu hamı görür, idarəçi kimi nöqsanlarını da gizlədə bilmirlər.**

**Özünü pis etmək istəməmələri ağıllı yanaşmadır, ancaq bir yerə qədər.**

**Klub rəhbəri klubun başına gələn və ya gətirilən pis hadisələrə qarşı hamıdan əvvəl;**

**- reaksiya verməlidir**

**- ?problemin məğzini, məzmununu tam formada izah etməli, göstərməlidir.**

# Trol epidemiyası

**Bunlar hələ idarəçi üçün təməl vacibiyyətlərdir. Halbuki illərdir bunları onların yerinə media edib. Təbii ki, peşəkar, layiqli mediadan söhbət gedir Günün üzdə olmayan, lakin ən ciddi problemlərindən biri də məhz budur. Klublar öz mənafeyini qoruya bilmir və ya bunu etmək istəmir.**



**Dotasiya hesabına mövcud olan futbolumuzda bacarığından qat-qat artıq mənfəət əldə edən xeyli nəfər var.**

**Zamanın tələblərinə uyğunlaşdıqca ortaya çıxır ki, həmin nəfərlər, "ortada yeyim, kənarda gəzim" prinsipiylə hərəkət edib və bu müftəliyə öyrəşib.**

**İndi mediada rasionallıq artıb. İnterşum, reytinq naminə atılan addımlara artıq yol verilmir. Sözünü deməyi bacaran müəlliflər illərlə zərbə aldı aldıqca da bu fədailiyin onlara heç nə qazandırmadığını, əksinə, itkilərdən başqa nəsə vermədiyini gördü. Öyrəndi.**

**İndi media özünü fədai kimi aparmır. Və bu mənfəətbazlara heç sərf etməyən reallıqdır.**

**Qələmi iti, auditoriyası geniş olan müəlliflərə ucuz həmlələrlə təzyiq etməyə çalışırlar: filan mövzuda nə əcəb yazmadın və s.**

**Yazmaz da. Sən öz vəzifənə görə borclu olduğun məsələlərdə ağzını açırsanmı? Yox.**

**Nə vaxt özün öz haqqını qorumağı düşünəcəksən, onda**

**Yeni zamanın yeni mənzərəsi bu tip idarəçiləri, rəhbərləri "vəziyyətdən çıxış üçün" özünəməxsus icadlar düşünməyə vadar edib.**

**Trol dəstəsi formalaşdırmaq!**

**Bəli, onların beyni, özünümüdafiə instikti yalnız belə işləyir. Media bunların mənfəətləri naminə "lokomotiv" rolunu oynamaqdan boyun qaçırdıqca bunlar trollar cəlb edir, bəsləyir.**

**Belə klub idarəçiləri haqqında tənqid yazılarının şərh bölümünə fikir verin, onlarla, yüzlərlə trol şərhi.**

**Dotasiyanın başına daraşan kök salmış mənfəətbaz dəstənin tifağı dağılmasa, Azərbaycan futbolu ağ günə çıxmayacaq.**

**Bu da monopoliyanın bir formasıdır və "metastaz verib", kök salıb, ölkə futbolunu cənginə alıb.**

**Onlar hər yerdədilər - klub idarəçiliyində, menecerlikdə, uşaq futbolunda. Dərin kök salıblar və şəbəkə kimidirlər.**

**Bir "Damokl qılıncı" lazımdır ki, bu tifağı dağıda, futbol parazitlərdən təmizlənə.**

**Yoxsa çarə olmayacaq.**

**Hələ ki, ümumi yazdıq. Medianın canına daraşmağa davam etdikcə bu "trolşünaslar" aşkara çıxarılacaq, ağır zərbə alacaqlar. Qoy hələlik bəslədikləri trolların sayəsində yaranan komfort zonasında var-gəl etsinlər**

**Kamil Əhməd**
**/futbolpress.az**

# Bu çay xərçəng xəstələrində ölümü sürətləndirə bilər

**Yaşıl çayın xərçəng əleyhinə təsiri ilə bağlı iddiaların əksinə olaraq, yeni məlumatlar bu içkinin xərçəng müalicəsi zamanı potensial zərərini sübut edib.**

Medicina.az xəbər verir ki, kaliforniyalı tədqiqatçılar onun sağalma prosesini ləngitdiyi qənaətinə gəliblər.

"Yaşıl çayın tərkibində şişi inhibə edən aktiv maddə polifenol olmasına baxmayaraq, onun ekstraktı xərçəng əleyhinə dərmanların effektivliyini əhəmiyyətli dərəcədə azaldır", - kaliforniyalı həkimlər paylaşıblar. Lakin onlar inhibəedici təsirin yalnız bor turşusu olan proteaz inhibitorlarına əsaslanan dərmanlardan istifadə edildikdə baş verdiyini vurğulayırlar. Bor turşuları olmadıqda, çay polifenolu basqılayıcı təsir göstərmir.



Kaliforniya Universitetinin nümayəndələri yaşıl çayın xərçəng müalicəsinə mane ola biləcəyini bildiriblər. Alimlərin fikrincə, o, xərçənglə mübarizədə istifadə olunan dərmanlara qarşı bloklayıcı təsir göstərir.

**Qeyd edək ki, yaşıl çay əvvəllər xərçəngin qarşısının alınması üçün ən vacib içkilərdən biri kimi təqdim olunurdu.**

**Emin Qəzənfəroğlu**
**hüquqşünas - mediator**

# Azərbaycanda mediasiya xidmətinin üstünlükləri"



**Ölkəmizdə Mediasiya Şurası fəaliyyətinə başladığı gündən yaratdığı ənənəyə sadiq qalaraq, 2026-cı ilin 1-ci rübü üzrə hesabatını təqdim etmişdir. Belə ki, mediasiya təşkilatlarına ümumilikdə 11,531 müraciət daxil olmuşdur. Daxil olan müraciətlərdən 10,245-i ailə mübahisələri, 1,059-u əmək mübahisələri, 59-u kommersiya mübahisələri, 164 müraciət mülki mübahisələr, 4 müraciət isə digər mübahisələr üzrə olmuşdur.**

**Daxil olan müraciətlərdən 10,585-i nəticələnmişdir. Tamamlanan işlərdən ilkin mediasiya sessiyasında bir tərəfin iştirak etmədiyi işlərin ümumi sayı 5,257, xitam verilən və mediasiyadan imtina edilən işlərin ümumi sayı isə 1,466 olmuşdur.**

**2026-cı ilin 1-ci rübündə ümumilikdə 1,794 barışıq sazişi imzalanmışdır ki, bu da 46.5% uğurlu nəticə deməkdir. Əldə edilən barışıqlardan 1,482 barışıq ailə, 241 barışıq əmək, 10 barışıq kommersiya, 57 barışıq mülki mübahisələr, 4 barışıq isə digər mübahisələrlə bağlı müraciətlər üzrə olmuşdur.**

**Xüsusi olaraq qeyd etmək istəyirəm ki, yuxarıda qeyd etdiyim nəticələrin arxasında mediatorların gərgin əməyi və mediasiya təşkilatları rəhbərlərinin peşəkar idarəçilik fəaliyyəti dayanır. Mən əminliklə bildirirəm ki, könüllərdə qurulan barışıq körpüsü: mediatorun xoşbəxtlik missiyasıdır.**

**Bir mediator olaraq fəaliyyətimdə əsas prinsipim budur: tərəflərə heç bir ayrı-seçkilik etmədən, onlara səmimiyyət və məhəbbət duyğusu ilə yanaşdıqda ən gözəl nəticələr əldə olunur. Mediasiya sessiyaları zamanı mənə ən böyük xoşbəxtliyi bəxş edən anlardan biri - bəzən tərəflərin illərlə davam edən gərginliyi geridə qoyub, iclas otağında prosesi dayandıraraq, bəzi hallarda isə ilkin mediasiya sessiyası başlamadan belə barışaraq öz evlərinə dönməsi anıdır.**

**Bu, sadəcə bir mediasiya prosedurunun tamamlanması deyil; bu, bir ailənin, bir dostluğun və ya bir iş birliyinin yenidən canlanması, cəmiyyətimizdə sülhün qələbəsidir.**

**Hərçənd, bu xoş mənzərələr ictimaiyyətdə yanlış bir rəy formalaşdırmamalıdır. Mediasiya xidməti insanlara hər hansı göstəriş verən və ya onlar üçün qərar çıxaran bir qurum deyildir. Əksinə, mediasiya - tərəflərin uzun müddət davam edən mübahisələrini alternativ və daha səmərəli yollarla həll etmələrinə peşəkar şərait yaradan, onlara bu prosesdə bələdçilik edən mühüm bir təsisatdır.**

**Mediasiya proseslərində tərəflərin vəkilləri və qanuni təmsilçiləri də mühüm rollar oynayırlar. Xüsusilə qeyd etmək lazımdır ki, məhkəmələrimiz və hakimlərimiz mediasiya proseslərinə böyük önəm verirlər. Vətəndaşların mediasiyaya yönləndirilməsində və keyfiyyətli barışıq sazişlərinin formalaşmasında vəkillərin və hakimlərin dı rolu əvəzsizdir.**

**Təcrübədə bəzən tərəflərdən birinin sazişi icra etməməsi halları ilə rastlaşılır. Belə məqamlarda məhkəmələr, qanunvericiliyə uyğun olaraq, barışıq sazişlərini xüsusi icraat qaydasında təsdiq edir və məcburi icra prosesinə yönləndirirlər. Beləliklə də mediasiya quruculuğu sahəsində mükəmməl məhkəmə təcrübəsi formalaşdırılır. Bu səbəbdən, vətəndaşların barışıq sazişinə olan inamı artmış olur.**

## *Məxfi hesabat: Miqrantlar daha Almaniyaya getmirlər*

**Almaniya AB-də sığınacaq axtaranların əsas təyinat ölkəsi olmaqdan çıxıb.**



Adalet.az xəbər verir ki, bunu "Welt am Sonntag" qəzeti Avropa Komissiyasının məxfi hesabatına istinadla məlumat yayıb. Bildirilib ki, 2026-cı ilin birinci rübündə Almaniyada sığınacaq üçün müraciətlərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə təxminən dörddə bir qədər (23%) azalıb. Beləliklə, Almaniya uzun illər lider olsa da, 2015-ci ildən bəri ilk dəfə Avropa sığınacaq statistikasında dördüncü yeri tutub. İlk üç ayda Almaniyada 28 min 922 yeni müraciət qeydə alınıb. Ən çox müraciət Fransa (34 min 643), İspaniya (32 min 630) və İtaliyada (32 min 602) qeydə alınıb. Macarıstan və Slovakiya siyahının sonundadır.

**Lakin Macarıstanda aşağı rəqəmlərə baxmayaraq, əvvəlki illə müqayisədə 18% çox müraciət qeydə alınıb.**

# ARAZ BOYU YAZILAN QƏLƏBƏ SALNAMƏSİ: "BAYATI-ARAZ"



***Adilə Nəzərova***
***Filologiya üzrə fəlsəfə doktoru***

**Etibar Muradxanlının ”Bayatı-Araz” sənədli romanı Azərbaycanın müasir hərb tarixinə, xüsusilə 44 günlük Vətən müharibəsində Dövlət Sərhəd Xidmətinin (DSX) göstərdiyi qəhrəmanlıqlara həsr olunmuş dəyərli bir salnamədir. Müəllif bu əsəri ilə təkcə faktları sənədləşdirməmiş, müharibənin mənəvi, psixoloji və insani tərəflərini bədii dillə oxucuya çatdırmağa nail olmuşdur.**

Sənədli roman 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsinin Cənub cəbhəsində cərəyan edən döyüş əməliyyatlarını əhatə edir. Kitab Azərbaycan-İran dövlət sərhədinin 132 kilometrlik hissəsinin işğaldan azad edilməsi, Xudafərin körpüsünün geri qaytarılması və Zəngilan istiqamətindəki strateji yüksəkliklərin fəthi üzərində qurulmuşdur.

Müəllif hadisələri 1990-cı illərin əvvəllərindəki Birinci Qarabağ müharibəsinin acı xatirələri ilə əlaqələndirərək başlayır. Əsərin girişində təsvir olunan ananın fəryadı və kiçik Nicatın meşədə itkin düşməsi səhnəsi, 30 illik həsrətin və qisas hissinin köklərini göstərir. Nicatın 28 il sonra qəhrəman bir zabit kimi qayıtması süjeti, xalqın intiqam və qələbə əzmini simvolizə edir.

Əsərdə 44 günlük Vətən müharibəsi zəfərinin memarlarından olan DSX-nın fəaliyyəti ana xətt kimi götürülür. Burada xüsusi qeyd olunur ki, Dövlət Sərhəd Xidməti təkcə sərhədləri qorumaqla kifayətlənməmiş, həm də müasir texnologiyaları hərbi taktikaya tətbiq edən qüdrətli bir güc kimi çıxış etmişdir.

E.Muradxanlı romanda 27 sentyabr səhərinin ilk saatlarından bəhs edərkən, general-polkovnik Elçin Quliyevin rəhbərliyi ilə həyata keçirilən ”AN-2” taktikasına geniş yer ayırır. SSRİ dövründən qalan və kənd təsərrüfatında istifadə olunan köhnə ”Kukuruznik” təyyarələrinin pilotsuz uçuş aparatına (PUA) çevrilməsi əməliyyatın əsas sirri idi.

Bu taktikanın mahiyyəti hədəf, icra və nəticədən ibarət idi:

Hədəf düşmənin illərlə qurduğu və ”keçilməz” hesab etdiyi Hava Hücumundan Müdafiə (HHM) sistemlərini (məsələn, S-300, Osa, Tor sistemləri) atəş açmağa məcbur edərək koordinatlarını aşkar etmək idi.

Əməliyyatın icrasında təyyarələr xüsusi avadanlıqla təchiz edilərək pilotsuzlaşdırılmışdı. Onlar düşmən sərhədinə daxil olduqda, Ermənistanın HHM sistemləri onları real döyüş təyyarəsi kimi qəbul edirdi.

Nəticədə düşmən bu ucuz və köhnə təyyarələri vurmaq üçün öz bahalı raketlərini işə salır və bununla da öz koordinatlarını (yerini) bəlli edirdi. Romanda təsvir edildiyi kimi, həmin anda pusquda gözləyən ”Harop” və ”Bayraktar”lar dərhal hərəkətə keçərək ifşa olunmuş HHM sistemlərini məhv edirdilər. Bu, Azərbaycan ordusuna müharibənin ilk günlərindəcə hava məkanında mütləq hakimiyyət qazandırdı.

Kitabın ən maraqlı və dinamik hissələrindən biri general-leytenant Əfqan Nağıyev və general-mayor Babək Qurbanovun (və digər peşəkar zabitlərin) rəhbərliyi ilə həyata keçirilən PUA əməliyyatlarıdır. Müəllif burada ”Harop” (kamikadze dronları) və digər zərbəendirici aparatların müharibənin taleyindəki rolunu həm texnoloji üstünlük və insan amili, həm psixoloji təsir, həm də cənub cəbhəsinin azad olunmasında oynadığı rol baxımından xarakterizə edir. Belə ki, ”Harop”lar düşmənin ən gizli sığınacaqlarını, komanda-idarəetmə məntəqələrini və hərbi eşelonlarını tapıb məhv etmək üçün istifadə olunurdu. Əsərdə qeyd edilir ki, bu aparatları idarə edən gənc sərhədçi zabitlər sanki bir cərrah dəqiqliyi ilə düşmən hədəflərini sıradan çıxarırdılar.

Kitabda düşmən əsgərlərinin havada görünən bu ”ölüm mələkləri”ndən qorxaraq texnikalarını qoyub qaçmaları sənədli faktlarla əks olunub. Haropun çıxardığı özünəməxsus səs düşmən ordusunda dəhşətli bir xaos və mənəvi sarsıntı yaradırdı.

General Əfqan Nağıyevin rəhbərliyi altında aparılan hava əməliyyatları sayəsində Cəbrayıl, Füzuli və Zəngilan istiqamətindəki düşmən istehkamları darmadağın edildi. Bu, quru qoşunlarının, xüsusilə DSX-nın çevik hərəkət qüvvələrinin itkisiz və sürətli şəkildə irəliləməsinə şərait yaratdı.

”Üç nöqtə” əməliyyatında PUA-ların əhəmiyyəti daha çox bəlli olur. Babək Qurbanovun rəhbərliyi ilə keçirilən strateji əməliyyatlarda PUA-ların kəşfiyyat məlumatları quru bölmələrinin manevrlərini sığortalayırdı. Onlar həm kəşfiyyat aparır, həm də koordinatları artilleriyaya ötürərək düşmənin canlı qüvvəsini nöqtə zərbələri ilə məhv edirdilər.

Romanda bu bölmə sübut edir ki, Azərbaycanın qələbəsi təkcə cəsarətdən irəli gəlmirdi, bu, eyni zamanda zəka və texnologiya müharibəsi idi. DSX-nın tətbiq etdiyi bu unikal taktikalar sayəsində düşmənin 30 il ərzində qurduğu müdafiə xətti cəmi bir neçə gün ərzində kağız kimi dağıdıldı. Müəllif bu texnoloji savaşı bir hərbi mütəxəssis dəqiqliyi ilə sənədləşdirmiş, bir yazıçı ruhu ilə qəhrəmanlarımızın rəşadətini oxucuya sevdirmişdir.

E. Muradxanlının sənədli romanı Azərbaycan hərb tarixinə sadəcə bir qələbə hesabatı kimi deyil, canlı bir qəhrəmanlıq eposu kimi daxil olur. Əsərin əsas gücü onun real personajlar üzərində qurulmasındadır; müəllif hadisələri quru faktlarla deyil, insan taleləri üzərindən işləyərək hər bir rütbənin arxasındakı fədakarlığı üzə çıxarır.

O, generalların strateji zəkasını sıravi əsgərin səngər rəşadəti ilə elə bir vəhdətdə təqdim edir ki, oxucu ordunun vahid bir orqanizm kimi hərəkət etdiyini aydın görür.

Vətən Müharibəsi Qəhrəmanı, general-mayor Babək Ələkbərov romanda rəşadət simvolu kimi canlandırılır. Onun Zəngilanın işğaldan azad edilməsi zamanı həyata keçirdiyi mürəkkəb manevrlər detallı təsvir olunur. Yaralanmasına baxmayaraq, ”komandir döyüş meydanını tərk etməz” prinsipi ilə hücumu sona qədər idarə etməsi onun obrazının xarakterik cizgisidir. Xudafərin körpüsündən və Zəngilan şəhərindən Ali Baş Komandana etdiyi məruzələr romanda təkcə hərbi prosedur kimi deyil, 30 illik həsrətin bitməsinin emosional zirvəsi kimi verilir.

General-leytenant İlham Mehdiyevin obrazı müasir Azərbaycan generalının portretini cızır. O, əməliyyatları kabinetdən yox, birbaşa ön xətdən, əsgərlə çiyin-çiyinə idarə edir. Romanın ən təsirli məqamlarından biri onun erməni əsirləri ilə söhbətidir. Müəllif burada generalın dili ilə düşmənin ideoloji iflasını və Azərbaycan ordusunun əsir düşmüş düşmənə belə göstərdiyi insani rəftarı (humanizmi) qabardır. Bu, Azərbaycan əsgərinin mənəvi ucalığının göstəricisidir.

Polkovnik (indi general-mayor) Vüsal Sultanovun obrazı dözümlülük və qətiyyət nümunəsidir. Cəbrayıl və Zəngilan istiqamətindəki qanlı döyüşlərdə ağır yaralansa da, onun geri çəkilməməsi, əksinə, tabeçiliyindəki bölmələri ruhlandırması əsərdə epik bir dildə təsvir olunur. Onun simasında oxucu Azərbaycan zabitinin




”ölümün gözünə dik baxmaq” fəlsəfəsini görür.

Ağbənd və Mincivanın azad olunmasında Misir Əliyevin rəhbərlik etdiyi bölmələrin rolu əvəzsizdir. Araz boyu irəliləyərək strateji qəsəbələri bir-birinin ardınca təmizləyən bu komandir, hərbi çevikliyin və sürətli qərarvermə qabiliyyətinin nümunəsi kimi təqdim olunur. Onun rəhbərliyi ilə həyata keçirilən cinah zərbələri düşmənin qaçmaqdan başqa yolu qalmadığını sübut edir.

Romanda yalnız yüksək rütbəli zabitlər deyil, müharibənin gedişatına rəng qatan, qələbənin ”adsız” qəhrəmanları olan epizodik obrazlar da mühüm yer tutur. Onlar hadisələrin daha canlı və inandırıcı olmasını təmin edir: Müəllif səngərdə bir parça çörəyi bölüşən, yaralı yoldaşını atəş altından çıxaran adsız əsgərlərin qəhrəmanlığını ön plana çəkir. Onların hər biri Azərbaycan xalqının bir ailə olduğunun simvoludur.

Kitabda ”Azəravtoyol”un əməkdaşlarının düşmən atəşi altında ordu üçün yeni yollar açması epizodları var. Müxtəlif epizodlarda döyüş yoldaşını itirən əsgərlərin keçirdiyi hisslər, onların qisas andı və şəhid ailələri ilə bağlı məqamlar əsərə dərin dramatik çalar verir. Məsələn, şəhid olan əkiz qardaşların hekayəsi oxucuda vətənə sevginin hüdudsuzluğunu canlandırır. Şuşada və digər işğaldan azad edilmiş kəndlərdə azan verən əsgər obrazı, mənəvi qələbənin və milli kimliyin geri qaytarılmasının rəmzi kimi çıxış edir.

”Bayatı-Araz”da hər bir personaj - istər general, istərsə də sıravi əsgər vahid bir amalın zərrələridir. E. Muradxanlı təsvir etdiyi real obrazlar vasitəsilə sübut edir ki, 44 günlük müharibə təkcə texnika savaşı deyil, ilk növbədə ruhun, xarakterin və milli birliyin savaşı idi. Bu qəhrəmanlar sənədli romanın səhifələrindən çıxaraq Azərbaycanın əbədi qürur mənbəyinə çevrilirlər.

E.Muradxanlı bu əsərində müharibənin miqyasını genişləndirərək, onu yalnız hərbi əməliyyatlar müstəvisindən çıxarıb ümummilli bir hərəkat kimi qələmə alır. Kitabda sənədlilik konkret faktlar, rəqəmlər və real şəxslər vasitəsilə, bədiilik isə həmin hadisələrin yaratdığı emosional gərginlik və mənəvi ucalıqla ifadə olunur.

Romanda ən diqqətçəkən məqamlardan biri ordumuzun irəliləməsi üçün infrastrukturun, xüsusilə yolların çəkilməsi prosesidir. Müəllif qeyd edir ki, hərbçilər yeni mövqeləri azad etdikcə, onların ardınca dərhal mülki texnika və mühəndislər daxil olurdu:

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) sədri Saleh Məmmədovun rəhbərliyi ilə mülki işçilərin göstərdiyi qəhrəmanlıq əsərdə xüsusi rənglərlə təsvir olunur. Müəllif vurğulayır ki, yolçəkənlər düşmən artilleriyasının birbaşa hədəfi altında, ölümün bir addımlığında buldozer və ekskavatorlarla dağları yarır, keçilməz meşələrdə cığırlar açırdılar.

Sənədli faktlarla göstərilir ki, Zəfər yolunun təməlləri məhz həmin günlərdə, hələ döyüşlər getdiyi vaxtda qoyulurdu. Saleh Məmmədovun rəhbərliyi ilə görülən bu işlər texnikanın hərəkətini təmin etməklə yanaşı, yaralıların daşınması və ordunun kəsilməz təchizatı üçün həyati önəm daşıyırdı. Bu, müəllifin dilində ”qələbənin damarlarını çəkmək” kimi bədiiləşdirilir.

Əsərdə bədiilik həm də ”arxa cəbhə” anlayışının necə müqəddəsləşməsində görünür. Burada yolçəkənlərlə bərabər rabitəçilərin, elektrik təsərrüfatı işçilərinin od-alov içindəki fəaliyyəti müharibənin ayrılmaz hissəsi kimi verilir.

Mülki insanların, yaşlı nənə və babaların əsgərlərə sovqat göndərməsi, uşaqların yazdığı məktublar romanda hərbi taktika qədər mühüm yer tutur. Bu, xalqın ümidindən və qələbəyə olan inamından yaranmışdı.

”Bayatı-Araz” oxucuya çatdırır ki, Vətən müharibəsi hər bir azərbaycanlının öz sahəsində əsgər olduğu bir savaş idi.

Əsərin bədii təsir gücü onun humanizmindədir. Şuşada azan səsinin eşidilməsi, əsgərlərin namaza durması və şəhidlərin ruhuna ehtiram səhnələri oxucunu mənəvi baxımdan sarsıdır. Müəllif qeyd edir ki, bu kitabı yazarkən şəhidlərlə bərabər ”şəhadətə yüksəlmiş”, döyüşün bütün ağırlığını çiyinlərində hiss etmişdir.

Müəllif sənədli janrın sərhədlərini aşaraq, Araz çayı boyu yazılan bu yeni qələbə bayatısını xalqın yaddaşına həkk etməyi bacarmışdır. Kitabın hər səhifəsində hiss olunan milli qürur, Azərbaycanın suverenliyinin tam bərpası ilə yekunlaşan şərəfli yolun təntənəsidir.

**”Bayatı-Araz” sənədli romanı Azərbaycan ədəbiyyatında hərbi-vətənpərvərlik mövzusunda yazılmış ən sanballı nümunələrdən biridir. Bu əsər gənc nəsil üçün vətənpərvərlik dərsliyi, hərb tariximizi öyrənən tədqiqatçılar üçün mühüm sənəd, şəhid və qazi ailələri üçünsə mənəvi dayaqdır. E. Muradxanlı bu kitabı ilə tarixi faktları saxtalaşdırmaq istəyənlərə sərt cavab verməklə yanaşı, qələbəmizin memarlarını xalqın yaddaşına əbədi həkk edir. Araz boyu çəkilən hər bir yol, azad edilən hər bir qarış torpaq indi bu kitabın səhifələrində canlanır. Bir millətin şərəf hekayəsindən bəhs edən bu kitabı oxumaq hər bir azərbaycanlının mənəvi borcudur.**

## *Kollektiv immuniteti qorumaq üçün İmmunizasiya həftəsinə qoşulmaq vacibdir*



**”İmmunizasiya həftəsinin əsas məqsədi cəmiyyətin bütün yaş qrupları arasında peyvəndləmənin əhəmiyyəti barədə məlumatlılığı artırmaq və insanları yoluxucu xəstəliklərdən qorumaq üçün vaxtında vaksinasiya olunmağa təşviq etməkdir”.**

Adalet.az xəbər verir ki, bu fikirləri ”Sağlam radio”nun (93 FM) ”Sağlam səhər” efirində Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin İmmunoprofilaktika bölməsinin epidemioloqu Əlcəfər Cəfərov deyib.

Onun sözlərinə görə, hər il bu mövzuya xüsusi diqqət ayrılmasının səbəbi, kollektiv immuniteti qoruyub saxlamaqla kütləvi epidemiya risklərinin qarşısını almaq və qarşısı alına bilən xəstəliklər səbəbindən yaranan fəsadları minimuma endirməkdir:

”Bu kampaniya həm də valideynlərin vaksinlərə olan etibarını gücləndirməyə və peyvənd təqvimindən kənarda qalan uşaqları yenidən prosesə cəlb etməyə xidmət edir.

Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzi ölkəyə daxil olan hər bir peyvəndin Ümumdünya Səhiyyə Təşkilatının prekvalifikasiyasına və beynəlxalq təhlükəsizlik sertifikatlarına uyğunluğuna ciddi nəzarət edir. Vaksinlərin istehsalçıdan tibb məntəqəsinə qədər olan yolunda temperatur rejiminin (+2°C -dən +8°C-dək) qorunması müasir ”soyuq zəncir” sistemləri və mütəmadi aparılan monitorinqlər vasitəsilə təmin edilir”.

Ə.Cəfərov bildirib ki, bu prosesin qüsursuz işləməsi üçün cavabdeh personal mütəmadi olaraq ixtisaslaşdırılmış təlimlərə cəlb olunur və onların maarifləndirilməsi istiqamətində davamlı işlər aparılır:

**”Tibb müəssisələrindəki saxlanma şəraiti Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin ərazi mütəxəssisləri tərəfindən mütəmadi monitorinq olunur. Hər bir flakonun yararlılığına isə üzərindəki xüsusi indikatorlar (FTİ) vasitəsilə fərdi qaydada nəzarət edilir. Belə kompleks nəzarət mexanizmi sayəsində vətəndaşlarımızın yalnız yüksək keyfiyyətli və tam təhlükəsiz preparatlarla təmin olunması tam təmin edilir”.**



**Vaqif YUSİFLİ**
**Filologiya elmləri doktoru**

# Gülnarə İsrafilin şeirləri

**Gülnarə İsrafilin şeirləri ilə tanışlığım dörd il əvvəl başlayıb. Sonra özüylə görüşdüm. Axırıncı şeirlər kitabını (”Şırran”) və son illərdə yazdığı şeirləri də mənə verdi ki, oxuyum, fikirlərimi bildirim ”Torpaq adamlar” və ”İki” adlı iki şeir kitabını da əldə etdim. İndi mən onun şeir dünyazı ilə üz-üzəyəm.**

Bir şeir dünyasından nələr əxz etdim? - oxuduğum şeirlər müasir poeziyamızın Yaddaşında yaşaya biləcəkmi? O şeirlər təkcə Gülnarə İsrafilin deyil, bizim də könül duyğularımıza yol tapa biləcəkmi?

Və Gülnarə İsrafilin şeirlərində onun bir şair kimi özünəməxsusluğu nəzərə çarpırmı? Adını çəkdiyim şeir kitablarına yazılan ön sözlərə nəzər yetirirəm.

Kənan Hacı ”Torpaq adamlar”a yazdığı ön sözdən: ”Gülnarənin şeirlərini oxuduqca görürsən ki, o, sanki öz hisslərini çarmıxa çəkir, yaşantılarının maddi formasını - söz formasını yaratmağa cəhd edir. Gülnarə hansı sözün hansı formanı tələb etdiyini duyur və hisslərini həmin formada ifadə etməyə çalışır. Onun şeirlərinin fərqli bir intonasiyası var”.

Bilal Alarlı ”İki” şeirlər kitabına yazdığı on sözdə deyir: ”Gülnarə İsrafilin poetik dünyası fərqli dil üslubu, obrazlı ifadəsi ilə diqqət çəkir”. ”Şırran” şeir kitabındakı ön sözün müəllifi isə Naibə Yusifdir.

O, şairənin ayrı-ayrı şeirlərindən söz açır və onun bir şair kimi özünəməxsusluğunu nəzərə çarpdırır. ”Özünəməxsusluq, bənzərsizlik onun poeziyasının özəlliyidir”. Əlbəttə, hər üç ön sözdə tərif ahəngi üstündür. Belə də olmalıydı, çünki bu gün nəşr olunan bütün şeir kitablarına yazılan ön sözlərdə bu ahəng pozulmur.

Gülnarə İsrafili özünəməxsus bir şair kimi səciyyələndirmək üçün onun bir neçə şeirinə müraciət etmək istəyirəm.

Vətən və müharibə mövzusu son 30 ilin poeziyasında şairlərimizi düşündürüb və bu düşüncələr də müxtəlif şəkildə öz əksini tapıb. Nədir bu müxtəliflik? İlk növbədə, ənənəvi tərzdə, demək olarki, ”sovet şeiri” üslubunda - Vətəni və müharibəni məlum ifadə vasitələri ilə yazılan şeirlər. İkincisi, dövrün, zamanın, gerçəkliyin ruhuna uyğun yazılan şeirlərdir. Burada Vətənin təsvir və tərənnümü o qədər də aparıcı deyil, əsas məsələ vətənpərvərlik və səfərbərlik ruhunun aşılanmasıdır.

Məsələn, Məmməd Arazın, Xəlil Rza Ulutürkün, Zəlimxan Yaqubun ”Qalx ayağa ”Azərbaycan” çağrışlı şeirləri” kimi.

Üçüncü isə, Vətən və müharibə mövzusuna tamamilə fərqli bucaq altında yanaşan şeirlərdir. Bu tipli şeirlərdən ağrı, kədər motivləri üstünlük təşkil edir və əlbəttə, bu motivlər vətənpərvərliyin ağrı səviyyəsində dərki deməkdir.

”Müharibə” şeirində müəllif bir nənənin müharibəylə bağlı ömrü qısaca ”səhifələnir”. ”Nənəmin gözlərində ağarmışdı müharibə, ala gözləri qonurlaşmışdı yanğıdan” - bu nənə ümumiləşmiş bir obrazdır, ”qara kağız ğpdü nənəmin kəhrəba əllərini”. Və o nənə hər gün ölür. Nənə ölür və son dəfə öləndə ”Gözündəki yaş nəsə deyirdi” - metaforalardan ibarət bu şeirdə nənə - qara kağız, ölüm simvollarında reallaşır. Göründüyü kimi, sırf müharibə nə deməkdir tipli şeirlərdən fərqli olaraq Gülnarə İsrafil ənənəvi mövzuya təzə rəng qatır.

”Vətən” şeiri mən deyərdim, Gülnarə İsrafilin metaforik şeirlər sırasında ən görümlü, duyumlu şeiridir.

***Bir şəhid gördüm ki, mən***
***Köynəyi can verirdi.***
***Dilində ilk yaddaşı,***
***Qurumuş son kəlməsi***
***Yerdən torpaq dərirdi.***

***Doğaca körpəsinin***
***Qoxusuna tamarzı.***
***Dodaqları qaçaraq,***



***Pıçıltı qovlayırdı,***
***Nənnini axtarırdı***
***Canından can alaraq.***

***Bir şəhid gördüm ki, mən***
***Torpaqdan don geyinmiş,***
***Anadan göz atəşi,***
***Atadan sirr daşları***
***Geyinmiş də geyinmiş.***
***Bir şəhid gördüm ki, mən***
***Vətən olmuşdu, Vətən!***

Kimdir o şəhid? Anamı, atamı, oğulmu? Və sonda Vətənləşir o şəhid. Gülnarə İsrafil ”Şəhid Vətən” ümumiləşmiş bir obraz yaradır. Gülnarə İsrafilin şeirlərində obraz yaratmaq xüsusiyyəti daha qabarıq nəzərə çarpır. O, ayrı-ayrı fərdlərin (müşahidə etdiyi insanların taleyi ilə maraqlandığı adamların) obrazlarını həm zahiri, həm də daxili mənəvi planda təqdim edir.

***Nə durmusan yol üstündə,***
***qarı nənə!***
***Gedəndə də,***
***gələndə də əl açırsan,***
***ovcuna qəpik düşəndə***
***küçələrdə***
***qəpik-qəpik gül açırsan.***
***Kədərin yocmu sənin***
***üzüləsən?***

İlk baxımdan adət etmədiyimiz bir mənzərə ilə qarşılaşırıq. Bir nənə diləncilik edir, yalvarış, sızıltı ilə yox... Əksər dilənçilərə xas olan ”yalvarış mexanizmindən” uzaq bir nənə. Amma bu zahiri bir görüntüdür və bu görüntü elə buradaca sona çatır. Amma Gülnarə İsrafil bu obrazı böyüdür, ümumiləşdirir və şeirin ifadə etdiyi mənə bir dairədən digərinə adlayır.

***Sən dalansan,***
***Sən küçəsən,***
***Yox, elə sən,***
***Özün boyda bir şəhərsən.***

O qarı nənə bütün gəlib keçənlər üçün bir dayanacaqdır, onun ”əvvəlki şəhərinə” qayıtması lazım... Şeirdə bir insan həyatından cəmiyyət həyatına keçid diqqəti cəlb edir. Təfərrüata varmadan Gülnarə İsrafilin ”Viran şəhərlərin uşaqlarıyıq”, ” işıqçı”, ”Hər gülün dibində bir şəhid”, ”Ağdam”, ”Balacam”, ”İnsan” şeirləri haqqında da eyni fikri söyləmək olar. Mən Hülnarə İsrafilin nakam şair Həsən Kürə həsr etdiyi şeiri onun ən kədərli şeiri hesab edirəm.

Niyə ”ən kədərli”? :çünki Həsən Kürün faciəli həyatına şairin də öz kədəri qarışır. Ümumiyyətlə, Gülnarə İsrafil bir çox şeirlərində KƏDƏR ağlamaq, sıtqalmaq yox, düşünmək əhvalını yaradır.

”Düşünmək əhvalı” ifadəsini nahaq yerə işlətmirəm. Əlbəttə, hır hansı şeirdə müəyyən düşüncə - fikir öz ifadəsini tapmalıdır. Təbii ki, bu düşüncələr obrazlı şəkildə əks olunmalıdır.

Mən onun ”Yol” və ”Elə istəyirəm” şeirlərini bu baxımdan bitkin şeir hesab edirəm. O, Yol obrazını İnsan obrazı ilə vəhdətdə təqdim edir.

***Bu yol məhəbbətdi, bu yol məşəqqət,***
***Ayağım torpaqda sırsıralanıb.***
***Yolun üzündəki mənim göz yaşım,***
***Yolun ürəyində sirr sıralanıb.***

***Bu yol arzuların budağı kimi,***
***Bu yol günahların otağı kimi.***
***Bu yol dirilərin ölüm ayağı,***
***Bu yol ölülərin torpağı kimi.***

Gülnarə İsrafilin şeirlərində lirik qəhrəman obrazı daha çox üstünlük təşkil edir. Bu lirik qəhrəman sevgi yolunun yolçusudur.

O öz sevgisi yolunda ”Mən”dən ”Sən”ə doğru yol gedir və bu yolda xoşbəxtliyə ümid və çağırış da var, üzüntü də var, məyyusluq da, anlaşılmazlıq da.

Onun gigər şeirlərindəki təzadlı hisslər sevgi şeirlərində də öz əksini tapır.

***Yandırıb eşq oduna,***
***qəlbimi şan-şan etmisən.***
***Şirinin qəmdən ağı,,***
***qəmimi al-qan etmisən.***
***Nə məni öldürmüsən,***
***nə də məni var etmisən.***
***Yaralanmış ürəyimi***
***hansı yana alım gedim?***
***Dəvətsiz qonaq olmuşam***
***bu sevgiyə, qalım, gedim?***

Qalsa yaxşıdır... Çünki sevgi ömrü tükənmir. Füzuli babamız demişkən: ”Ey Füzuli, çıxdı can, çıxmam təriqi-eşqdən, Pəhgüzari - əhli-eşq üzrə qılın mədfən mənə”.

Gülnarə İsrafilin şeirlərində sərbəst dil manerası ilə rastlaşdım. Doğrudur, çətin anlaşılan sözlər, ifadələr də var, amma bundan keçmək olar. Fəqət bir çox şeirlərində şeirə uyuşmayan sözlərə, ifadələrə nə deyəsən? Şairə bir də baxsın ”Mən adlı kim qaldı ki...”, ”Boşluqda ulayan ”mən”im”, ”Sonsuzluq” şeirlərinə... Bu şeirlərdə fikri var, amma Şeir yoxdur. Və bir də baxsan ”Payız” və ”Dirilim” şeirinə - əsl şeir kimi...

**Gülnarə İsrafil! Sənin üç kitabının şeirlərini mən oxudum. Və sevindim ki, sən əsl şairsən... Yoluna davam et!**

Əntiqə Kərimzadə

# Ürəyini sözə bürüyən adam



**Yaranışı şair olan adam haqda nəsə yazmaq bir az çətin məsələdir. Axı onlar elə söz kimi doğulur. Yoğrulur-yoğrulur şeirə çevrilir. Ancaq çətin iş deyib özümü əllərimdən ürkütməyim doğru olmaz. Deyək ki, məsuliyyətli işdir. Belə daha dəqiq olar. Haqqında yazmaq üçün sözlər sadəliyi qədər çox olsa da, şeirlərindəki məna və poetik ecazkarlıq baxımından həm zəngindi, həm də çox nadir tapılır. Deyəsən labrintə düşdüm. Məncə Qulu Ağsəs haqda danışanda labrintə düşmək həm olar, həm də olmaz. Bütün bu ”olar- olmaz”ların içində sadə sözlərlə ovcuna şeir yığmağı istedadının ən böyük nümunəsidir.**

**İllərlə Ağdama yağan yağışlardan xəbərsiz oldu. Ağdama əsən küləklər onu üşütmədi. Hələ əsən küləklərdə Qədirin pıçıltısını eşitdikcə ”üşüyəndə özümü yandırmaq” istəyirəm, dedi. Qəriblik onun bütün vücudunu bürümüşdü. Pilləkanları qalxanda elə bil ayağına da qəriblik geyinmişdi. Hələ desəm ki, anasızlığı şeirlərindən yağır, qaçıb şairin şeirlərini qucaqlayarsınız.**



**Zaman keçdi, il oldu 2020-ci il Qulu Ağsəsin üzündə donan qəriblik, buz kimi əriyib yox oldu- Ağdam işğaldan azad olundu. Əriyib yox olan qəribliyin yerinə şairin ürəyinə ”Ağam şəhərim! Adam şəhərim! Ağdam şəhərim” yazıldı. Həmin şeiri oxuyanda adama elə gəlir ki, sözlərin gözü körpə uşaq kimi gülür. Şairin ”Şükür külünə, şükür qayıdış gününə!” deməsi Ağdamın azadlığının ən gözəl gözaydınlığıdır. Elə lap Ağdamsayağı. Bu xoş günə and içməyi də, bu anda inanmağı da öz yerində.**

**Belə xoş gündə ürəyi sözə bürünən adamın yuxularına kim gələr? Əlbəttə, yurdunu görmədən dünyasını dəyişən doğmaları...**

**”Torpaqlaşan adamdan məktub” ”Eşitmişəm məndən ötrü darıxırsan. Soruşma ki, bunu sənə kim çatdırıb. Təkcə insanlar xəbərçi deyil, küləklərin də pıçıltısı olur. Deyir darıxanda şeir yazırsan. Mən də sənin kimi dözürəm, oğul. Mən torpağa hopa- hopa dözürəm, sən də torpağı qucaqlaya- qucaqlaya... Köhnə pencəyinin cibində qalan ”Pioner” qəzetindən soraqlayırdım səni.**

**Keçən bahar yuxuma gəlmişdin. Gözün güldü. Deyirdin ki, narahat olma ey, Ağdam azaddır. Ta ”işğal haqqı” demirəm. Sənin bu muştuluğuna elə buludların da gözü dolmuşdu. Buludları bağrıma basdım, elə hey ağladıq. Çoxdandı buludların ürəyi məni istəyirdi, mənim də ürəyim səni. Eşitdim şeirlərində yaşadırsan Ağdamı. Yanına gələ bilmirəm, barı yuxuna gəlim, ay əllərindən şeir yağan, oğlum”.Şeirin mübarək, sözün mübarək, sevincin mübarək, günün mübarək”!**

**Bu ”məktub” illər keçəcək Qulu Ağsəsin şeirlərinin içində olacaq, bəlkə də şeirlərindən biri olacaq. Bəlkə də...**

## Alzheimer xəstəliyinə ümumi baxış: ilkin əlamətlər və müalicə imkanları

**Alzheimer xəstəliyi dünyada ən geniş yayılmış demensiya növü olaraq ciddi ictimai sağlamlıq problemi hesab olunur.**

Adalet.az xəbər verir ki, mütəxəssislər bildirirlər ki, xəstəlik əsasən yaddaşın zəifləməsi ilə başlayır və zamanla daha ağır nevroloji pozuntulara səbəb olur.

İlkin mərhələdə insanlar yaxın hadisələri unutmaq, eyni sualları təkrarlamaq və gündəlik işlərdə çətinlik çəkmək kimi əlamətlərlə üzləşirlər.Həkimlərin sözlərinə görə, erkən diaqnoz xəstəliyin gedişini ləngitmək baxımından xüsusi əhəmiyyət daşıyır. Araşdırmalar göstərir ki, Alzheimer beyində zülal yığıntılarının toplanması nəticəsində sinir hüceyrələrinin zədələnməsi ilə bağlıdır. Risk faktorları arasında yaşlanma, genetik meyllilik və ürək-damar xəstəlikləri ön plana çıxır.

Hazırda xəstəliyi tam müalicə edən üsul olmasa da, bəzi dərmanlar simptomları yüngülləşdirməyə kömək edir. Məsələn, Donepezil kimi preparatlar yaddaş funksiyalarını müəyyən qədər dəstəkləyə bilir.

Bununla yanaşı, sağlam həyat tərzi və zehni aktivlik xəstəliyin inkişafını ləngidən əsas amillərdən sayılır. Mütəxəssislər əhalini ilkin əlamətlərə qarşı diqqətli olmağa və vaxtında tibbi müayinədən keçməyə çağırırlar.



# BAYAT



№ 80 (940)



KƏMALƏDDİN QƏDİM

## KİMSƏ UNUDUB GEDİB...

Kimi itirmişəm mən,
Könlüm kimin yasında?
Vaxtın bir küncündəyəm,
Ömrün astanasında...

Nətəhər Kərəməm ki,
Nə Əslim, nə Lələm var.
Nə "ithürən" görünür,
Nə də "işıqgələn" var...

Ovu əlindən çıxan
Ovçuya bənzəyirəm.
Çən-dumanda yol azan
Yolçuya bənzəyirəm.

Nə məscid haya yetir,
Nə dada kilsə gəlmir.
Unutmuşam nə varsa,
Yadıma kimsə gəlmir...

Əlac, çarə at üstdə,
Dərdim piyada qalıb.
Əl açmışam Allaha,
Əlim havada qalıb...

Yapışmağa ətək yox,
Əl yoxdu tutub gedim.
Məni yolayrıcında
Kimsə unudub gedib...

## GÖYƏRTMİR

Bu yaz gecikib gəlib,
Bağça-bağı göyərtmir.
Gör hələ nə gündədi
Solu, sağı göyərtmir.

Bir yağmurun acıdı,
Çarəsi, əlacıdı.
Çox da ki baş tacıdı,
Duman dağı göyərtmir.

Nə vaxt bir səfər çıxır,
Önə dərd-kədər çıxır.
Bir gözəl xəbər çıxıb
Qaş-qabağı göyərtmir.

Uyarın qardaşları,
Yozdursunlar başları.
Onsuz da göz yaşları
Bir yanağı göyərtmir...

## ÖZÜMƏ

Təzə dərd gətirəcək,
təzə şeir gözləmə.
Zərər verirəm ancaq,
məndən xeyir gözləmə.

Tutub əlindən, canım,
qaçırım hara səni?
Qorxuram göz yaşlarım
yuyub apara səni.

Üzə də bilməyirsən,
get, Allah yarın olsun.
Kağızdan gəmi düzəlt,
qələm avarın olsun...

## YAMAN TANIŞ GƏLİR BU KÜLƏK MƏNƏ

Qəlbimdə yeri var, izi var kimi,
Yaman tanış gəlir bu külək mənə.
Əsir, elə əsir sözü var kimi,
Deyəsən nə isə deyəcək mənə...

Bəyaz saçlarımı oxşayan nəyi,
Nəyi doğma gəlir, çaşıb qalmışam...
Elə bil nə vaxtsa mən bu küləyi
göylərə əlimlə yola salmışam.

Yəqin yeri gəlib, yeri, qayıdıb,
Hazır kətilimdi, hazır darımdı.
Olmaya göylərdən geri qayıdıb
üzümə çırpılan dualarımdı?..

## ÖZÜMÜ ÖLMÜŞ BİLİRDİM

İçimə sığmıram daha,
Daha dışıma çıxıram.
Huşumdan çıxıram, gedib
yenə huşuma çıxıram.

Nə var çəkirəm naz deyə,
Ömür az, zaman az deyə.
Dil-dil ötürəm yaz deyə,
Gəlib qışıma çıxıram.

Çox bəxtiyeyin olmuşam,
Səmanın, göyün olmuşam.
Yaman ərköyün olmuşam
Tez-tez başıma çıxıram.

Bu necə külmüş bilirdim,
Başa tökülmüş, bilirdim.
Özümü ölmüş bilirdim,
Hərdən qarşıma çıxıram...

## MƏNİ BU DÜNYANIN GÖZÜ GÖTÜRMÜR

Canım hər alova, hər oda yanmır,
Canım hər atəşi, közü götürmür.
Hər sözün başına dönüb, dolanır,
Ölür sözdən yana, sözü götürmür.

Sehir nazı çəkir, sirr nazı çəkir,
Ocaq nazı çəkir, pir nazı çəkir.
Sevir bir gözəli, bir nazı çəkir,
Götürmür, hər işvə, nazı götürmür.

Yoxdu Tanrının da işi bəriylə,
Məşğuldu elə öz dərdi-səriylə.
Hər gün danışıram mələkləriylə,
Hələ ki, dəstəyi özü götürmür...

Elə yol üstəyəm, qalmıram deyə,
Nəfsinə qərq olub, dalmıram deyə.
Almıram, vecimə almıram deyə,
Məni bu dünyanın gözü götürmür...

## KİMƏSƏ KÖLGƏM DÜŞƏCƏK

Ha çək bu görkəmdə məni,
Ha çək, bu görkəm düşəcək;
Sən təbəssüm çəkəcəksən,
Yerinə dərd-qəm düşəcək.

Başa duman, çən qonacaq,
Saça ağ-ağ dən qonacaq.
Kirpiyimdə yaş donacaq,
Gözlərimdə nəm düşəcək.

Mən dərbədər, para-para,
Mən hara, bu şəkil hara...
Çəkmə, yenə günüm qara,
Bəxtim yenə kəm düşəcək.

Ya dəymə gerçək yerimə,
Ya bir ağac ək yerimə.
Bir başdaşı çək yerimə,
Kiməsə kölgəm düşəcək...

## TUTURAM

Mən sözə sürgünəm, sürgün, beləcə,
Sözlə oynayıram, əza tuturam.
Dəli könlümü də hər gün beləcə
Dilə tutmuram ki, sözə tuturam.

Udduğum hava qəm, içdiyim su qəm,
Bu sonsuz göylərdi, mən tənha qu, qəm.
Sən qoyub gedəndi bu kədər, bu qəm,
Mən onu hələ də təzə tuturam.

Yaşayıb əllilər, yüzlər içində,
Ölürəm düz oğlu düzlər içində.
Üzü üzlər görən üzlər içində
abrımı, həyamı üzə tuturam.

Bir az seçilmir ki, halı halımdan,
Canı canımdandı, qanı qanımdan.
Qoymuram səssizcə ötə yanımdan,
sovuşa başımdan qəza, tuturam.

Gözəl, oyun açdın gözəl başıma,
İlkin başımayam, əzəl başıma.
Gündə dörd dolanır əcəl başıma,
Hələ ki, özümü naza tuturam

## GƏZƏSƏN ÖZÜNÜ BİR ÖMÜR BOYU...

Qala əllərində canın bu bəxtin,
Nə ötə yan ala, nə bəri çıxa.
Ölə bilməyəsən ölmək istəsən,
Yaşamaq istəyin dəbərib, çıxa...

Gözlərin umduğun yerdən yığıla,
Ümidin ən hündür yerdən yıxıla.
Bir yuxun yol ala uşaqlığına,
Önünə qonşunun çəpəri çıxa...

Sevəsən, təzədən düşəsən tora,
Gəzə ayaqların yolları yora.
Qarşına bir daha o qızdan sonra
nə huri rast gələ, nə pəri çıxa...

Ağrının-acının üstə gedəsən,
Bir az asta gedib, usta gedəsən.
Üz tutub bir sadiq dosta gedəsən,
Onun da bir qəfil səfəri çıxa...

Elə, Vətən adlı yer ömür boyu
qala səndən yana sirr ömür boyu.
Gəzəsən özünü bir ömür boyu,
Nə öldü, nə qaldı xəbəri çıxa...

## KƏTİLİN DANIŞIR, DARIN DANIŞIR...

Həzin yağışının həzin dili var,
Narın qarın elə narın danışır.
Nəfəsin dili var, səsin dili var,
Danışır, İlahi, lalın danışır...

Yaxşılı-yamanlı ömür-gün busa,
Bu qədər fanisə, bu qədər qısa...
Təntiyir yerisə, darıxır dursa,
Qocan gileylənir, qarın danışır...

Bax da nə gündədi, nə gündə, şirə,
Qənimdi çaqqalın, tülkün də şirə.
Nə dəndə dənlik var, nə güldə şirə,
Qarışqan dil açır, arın danışır..

Kim tacın bəzəyi, ya da tac kimin,
Kimi hara çəkir ehtiyac, kimi?..
Çıxarmır səsini acın ac kimi,
Harının hələ də harın danışır..

Var nəyin istəsən yolu hardasa,
Dil tapsan danışar külü hardasa.
Susursa ürəyin dili hardasa,
Orda boğaz dinir, qarın danışır...

...mən də ki birtəhər baş saxlayıram,
Könlümü bir azca xoş saxlayıram.
Aylardı, illərdi boş saxlayıram,
Kətilin danışır, darın danışır...

## DEMƏK Kİ, YAZIYA POZU YOXUYMUŞ...

Nələri itirdim, nələr çıxandan,
Elə bil heç izi-tozu yoxuymuş...
Yoxuymuş, mən sürən ömür adında
dünyanın bir çürük qozu yoxuymuş...

Gəldi bu gələn də haramın üstdə,
Yığdı batmanları qramın üstdə.
Heç bunun hərdən bir yaramın üstdə
səpməyə bir çimdik duzu yoxuymuş...

Oyunmuş nə varsa, oyun, əzəldən,
Qurtara bilmirik boyun əzəldən.
Qoyunmuş sanki bu qoyun əzəldən,
O tifil, südəmər quzu yoxuymuş...

Elə haq dediyin üzüldü bitdi,
Ya ləldi, gövhərdi, qızıldı, bitdi...
Bu da bir şeirdi, yazıldı, bitdi,
Demək ki, yazıya pozu yoxuymuş...

## GÖYDƏ TUTASAN...

Sözünü bu qədir-qiymətdə, canım,
Adını bu kökdə, soyda tutasan.
Özünü bir ömür bu ucalıqda,
Elə bu qamətdə, boyda tutasan...

Keçsən də keçəsən başa başınnan,
Paşa ürəyinnnən, paşa başınnan.
Sevincin o qədər aşa başınnan,
Qonuma-qonşuya pay da tutasan...

Sevəsən, gələsən xoşuna hərdən,
Dönüb, dolanasan başına hərdən.
Baxmayıb gözünün yaşına hərdən
Özünə divan da, toy da tutasan...

Beləmi fərqliymiş həyat şəhərdə,
Üzü bər-bəzəkli boyat şəhərdə...
İtirib özünü bu yad şəhərdə
Gedəsən dos-doğma köydə tutasan...

İçinin bəhrəsin, barın dərəsən,
Beş-on kitab ola vərin-vərəsən.
Kimləri qoruyur kimdən görəsən,
Kiminçün bu qanun, qayda, tutasan...

Bir şey ki gözünə təpilir yalan,
Bir şey ki boşuna tapdanır palan.
Hələ nə çalır ki bu zurnaçalan,
Durub bu zurnaya züy də tutasan...

Nə deyim fələyi...Deyə bilmədim,
Boş durmur ələyi, deyə bilmədim.
Nəyi dedim, nəyi deyə bilmədim-
Gərək arif olub göydə tutasan...

## UZAĞI SEÇMƏK OLMUR...

Asanca gəlsək belə,
Dünyadı, köçmək olmur.
...Bir ayıb minməkdisə,
Bir ayıb düşmək, olmur...

Var açarı, kilidi,
Dirisənsə, diridi.
Dərdi övlad kimidi
Çəkilir, keçmək olmur...

Öyüb vaxtı deyirlər,
Tacı, taxtı deyirlər.
Bax, bu haqdı deyirlər
Yanımda çeşmək olmur...

Yaman bahadı kirəm,
Sözlərdən ev tikirəm.
Mən elə gecikirəm,
Mənə görüşmək olmur...

Hələ həmin baxtdayam,
Fanidə, nahaqdayam.
Gözlərdən uzaqdayam;
Uzağı seçmək olmur...

# Ekologiya və ətraf mühitin mühafizəsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 15 (2487) 24 aprel 2026-cı il


# ÇAYLARA, GÖLLƏRƏ MƏİŞƏT TULLANTILARI ATILIR



**Çox qəribədir ki, biz Allahın insanlara bəxş etdiyi bu gözəl təbiəti sevə və qoruya bilmirik. Biz Allaha şükür etməliyik ki, təmiz havamız, suyumuz, torpağımız mövcuddur. Bayaq dediyimiz kimi, bütün bunların hamısını Ulu Tanrı bizə bəxş edib. Əlbəttə, bu gözəl varlıqların, bu gözəl təbiətin, yaşıllıqların, ağacların, çayların, göllərin, dənizlərin, okeanların qədirini bilməsək heç şübhəsiz ki, biz insanlara gec-tez təbiət öz cəzasını verə bilər.**

Məgər belə hallar az olub? Allahın qəzəbi tutub nəinki günlərlə, hətta aylarla, illərlə yer üzünə yağış yağdırmayıb. Bir dəfə uzun müddət Ərəbistanda yağış yağmır və quraqlıq olur. Təbii ki, bu quraqlıq zamanı da nə ağaclar inkişaf edir, nə də taxıl bitir. Ona görə də insanlar bütün günü Allaha dua edirlər ki, yağış yağsın. Yağış da yağmır ki, yağmır. Axırda çoxlu sayda insan toplaşıb Məhəmməd peyğəmbərin hüzuruna gedirlər. Deyirlər ki, ya peyğəmbər, biz Allaha dua edirik ki, yağış yağsın, taxılımız qurumasın. Ancaq Allah da dualarımızı qəbul etmir. Sizin yanınıza gəlmişik ki, bizə kömək edəsiniz. Peyğəmbər də onları dinləyir və deyir ki, yəqin günahlarımız böyük olduğuna görə Allah bizi cəzalandırır. Peyğəmbər həmin insanlar gedəndən sonra özü Allaha dua edir və yağış yağmasını Ulu Yaradandan istəyir. Heç yarım saat keçmir ki, bir leysan yağış yağır gəl görəsən. Bütün yaşıllıqlara, güllərə, çiçəklərə, zəmilərə can verir. Və həmin il bol məhsul olur, insanlar aclıqdan çıxır.

İndi deyəsən, təbiət də bizi az yox, çox yağış yağmaqla cəzalandırır. Gərək insanlar bu anı, bu dəqiqəni heç vaxt yaddan çıxarmasınlar. Fikirləşsinlər ki, ayə, bizim günahımız nə imiş ki, Tanrı bu qədər yağış yağdırır. Düzdür, bu yağış təbiətə can verir, amma həddindən artıq yağması isə insanlara problem yaradır, həyətləri su basır, maşınlar suyun altında qalır və adamlar çöllərə düşüb kömək istəyir. Nə isə, sözümüzün canı ondan ibarətdir ki, bu gün təbiəti qorumaq hər birimizin bir insanlıq borcudur. Çox təəssüf ki, biz bu borcu bəzən əksəriyyətimiz yaddan çıxarır. Çox yox, elə bu yazımızda biz bir neçə çayın və gölün çirklәndirilməsindən söhbət açmaq istəyirik.



Füzuli rayonunun ərazisindən min illik tarixi olan bir çay axır - Quruçay. Və bu Quruçay özü bir tarixi mədəniyyət, bizim keçmişimiz, başqa sözlə demiş olsaq, həyatımızdır. Çox vaxt bu çayda su az olur. Elə bundan da istifadə edən insanlar əllərinə düşən məişət tullantılarını çayın içinə atırlar. Su da çoxalanda çayda zibil əlindən tərpənmək olmur. Bir tərəfdən su çirklənir, digər tərəfdən isə çay zibildən sanki boğulur. Xüsusən də rayonun Böyük Bəhmənli kəndində belə məişət tullantıları Quruçaya daha çox atılır. Bu barədə kənd sakinləri hətta lazımi qurumlara müraciət ediblər. Onlar da gəlib baxıblar və deyiblər ki, tədbir görərik. Tədbir də deyəndə təbii ki, aidiyyatı qurumlar kimisə cərimə etmək barəsində düşünür. Amma cərimədən də öncə insanlar arasında maarifləndirmə işlərinin aparılmasıdır.

Ən azından kəndin bələdiyyəsi və eləcə də rayon üzrə icra hakimiyyətinin nümayəndəsi insanlarla bu söhbətləri apara bilərlər. Deyilənlərə görə, onlar bu söhbətləri az da olsa ediblər, amma nəticə yoxdur. Görünür, burda hardasa maarifləndirmə işlərində də bir zəif halqa mövcuddur. Əgər böyük bir kəndin sakinləri ilə çox ciddi, özü də qanunun dili ilə və səmimi söhbət edilsə, biz inanırıq ki, insanlar həmin yerlərə məişət tullantıları atmaz.

Ümumiyyətlə, bələdiyyələr və icra nümayəndələri məişət tullantılarının kəndlərdə zibil qutularına atılması üçün lazımi şərait yaratmalıdır. Bu şərait olsa heç şübhəsiz, ayrı-ayrı adamlar əllərinə düşən məişət tullantılarını ya çaya, ya da digər yerlərə və o cümlədən yaşıllıqların arasına atmaz. Birincisi, məişət tullantılarının həmin yerlərə atılması yaşıllıqların və çayların çirklənməsi deməkdir. İkincisi də orda üfunət qoxusu yaranır. Bütün bunlar isə nəticədə ekologiyamıza, havamıza və çayımıza böyük zərbələr vurur. Təkcə Quruçay çirkləndirilməklə problem yaranmır, burda çay yatağında çox zəngin təbii sərvətlər, qum, çınqıl var və həmin qum, çınqılı da müəyyən iş adamları çayın ortasında istehsalat sahəsi yaradıb orda böyük işlər görürlər.

Yəni qum, çınqıl çayın içindən təmizlənib tikinti materialı kimi satışa çıraxırılır. Bu isə çayın süxurlarının, qum, çınqıl qatının məhv olunması deməkdir. Kimlərsə pul qazanacaq deyə Quruçay kimi keçmişi və tarixi olan bir çayı məhv edə bilməz.

Çaylar, göllər biz insanlar üçün Allahın verdiyi ən gözəl sərvətdir. Təbii ki, heç də hər şey bizim düşündüyümüz kimi deyil. Yəni bizim də düşündüyümüz ondan ibarətdir ki, Allahın verdiyi bu sərvəti niyə belə məhv edirik. Ağacları qırırıq, gülləri, çiçəkləri məhv edirik, çayları, gölləri, dənizləri çirkləndiririk. Ora təmizlənməmiş çirkli sular axıdırıq. Amma düşünmürük ki, biz onlara zərbə vurmaqla öz sağlamlığımıza, gələcək həyatımıza, içməli suyumuza zərər toxundururuq.

Quruçaydan axan sular gedib Araza qovuşur. Araz isə Kürlə birləşir. Yəni demək istəyirik ki, hər kənddə, hər yaşayış məntəqəsində suları çirkləndirsək, bəs biz o sulardan necə istifadə edə biləcəyik? Düzdür, kənd təsərrüfatı üçün o suların təmizlənməsinə bir o qədər də ehtiyac yoxdur.

Ancaq heç kimə sirr deyil ki, Kürün və Arazın suyundan Bakıda və digər yaşayış məntəqələrimizdə içməli su kimi istifadə olunur. Onun tərkibində nə qədər çirkab sular, ağır metallar çox olsa onun təmizlənməsi də bir o qədər müşkül bir məsələyə çevrilə bilər.

**Gəlin onunla razılaşaq ki, biz istəsək də, istəməsək də bu gün dünyada çox böyük qlobal bir problem mövcuddur - içməli su problemi. Mütəxəssislər hesablayıblar ki, 2050-ci ildə Yer kürəsində içməli su üstündə böyük müharibələr olacaq və ölkəmiz də içməli su sarıdan problem yaşayır. Belə bir problemi olan ölkəmizə biz hər birimiz kömək etməli, çayları, gölləri, içməli su hövzələrini çirkləndirməməli və öz gələcək həyatımız barəsində ciddi düşünməliyik. Ciddi düşünməliyik ki, bizim hər birimiz mövcud qanunlara əməl edək, çaylarımız və göllərimizi çirkləndirməyək!**

**Emil FAİQOĞLU**


AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

*Aydın Bağırov*



## Qurban Qurbanov nəyə və kimlərə gülürdü?

**Bu tragikomediya təkcə axır 20 gündə bizim futbolda yaşanıb. Yadıma salmaq istəyirəm ki, son illər Azərbaycan hakimliyini bu qədər hörmətdən salan, onun nüfuzunu iki qəpiklik edən qərarlar olmuşdu?**

**Xatırlaya bilmirəm.**

**Əvvəl Əliyar Ağayev "Turan Tovuz"un haqqına girdi.**

**Bəs, AFFA Hakimlər Komitəsinin sədri Rəhim Həsənov nə dedi? "Əliyar səhv edib" dedi.**

**Amma necə deyərlər, "Turan"a dəyən zərbə artıq dəymişdi. Və nədənsə, bunun məsuliyyətini kimsə üzərinə götürmədi, bir üzrxahlıq belə etmədi.**

**Üstündən iki həftə keçmiş "Zirə" - "Neftçi" oyununda daha bir hoqqabazlığın şahidi olduq. Bu dəfə baş rolda İnqilab Məmmədovla VAR-da oturan Nicat İsmayıllı idi.**

**AFFA Hakimlər Komitəsinin sədri Rəhim Həsənov yenə ədaləti bərpa edirmiş kimi dedi: "Hakim səhv edib".**

**Amma indi də zərbə "Neftçi"yə dəymişdi. Görəsən, bu, "Neftçi"dən və onun azarkeşlərindən başqa kiminsə vecinə idimi?**

**Çətin.**

**Hakimliyin rəzalət dalğasına dünən "Sabah" - "Qarabağ" oyunu da düşdü. Guya hakim olan Rəvan Həmzəzadə və guya hakim olan**

**Kamranbəy Rəhimov 90+6-cı dəqiqədə "Qarabağ"ın halal penaltisini vermədi.**

**Yəqin AFFA Hakimlər Komitəsinin sədri Rəhim Həsənov yenə qətiyyətlə deyəcək: "Hakim səhv edib".**

**Amma Rəhim Həsənov daha bu gərgin ortamı malalamaqdan qaçsa yaxşı olar. Çünki onun açıqlamaları artıq urvatsız və hörmətsiz olub. Öz hakimlərinin sayəsində.**

**Qurban Qurbanov isə "Sabah"la oyunun axırında həm də hakimliyin, hakimlərin bərbad vəziyyətinə gülürdü. Amma təkcə hakimliyinmi, hakimlərinmi?..**

## *"Fantaziya" hamamı sökülür?*

**Bakının Dilarə Əliyeva küçəsində yerləşən, 1896-cı ilə aid tarixi "Fantaziya" hamamının söküləcəyi ilə bağlı iddialar yayılıb.**

Adalet.az xəbər verir ki, bu iddialar sosial şəbəkələrdə müzakirə mövzusuna çevrilib.

Məsələ ilə bağlı Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətindən "Qafqazinfo"ya bildirilib ki, hamamın sökülməsi ilə bağlı yayılan iddialar doğru deyil: "Həmin hamam tarixi abidədir, hazırda xüsusi mülkiyyətdədir. Tarixi tikilinin bərpa və konser-



vasiyaya ehtiyacı var. Amma onun sökülməsindən söhbət gedə bilməz. Qorunmasına Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tərəfindən nəzarət həyata keçirilir".

Qeyd edək ki, "Fantaziya" hamamı 1896-cı ildə inşa olunub və Bakının ilk Avropa tipli hamamlarından biri hesab edilir. Bina eyni zamanda şəhərdə elektrik xətti çəkilən ilk kommersiya obyektlərindən olub. 13 yanvar 1897-ci ildə istifadəyə verilən hamam 2010-cu ilə qədər fəaliyyət göstərib. Həmin ildən etibarən isə dövlət tərəfindən yerli əhəmiyyətli tarix-mədəniyyət abidəsi kimi qorunur. 2012-ci ildən sonra obyekt istifadəsiz qalıb. Həmin il burada "Qorxma, mən səninləyəm! 1919" filminin bir səhnəsi də çəkilib.

2022-ci ildə isə mülkiyyətçi tərəfindən binanın sökülərək yerində yeni tikinti aparılması məqsədilə ərazi hasarlanıb. Lakin ictimaiyyətin və Azərbaycan Memarlar İttifaqının müdaxiləsi nəticəsində söküntünün qarşısı alınıb, hasarlar söküIüb və müvafiq tədbirlər görülüb.

## BAŞSAĞLIĞI



**Qarakişizadə Cəlal Yaşar oğlu 12 mart 2026-cı ildə vəfat edib.**

**Q. Cəlal Yaşar oğlu 13 yanvar 1994-cü ildə Bakı şəhərində anadan olub.**

**Cavan yaşda dünyasını dəyişən Cəlal, qayğıkeşliyi, sadəliyi, səmimiliyi və təvazökarlığı ilə hörmət qazanmış, ailəsinə və yaxınlarına bağlı, yüksək mənəvi dəyərlərə sahib bir insan olub. Q.Cəlalın vəfatı onu tanıyan hər kəs üçün olduqca ağırdır. Onun əziz xatirəsi daim qəlblərdə yaşayacaqdır.**

**Dostları mərhumun doğmalarına, əzizlərinə dərin hüznlə başsağlığı verir, acılarını və kədərlərini bölüşür.**

**Allah rəhmət eləsin!**

## *Yuxudan 3 saat əvvəl bunlardan uzaq durun*

**Bəzi vərdiş halını almış axşam fəaliyyətləri qan təzyiqinin yüksəlməsinə səbəb ola, eyni zamanda orqanizmin gecə bərpasına maneə törədə bilər.**

Adalet.az xəbər verir ki, xüsusilə saat 18:00-dan sonra müəyyən davranışlardan çəkinmək sağlamlıq üçün vacibdir.

Həkimlər bu baxımdan qarşısı alınmalı olan bir sıra məqamları açıqlayıblar. Belə ki, güclü ağız yaxalayıcılarının istifadəsi faydalı bakteriyaları məhv edərək azot oksidinin istehsalını azalda bilər. Bu maddə qan damarlarının rahatlamasına kömək etdiyindən onun çatışmazlığı təzyiqin artmasına təsir göstərir.

Eyni zamanda yatmazdan əvvəl smartfon və digər elektron cihazlardan yayılan mavi işıq melatonin hormonunun ifrazını zəiflədir. Bu isə həm yuxu rejiminə, həm də damar sağlamlığına mənfi təsir edir. Həkimlər axşam saatlarında intensiv statik məşqlərdən də uzaq durmağı tövsiyə edir. Plank kimi hərəkətlər qan təzyiqini bir neçə saat yüksək saxlaya bilər.

Bundan əlavə, sakitləşdirici əlavələrin, məsələn, yaşıl çayın tərkibində olan L-teaninin nəzarətsiz qəbulu sinir sistemi və ürək ritminə gözlənilməz təsir göstərə bilər.

Nəfəs məşqləri zamanı nəfəsi uzun müddət saxlamaq isə oksigen səviyyəsinin azalmasına və ürəyə əlavə yük düşməsinə səbəb ola bilər.

**Mütəxəssislər həmçinin gec saatlarda yemək yeməyin də zərərli olduğunu vurğulayır. Yatmazdan üç saatdan az müddət əvvəl qida qəbulu orqanizmin istirahət prosesini pozur, bu da qan təzyiqinə və ürəyin gecə bərpasına mənfi təsir edir. Buna görə də sağlam yuxu və normal təzyiq üçün axşam vərdişlərinə diqqət yetirmək tövsiyə olunur.**

## *Marsda həyatın mövcudluğuna dair güclü dəlil tapıldı*

**NASA-nın "Curiosity" robotu Marsda alimlər tərəfindən bu planetdə nə vaxtsa həyatın mövcud ola biləcəyinə dair ən inandırıcı sübutlardan biri kimi qiymətləndirilən üzvi molekullar aşkar edib.**

Adalet.az xəbər verir ki, bu barədə "Mirror" nəşri yazıb.

Aşkarlanan molekullar arasında Yer üzündə həyatın yaranmasının əsasını təşkil edən birləşmələr, o cümlədən DNT-nin ilkin formalarına bənzəyən azot tərkibli molekul da var. Lakin əlavə tədqiqatlar təhlükə altına düşüb.

Belə ki, Marsdan nümunələrin Yerə gətirilməsini nəzərdə tutan "Mars Sample Return" proqramı maliyyə çatışmazlığı səbəbindən yanvarda dayandırılıb. Əvvəllər də NASA-nın büdcəsini azaltmağa cəhd etmiş Ağ Ev administrasiyası indi büdcənin də 23 faiz ixtisar olunmasını təklif edir. Planetoloq alimlər bunu "dərin məyusedici qərar" adlandırıblar.

Florida Universitetinin professoru Emi Uilyams bildirib ki, mümkün həyat izlərinin qəti təsdiqi üçün Mars süxurlarının nümunələri Yerə gətirilməlidir. Onun sözlərinə görə, aşkar edilən birləşmələr Marsda 3,5 milyard ilə qədər qorunub saxlanıla bilər.

Professor qeyd edib ki, artıq alimlər Mars torpağının üst qatlarında iri və mürəkkəb üzvi birləşmələrin qorunub qaldığını bilirlər. Bu isə həyatın göstəricisi ola biləcək belə maddələrin saxlanması baxımından böyük imkanlar açır.

**Bundan əvvəl "Applied and Environmental Microbiology" jurnalı yazıb ki, NASA-nın Reaktiv Hərəkət Laboratoriyasının alimləri "Aspergillus calidoustus" göbələyinin Marsa uçuşu və Qırmızı planetin şəraitini təqlid edən ekstremal mühitdə sağ qala bildiyini müəyyən ediblər.**

## Barat Vüsal gecəsi



**2026 -cı il aprelin 25 də saat 19-00 da Beynəlxalq Muğam Mərkəzində Azərbaycan Yazıçılar Birliyinin Qazax bölməsinin Sədri, şair-publisist, Əməkdar İncəsənət Xadimi Barat Vüsalın 75 illik yubileyi keçiriləcəkdir. İştirak etmək istəyənlər üçün giriş azaddır.**

## *Əməkdar artist: "Təkcə oxumuram, həm də..."*



**Əməkdar artist Lalə Məmmədova tamaşaçıları təəccübləndirməyib bacarıb.**

Adalet.az bildirir ki, o, peşəkar üzgüçülüklə məşğul olduğunu söyləyib:

"Nadir Qafarzadə deyir ki, mən çörəyi, yemirəm, qoxlayıram. Dedim ki, Nadir çörək yediyin yerdə şəklini paylaşacam. Mən çörəyi qoxlamıram. Çörək Allahın nemətidir, əgər ürəyim istəyirsə, yeyirəm. Amma qədərində yeyirəm. Gündə iki dəfə qidalanıram. Əgər hər hansı bir neməti yemək istəyirəmsə, günün birinci yarısı onu yeyirəm. Və axşama qədər hərəkətdə oluram. Pilateslə məşğulam. Formada qalmağa çox kömək edir.

Ümumiyyətlə, idman həyat tərzimdir. Mən 14-15 yaşından peşəkar üzgüçülüklə məşğulam. Təkcə oxumuram, həm də üzgüçüyəm".

## *"Məni efirlərə dəvət etmirlər"*



**Uzun zamandır efirdə görünməyən əməkdar artist sükutu pozub. Adalet.az bildirir ki, sənətçi efirlərə dəvət almadığını söyləyib:**

"Bəzi aparıcılar məni efirə dəvət etmir. Yəqin ki, onlara maraqlı deyiləm. Zaur Nəbioğlu, Zümrüd Bədəlova, Zaur Kamal, Yalçın məni verilişlərinə ya çağırmır, ya da nadir hallarda dəvət edirlər. Əlbəttə, bu məni məyus edir. Sənətkar dəyər görməlidir. Dövlətimizin layiq bildiyi fəxri ada görə minnətdaram, ancaq gündəm üçün efir lazımdır. Adlarını saydığım aparıcılar efirə dəvət etdikləri müğənnilərdə başqa nüanslar var ki, tez-tez efirlərə dəvət alırlar".

## *Rəqqasə: "Həftədə iki dəfə yanıma gəlir"*



**Rəqqasə Fatimə Fətəliyeva şəxsi həyatı ilə bağlı etiraflar edib. Adalet.az bildirir ki, rəqqasə qaynanasının ona kömək etdiyini etiraf edib:**

"Əslində oğluma qaynanam baxır. Həftədə iki dəfə mənim yanıma gəlir. Mən özüm istəyirəm ki, atası ilə daha çox vaxt keçirsin. Oğlan uşağı atası ilə daha çox vaxt keçirsə yaxşıdır. Təbii ki, anasıyam və mənimlə nəfəs alır. Boş vaxtım olan kimi gəzintiyə gedirik. Övladıma diqqətimi əsirgəmirəm.Ancaq işlərim çox olduğu üçün hər tələsirəm ki, hər işimi çatdırım".

**Əntiqə**

Aslan Mehdiyev ailə üzvləri ilə birlikdə həkim **Mikayıl Qarayevə** atası

**Fərahim Qarayevin**

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.


**Təsisçi və baş məsləhətçi:** Aqil ABBAS
**Baş redaktor:** İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı şəhəri, Neftçilər 67, mənzil 21 A
**Telefon: (012) 491-23-53**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 275**
Çapa imzalanmışdır: 23.04.2026